AMK

Azərbaycan Milli Konservatoriyası - 20 il. Yubiley toplusu. Bakı, "ATRA" MMC, 2020, 160 s.

ISBN 978-9952-33-040-3

Bu kitab Azərbaycan Milli Konservatoriyasının 20 illik yubileyi ilə əlaqədar tərtib edilmişdir. Topluya AMK-nın kafedraları, pedaqoji heyəti, AMK-nın nəzdində olan Musiqi Kolleci və İncəsənət gimnaziyası barədə məlumat, tarixi fotoşəkillər, konsertlər, xarici səfərlər, eləcə də dərs prosesini əks edən materiallar daxil edilmişdir.

© Azərbaycan Milli Konservatoriyası



# AZƏRBAYCAN MİLLİ KONSERVATORİYASI

**20 il**

**2000-2020**



**Heydər Əliyev**
Azərbaycan xalqının Ümummilli lideri

Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANINDAN

Müstəqil Azərbaycan Respublikasında təhsil sahəsində geniş miqyaslı islahatlar həyata keçirilir. Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 15 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş İslahat Proqramından irəli gələn məsələlərin həlli, o cümlədən təhsilin idarə olunmasında yeni prinsiplərin bərqərar olması, təhsilin dünya standartlarına uyğunlaşdırılması, onun məzmununda köklü keyfiyyət dəyişikliklərinin aparılması təhsil sisteminin təkmilləşdirilməsini bir vəzifə olaraq qarşıya qoyur.

Bakı Musiqi Akademiyasının xalq musiqisi profili ixtisaslarının və Azərbaycan Dövlət Musiqi Texnikumunun bazasında Azərbaycan Milli Konservatoriyası təsis edilsin. Konservatoriyanın nəzdində fəaliyyət göstərən Musiqi Kolleci yaradılsın.

Bu Fərman dərc olunduğu gündən qüvvəyə minir.

**HEYDƏR ƏLİYEV,**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 13 iyun 2000-ci il

№ 349

Azərbaycan Milli Konservatoriyasının maddi-texniki bazasının yaradılması haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Milli Konservatoriyasının yaradılması ilə əlaqədar qərara alıram:

1. Azərbaycan Respublikasının Təhsil Nazirliyi on gün müddətində Azərbaycan Milli Konservatoriyasının yaradılmasını və onun tərkibinə Musiqi Kolleci və İncəsənət Gimnaziyasının daxil olunmasını təmin etsin.

2. Azərbaycan Respublikasının Təhsil Nazirliyi on gün müddətində Azərbaycan Milli Konservatoriyasının strukturunu müəyyən edərək Bakı Musiqi Akademiyasının xalq musiqisi ixtisasları üzrə kadrları, tələbə kontingenti və tədris ləvazimatının, eləcə də Musiqi Kolleci və İncəsənət Gimnaziyasının tədris bazalarının bütövlükdə Azərbaycan Milli Konservatoriyasının sərəncamına verilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi on gün müddətində Azərbaycan Milli Konservatoriyasını və Musiqi Kollecini müvafiq bina ilə təmin etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Milli Konservatoriyasının, onun nəzdində olan Musiqi Kolleci və İncəsənət Gimnaziyasının fəaliyyətini təmin etmək üçün müvafiq maddi-texniki bazanın yaradılması ilə bağlı məsələləri həll etsin.

5. Bu Sərəncam dərc edildiyi gündən qüvvəyə minir.

**HEYDƏR ƏLİYEV**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 10 avqust 2001-ci il

№ 785



**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti

Azərbaycan Milli Konservatoriyasının əməkdaşlarına fəxri adların verilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Milli Konservatoriyasının 20 illiyi münasibətilə və Azərbaycanda milli musiqi təhsilinin inkişafındakı xidmətlərinə görə Azərbaycan Milli Konservatoriyasının aşağıdakı əməkdaşlarına fəxri adlar verilsin:

**“Xalq artisti”**

Həşimov Elçin Ləzgi oğlu

Mansurov Elşən Məmməd oğlu

Mansurov Malik Məmməd oğlu

**“Əməkdar incəsənət xadimi”**

Hüseynova Lalə Şirməmməd qızı

**“Əməkdar mədəniyyət işçisi”**

Seyidova Yaqut Şıxseyid qızı

**“Əməkdar müəllim”**

Abdinzadə Firuz Zeynal oğlu

Ələkbərov Sabir Ələkbər oğlu

Əliyev Adıgözəl Məmmədhüseyn oğlu

Nağıyev Elçin Ağaşirin oğlu

Şahməmmədova Naibə Məqsud qızı

Yusifova Təranə Əbülfəz qızı

Azərbaycan Milli Konservatoriyasının əməkdaşlarının təltif edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Milli Konservatoriyasının 20 illiyi münasibətilə və Azərbaycanda milli musiqi təhsilinin inkişafındakı xidmətlərinə görə Azərbaycan Milli Konservatoriyasının aşağıdakı əməkdaşları təltif edilsinlər:

**“Tərəqqi” medalı ilə**

Bayramov Təyyar Allahverdi oğlu

Əhmədov Elnur Oruc oğlu

Əliyeva Ülkər Sabir qızı

Əzizov Ramiz Mahmud oğlu

Fətalıyev Şirzad Nizan oğlu

Hacızadə Hicran Səmədağa qızı

Hüseynli Anar Vaqif oğlu

Məmmədov Məmmədəli Mirəli oğlu

Müzəffərov Bakıxan Məmmədqulu oğlu

Paşazadə Sahib Ağaverdi oğlu

**“Şərəf” ordeni ilə**

Kərimi Siyavuş Əşrəf oğlu

**2-ci dərəcəli “Əmək” ordeni ilə**

Kazımov Nazim Kazım oğlu

**İLHAM ƏLİYEV**

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 30 dekabr 2020-ci il.

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ÖLMƏZ YADİGARI – AZƏRBAYCAN MİLLİ KONSERVATORİYASI



***Siyavuş Kərimi***
*Azərbaycan Milli Konservatoriyasının rektoru, xalq artisti, professor*

20 il öncə, 2000-ci il iyun ayının 13-də Ümummilli liderimiz Heydər Əliyev Azərbaycan musiqisinin gələcək inkişafına yönəlmiş tarixi bir fərman imzaladı. Bununla da, ikinci minilliyin başlanğıcında Azərbaycanda yeni ali təhsil ocağı – Azərbaycan Milli Konservatoriyası təsis edildi. Ustadlardan bizə miras qalmış milli musiqi ənənələrini layiqincə qorumaq, yaşatmaq, gələcəyə çatdırmaq naminə verilmiş bu taleyüklü fərmanda zəngin muğam sənətimizin və milli musiqi alətlərimizin tədrisi, ilk dəfə olaraq müstəqil şəkildə, ayrıca fəaliyyət göstərən ali təhsil müəssisəsi səviyyəsində bərqərar olundu. Azərbaycan Milli Konservatoriyası əsrlərlə formalaşan Qərb Konservatoriya təhsilinin əsl Şərq modelini ortaya qoydu və bu, ilk dəfə Azərbaycanda Ulu öndərimizin uzaqgörənliyi nəticəsində baş tutdu.

Əslində Şərq dünyasının musiqi aləmində Azərbaycan diyarı məxsusi bir məkan olub. Səfiəddin Urməvi, Əbdülqadir Marağayi və Orta əsrlərin digər mütəfəkkirlərindən başlamış XX əsrdə Üzeyir Hacıbəyliyə və müasir dövrümüzə qədər yaşayıb-yaratmış böyük musiqi dühaları Şərq musiqisində yeni yollar açıb, onun inkişaf yollarını müəyyənləşdiriblər. Əlamətdardır ki, yeni minilliyin başlanğıcında – 2000-ci ildə yenə də Azərbaycan musiqi təhsili sahəsində köklü yeniliklərlə gündəmə gəldi.

20 il tarix baxımından o qədər də böyük müddət deyil. Lakin bizim üçün bu illər sözün əsl mənasında axtarış və yüksəliş illəri oldu. Heydər Əliyevin yadigarı olan gözəl musiqi məbədimiz 20 il ərzində böyük inkişaf yolu keçərək hazırda Azərbaycanın ali məktəbləri sırasında öz layiqli yerini tuta bilmişdir. 2014-cü ildə Prezident İlham Əliyev və Mehriban xanımın iştirakilə açılışını etdiyimiz Azərbaycan Milli Konservatoriyasının yeni inzibati-tədris kompleksi isə öz gözəlliyi, rahatlığı və müasirliyi ilə bizə vaxtaşırı təşrif buyuran xarici qonaqların böyük heyrətinə səbəb olur.

Məlumdur ki, Azərbaycanda peşəkar musiqi təhsili sisteminin formalaşması öz əsasını keçən əsrin əvvəllərindən götürür və artıq sovet dönəmində bu prosesin milli musiqi maraqlarına uyğun şəkildə həyata keçməsində bir çox maneələr yaranmışdı. Milli-mənəvi dəyərlərə təftişçi münasibət qədim muğam sənətimizi, onunla bilavasitə bağlı olan çalğı alətlərimizi tarix səhnəsindən yox olmaq təhlükəsi ilə üzləşdirdi. Yalnız dahi bəstəkarımız Üzeyir Hacıbəyli və onun sadiq məsləkdaşlarının əzmi nəticəsində ulu muğam sənətimiz öz əzəli yaşam tərzini və şifahi şəkildə ustad-şagird yolu ilə tədris üsullarını qoruyub saxlaya bildi. Xüsusi vurğulayaq ki, bu, məqam-muğam ənənəsi olan bütün sovet respublikalarında baş vermədi. Elə buna görə də Azərbaycan muğamı öz qədim varislik ənənəsini hifz edərək,

əzəli təbiətini və üslubunu yeni nəsillərə çatdırmaq qüdrətində oldu. Lakin Sovet dönəmində yaradılmış 3 pilləli təhsil sistemində muğamın tədrisi yalnız orta təhsil səviyyəsində qərarlaşa bildi və Azərbaycan musiqisinin əsas janrları olan muğam və aşıq sənətlərinə bu tərz ögey münasibət uzun müddət davam etdi. Bütün bu olayların aynasında, yeni həyat mərhələsinə qədəm qoymuş müstəqil Azərbaycanda Ulu öndərimiz Heydər Əliyevin qərarı ilə yeni ali musiqi təhsili ocağının ərsəyə gətirilməsi, zənnimcə, həqiqətən də müstəsna əhəmiyyətə malik bir hadisə idi.

Milli Konservatoriyanın yaradılması ilə başlanğıc alan bu taleyüklü proseslər möhtərəm Prezidentimiz İlham Əliyevin və hörmətli Mehriban xanımın böyük səyi nəticəsində möhtəşəm davamını tapdı: Azərbaycan musiqi sənətinin əsas istiqamətləri – muğam sənəti, aşıq sənəti, tar və kamança ifaçılığı YUNESKO-nun qeyri-maddi şedevrləri siyahısında yer almış, Beynəlxalq Muğam Mərkəzi fəaliyyətə başlamış, Beynəlxalq muğam festivalları, elmi simpoziumları və müsabiqələri möhkəm və davamlı ənənəyə çevrilmiş, milli musiqi nümunələrimizin rəqəmsal texnologiyalarla təbliği böyük vüsət almışdır. Bütün bu proseslərdə məhz Azərbaycan Milli Konservatoriyası ən görkəmli sənətkarları öz ətrafına toplayaraq bu sahədə öndə gedən tədris müəssisəsi kimi fəaliyyət göstərmişdir. Konservatoriyanın professor-müəllim heyətinin, istedadlı tələbə və məzunlarının sorağı dünyanın mötəbər konsert salonlarından və festivallarından, müsabiqələrindən gəlir. Mübaliğəsiz demək olar ki, ölkəmizin televiziya və radio efirində muğam və xalq musiqisini, bəstəkar əsərlərini ifa edən xanəndələrin, xalq çalğı alətləri ifaçılarının, müğənnilərin əksəriyyəti Milli Konservatoriyanın müəllim, tələbə və məzunlarıdır. Ümumiyyətlə, Milli Konservatoriya Respublikanın konsert həyatında, mədəniyyət tədbirlərində olduqca fəal rol oynayır.

Milli Konservatoriyanın fəaliyyəti nəticəsində muğam sənəti Azərbaycanda ilk dəfə ardıcıl, davamlı və sistemli şəkildə ali təhsil tədrisinə daxil olub. Bu işə görkəmli muğam sənətkarları və təcrübəli ustad-müəllimlər cəlb edilmişdir. Bunun nəticəsidir ki, Azərbaycanın ənənəvi musiqisini öyrənmək istəyənlərin sayı ilbəil durmadan artır. Xarici ölkələrdən – İran, Türkiyə, Koreya, Gürcüstan, Qazaxıstan, Özbəkistan, Litva, Almaniya, Kanada və Amerikadan bizim Konservatoriyada oxumağa, elmi təcrübə keçməyə və tədqiqat işləri aparmağa gələnlər vardır. Onlar tar, kamança, qanun, balaban, ney alətlərində ifa etməyə, muğamlarımızı, xalq mahnılarını və rəqslərimizi, bəstəkarlarımızın əsərlərini öyrənməyə ciddi maraq göstərirlər.

Milli Konservatoriya özündə yalnız əsrlərlə cilalanmış milli ənənələri qorumaq və gələcəyə ötürmək missiyasını daşımır. Daim dəyişən və yeniləşən dünyamız musiqi janrlarına və üslubuna, milli çalğı alətlərinə və ifaçılığına da təsir edir. Axı milli musiqi ənənələri donub qalmış muzey sənəti deyil. Bu ənənələr yalnız canlı mühitdə yaşayır, buna görə də dəyişir və zamana uyğunlaşır. Bizim milli alət ifaçılarımız, xanəndə və müğənnilərimiz bu proseslərdən heç vaxt geridə qalmayıb. Akademik musiqi təmayülləri, caz və populyar musiqi üslubları ilə dərin inteqrasiya nəticəsində milli musiqi ifaçılığının obraz-məzmun dairəsi genişlənib və müasirləşib. Elə buna görə də, Milli Konservatoriyada tədris olunan ixtisasların sayı da artır. Biz yenilik sorağında olan istedadlı tələbələrimizin belə təşəbbüslərinə çox həssas yanaşır və daim alqışlayırıq. Bunun üçün Konservatoriyamızın xudmani konsert salonunda hətta xüsusi “Musiqi saatları” da ayrılıbdır. Həftədə iki dəfə baş tutan bu saatlarda istənilən müəllim və tələbə öz ifasını, yaxud da, həmkarları ilə bölüşmək istədiyi yeniliyini nümayiş etdirə bilər. Bəzən yeniliklər qızğın mübahisələrə səbəb olur, bir sıra insanlara inandırıcı görünmür. Lakin bu, təbii haldır və hər şeyə rəğmən, biz tələbələrin yaradıcılıq əzmini hər

vasitə ilə dəstəkləməyə, onları ruhlandırmağa çalışırıq.

Yeniliklərin digər istiqaməti uzun illər səmərəli fəaliyyət göstərən "Milli musiqi alətlərinin təkmilləşdirilməsi" elmi-təcrübi laboratoriyamızın fəaliyyəti ilə bağlıdır. İlk dəfə olaraq bu laboratoriya milli musiqi alətlərimizin dövlət standartlarını hazırlayıb. Eyni zamanda tar, kamança, balaban alətlərinin bütöv ailələri yaradılmışdır. Milli Konservatoriyada bərpa olunmuş və yeni yaradılmış musiqi alətlərindən ibarət "Əsrlərin sədası" ansamblı fəaliyyət göstərir və bu ansambl artıq bir sıra beynəlxalq layihələrdə, mötəbər tədbirlərdə böyük uğurla çıxış etmişdir. Ümumiyyətlə, orijinal ansambl tərkiblərinin yaradılması Konservatoriyamızda yaxşı bir ənənəyə çevrilib və bu təşəbbüslər öz bəhrəsini verməkdədir.

Xüsusi qeyd etmək istədiyim bir nailiyyətimiz də – Konservatoriyada Xalq çalğı alətləri orkestrlərinin və xor kollektivlərinin mütəmadi olaraq və müvəffəqiyyətlə fəaliyyət göstərməsidir. Bizim hər dərs günümüz bu tələbə kollektivlərinin məşqləri ilə açılır. Biz ixtisasından asılı olmayaraq, hər bir musiqiçinin nəinki solist kimi, habelə musiqi kollektivlərində işləmək vərdişlərinin cilalanmasına böyük önəm veririk. Etiraf edim ki, belə bir gündəlik ənənənin yaranması ilk zamanlar müəyyən iradlara tuş gəlsə də, indi hamı onun yaxşı nəticələrini çox aydın görür və dərk edir. Bundan ruhlanan müəllimlərimiz hətta özlərinin ayrıca xor kollektivini də yaratmışlar və nəinki ölkəmizdə, onun hüdudlarından kənarda belə çıxışlar edir, dəvətlər alırlar. Necə deyərlər, çətini işi başlamaqdır.

Əlbəttə, bir məqalə çərçivəsində işimizin bütün istiqamətlərini, nailiyyətlərini və bizi düşündürən problemləri ortaya qoymaq mümkün deyil. Lakin o da həqiqətdir ki, tariximizin heç bir dönəmində milli musiqi ənənələrimizin daşıyıcılarına bu qədər diqqət və qayğı göstərilməyib. Ulu öndərimizin əsasını qoyduğu bu gözəl ənənə möhtərəm Prezident İlham Əliyevin və hörmətli Mehriban xanımın simasında daim öz layiqli davamını və inkişafını tapır. Azərbaycan Milli Konservatoriyasının bütün heyəti özünün yaranma tarixini - Ulu öndər Heydər Əliyevin 20 il öncə verdiyi qərarını minnətdarlıq hissilə anır, onun ölməz ruhu qarşısında ehtiramla baş əyirik. Bizim üçün çox əziz olan bu gündə, bütün illər ərzində bizə möhkəm dəstək olub daim göstərdiyi həssas diqqət və qayğıya görə möhtərəm Prezidentimiz İlham Əliyevə və hörmətli Mehriban xanıma ən dərin və səmimi minnətdarlığımızı, təşəkkürümüzü bildiririk. İnanırıq ki, Ümummilli liderimiz Heydər Əliyevin yadigarı olan Azərbaycan Milli Konservatoriyası bundan sonra da üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gələ biləcək.

***Siyavuş Kərimi***
*Azərbaycan Milli Konservatoriyasının rektoru,*
*xalq artisti, professor*

*"Xalq qəzeti", 12 iyun 2020-ci il*





















# TARİXİMİZİN SƏHİFƏLƏRİ: KEÇMİŞDƏN GƏLƏCƏYƏ APARAN YOLLAR...



Qədim müsiqi ansamblı

Etiraf edək ki, çalışdığımız Azərbaycan Milli Konservatoriyası sıradan bir təhsil müəssisəsi deyil. Çünki burada milli musiqi mədəniyyətimizin ən layiqli təmsilçiləri çalışır, ululların bizə miras qoyduğu qədim sənətin davamçılarını yetişdirirlər. Bu sənətkarların hər biri zəngin musiqi irsimizin görkəmli, tanınmış nümayəndələridir və onları öz ətrafına toplamış musiqi ocağı, sözün əsl mənasında böyük bir mənəvi xəzinənin qoruyucusu, daşıyıcısı və gələcəyə ötürücüsüdür.

2020-ci ildə Azərbaycan Milli Konservatoriyasının yaradılmasından düz 20 il ötür. Nəinki XXI əsrlə, hətta yeni minilliklə bərabər addımlayırıq və əlbəttə, bu müstəvidə çox gənc görünürük. Lakin konservatoriyamızın yaranması, təşəkkülü və inkişafına nəzər saldıqda bu illərin hər birinin quruculuq işində xüsusi əhəmiyyət kəsb etdiyini yaxşı anlayırıq. Ən başlıcası isə odur ki, illərlə qurulan təməlimiz çox möhkəm olub. Peşəkar və yüksək ixtisaslı kadrları kənardan, xarici ölkələrdən dəvət etməyə ehtiyac duymamışıq. Ulu öndərimizin imzaladığı fərman və sərəncamlarda yeni yaradılmış bu ali təhsil müəssisəsinin maddi-texniki bazası da dəqiq qeyd olunub. Onlara əsasən Azərbaycan Milli Konservatoriyasının tərkibində qocaman təhsil müəssisələri olan Bakı Musiqi Kolleci və Respublika İncəsənət Gimnaziyası yer almışdır. İlk dövrlərdə Milli Konservatoriya elə bu tədris ocaqlarının məkanlarında fəaliyyət göstərib və tələbə sayı təxminən 200-ə yaxın olub. Lakin 2014-cü ildə yeni və hər cür rahatlığa malik binaya köçməyimiz tələbə kontingentini 700 nəfərə qədər çatdırmağa imkan vermişdir.

Təbii ki, hər bir təhsil ocağı kimi, biz də öz yubileyimizi sanballı və rəngarəng layihələrlə qeyd etmək istədik. Bu münasibətlə hazırladığımız bir-birindən fərqli konsert proqramlarında daim içimizdən gələn ilham qığılcımlarını xüsusi bir şövqlə ortaya qoymaq arzumuz, əslində, təbii haldır. Biz, daima bu əhval-ruhiyyə ilə səhnəyə, efirə çıxırıq, tələbələrimizə də ilk növbədə seçdiyi sənətə vurğunluq və sözün ən yaxşı mənasında aludəçilik hissini aşılayırıq. Səhər tezdən qaranlıq çökənə kimi Konservatoriyamızdan musiqi sədaları gəlir. Elə tələbələrimiz var ki, məşğul olmaqdan qətiyyən yorulmurlar. Ustadlarımız da çətin sənət yolunda məhz belə addımlayıblar. Bir səsi, bir ovqatı tapmaq, içindən əxz etmək üçün gecələrini gündüzlərinə qatıblar. Əks təqdirdə, musiqimizin qeyri-adi sehrindən və cazibəsindən danışmaq, yəqin ki, mümkünsüz olardı. Bir də, sənətə peşəkar münasibət. Zirvələrə aparan yol məhz istedadla peşəkarlığın üzvi qovuşuğundan keçir. Bu, məlum həqiqətdir. Müəllimlərimizin gərgin əməyinin əsas məqsədi də istedadlı gənclərə peşəkarlığın sirlərini dönə-dönə aşılamaqdır.

Bütün bunlarla yanaşı fikirləşdik ki, illər ərzində yaşadıqlarımızı, ərsəyə gətirdiklərimizi, gördüyümüz işləri sözlə ifadə edib tarixin yaddaşına salmaq da yerinə düşər. Tarixə baxış isə bizi istər-istəməz sanballı və şərəfli keçmişimizə apardı. O musiqi tədrisi keçmişimizə ki, indi Azərbaycan Milli Konservatoriyası adlanan məxsusi bir təhsil ocağının yaranmasına tarixən vəsilə olub.

Doğma Azərbaycanımız özündə Yaxın Şərq musiqisinin zəngin ənənələrini yaşadır. Qədim muğam və aşıq sənəti zamanımıza qədər xüsusi peşəkar tədris üsulları ilə gəlib çatıb – Ustaddan şagirdə şifahi şəkildə ötürülmə yolu ilə. Musiqi tariximizdə muğam sənətini bu qaydalarla tədris edən xüsusi məktəblər haqqında bir çox bilgilər vardır.

Məlumdur ki, XIX əsrdə Qarabağın mərkəzində – Qafqazın Konservatoriyası kimi ad çıxartmış Şuşa şəhərində XX əsrin əvvəllərinə kimi dini musiqi məktəbləri fəaliyyət göstərib. Onların arasında muğam bilicisi Xarrat Qulunun (1823-1883) yaratdığı muğam məktəbi xüsusilə məşhur idi. Bu məktəblərdə dini təlimləri, habelə klassik ədəbiyyatı oxumaq üçün ərəb, fars dillərini öyrədir, muğamın tədrisini ustad-şagird ənənəsi ilə aparırdılar. Məktəbə ilk növbədə dini mərasimlərdə – məhərrəmlik təziyəsində, şəbih tamaşalarında iştirak etmək üçün gözəl səsi olan gənclər cəlb olunurdu.



*Sadıqcanın ansamblı. Sağdan sola: kamançaçı Ata Bağdagül oğlu, tarzən Sadıqcan, xanəndə Bülbülcan (mərkəzdə), nağarada Hüseynbala, Vaso Kikialişvili. Tiflis, 1878-ci il*



*Bülbülcan*

Xarrat Qulunun musiqi məktəbi Azərbaycan muğam sənətinin inkişafında mühüm rol oynayan bir sıra ustad sənətkarların yetişməsinə səbəb oldu. Qarabağın ən görkəmli xanəndələri – Hacı Hüsü, Məşədi İsi, Əbdülbağı Zülalov (Bülbülcan), Keştazlı Həşim, Keçəçi oğlu Məhəmməd, Cabbar Qaryağdıoğlu və məşhur tarzən Mirzə Sadıq Əsədoğlu məhz həmin məktəbin yetirmələri olmuşlar. Xarrat Qulunun vəfatından sonra Şuşada muğamın tədrisi işini Kor Xəlifə, daha sonra Molla İbrahim davam etdirərək, yeni musiqiçilər nəslini yetişdirdilər. Məlumdur ki, sonuncunun məktəbində böyük sənətkar Bülbül (Murtuza Məmmədov) xanəndəlik sənətinin sirlərinə yiyələnmişdi. Bu tərz mədrəsə təhsili ilk növbədə dini məqsədlərə xidmət etsə də, Azərbaycan muğam sənətinin inkişafında müstəsna rol oynayıb, Şərq dillərinə, ədəbiyyatına, dini-fəlsəfi baxışlara yaxşı bələd olan, onu iş dünyasında yaşadan ustad sənətkarların yetişməsini şərtləndirdi. Məhz bu tərz dini məktəblərin muğam tədrisi təcrübəsindən sonrakı dönəmlərdə yaradılan müasir musiqi məktəblərində istifadə olundu. Sovet ateist dönəminin bu tədrisdən ümumşərq kontekstini (ərəb və fars dillərinin, fəlsəfi-dini-əxlaqi dəyərlərin mənimsənilməsini) çıxarmasına baxmayaraq, muğamın tədrisinin ustad-şagird yolu ilə yeni musiqi təhsili sistemində yer alması özlüyündə çox əlamətdar idi.

1921-ci ildə Bakıda fəaliyyət göstərməyə başlayan Azərbaycan Dövlət Konservatoriyasında Üzeyir bəyin dəvətilə görkəmli xanəndə, Bülbülcan ləqəbli Əbdülbağı Zülalov (1841-1927) xanəndə-tələbələrə muğam dərsləri keçirdi. O, ömrünün sonuna kimi bu vəzifəni layiqincə icra etmiş və beləliklə müasir yönlü musiqi tədrisinə cəlb olunmuş ilk xanəndə-müəllim kimi də tarixə düşmüşdür. 1923-cü ildə konservatoriyanın opera-vokal şöbəsində təhsil almağa başlayan ilk azərbaycanlı tələbə isə gənc xanəndə, gələcəkdə öz yaradıcılığında milli oxuma tərzi ilə opera-vokal üslubunu üzvi şəkildə qovuşdurmuş Bülbül olmuşdur.

Muğam sənəti daşıyıcılarının ərsəyə gəlməsində XIX əsrdə Azərbaycanın müxtəlif şəhərlərində – Şuşa, Təbriz, Bakı, Şamaxı, İrəvan və Gəncədə geniş yayılmış ədəbi-musiqi məclisləri ənənəsinin böyük rolunu da xüsusi qeyd etmək gərəkdir. Bu kübar məclislərinə dövrün məşhur şair və musiqiçiləri toplaşır, öz yaratdıqları və yenilikləri ilə bölüşür və bununla da, klassik muğam sənətinin münbit mühiti şəraitində onun inkişafını təmin edirdilər. Xüsusilə, Şuşada böyük şairə, Xan qızı Xurşud Banu Natəvanın "Məclisi-üns", dövrünün görkəmli ziyalısı və musiqişünası Mir Möhsün Nəvvabın "Məclisi-fəramüşan" və "Məclisi-xanəndə", Bakıda Məşədi Məlik Mansurovun, Şamaxıda Mahmud ağanın ədəbi-musiqili məclisləri çox məşhur idi. Bu məclislər gənc xanəndə və sazəndələrin peşəkar kimi püxtələşməsində və tanınmasında çox böyük rol oynayıblar. Əlamətdardır ki, Azərbaycan Dövlət Konservatoriyasında Üzeyir bəyin dəvətilə muğamı tədris edən ilk tar müəllimlərindən biri Məşədi Məlikin oğlu, məşhur tarzən Mirzə Mənsur Mansurov olmuşdur.



*Tarzən Mirzə Mansur Mansurov*



*Xanəndə Seyid Şuşinski (soldan ikinci) öz ansamblı ilə 1916-cı il*



*Lənkəran, 1908-ci il. Səyyar musiqi məclisi. Mərkəzdə Cabbar Qaryağdıoğlu, Qurban Pirimov və Saşa Oqanezaşvili əyləşib.*



*Soldan sağa: Xanəndə Məşədi Məmməd Fərzəliyev, kamançaçı Sandro və tarzən Qurban Pirimov. Yelizavetpol, 1911-ci il*

Maraqlıdır ki, Şərq və Qərb musiqi təhsili sistemlərində tam fərqli tədris üsulları formalaşsa da, uzun zaman onlar eyni hədəfə və məqsədə xidmət etmişlər. Tarixi retrospektivdə bu ortaq təməl çox aydın görünür: hər iki qütbdə peşəkar musiqi tədrisinin yaranması və təşəkkülü möhkəm dini əsaslara söykənib.

XI əsrdə kilsə xadimi Qvido de Aretso tərəfindən hazırkı not yazı sisteminin yaradılması Avropada yazılı musiqinin vüsətli inkişafına güclü təkan verdi. Avropada ilk konservatoriyalar da XVI əsrdə məhz kilsələrin daxilində formalaşdı. Elə konservatoriya sözünün hərfi tərcüməsi – kimsəsiz uşaqların sığınacaq tapdığı tərbiyə məkanı deməkdir. Lakin tədricən onlar mükəmməl musiqi təhsili verən müəssisələr kimi ad çıxarmağa başladı. XVIII əsrdən etibarən Avropanın müxtəlif şəhərlərində açılan konservatoriyalar isə artıq hazırkı dövrün ali musiqi məktəbləri formatında fəaliyyət göstərirdi. Beləliklə, vaxtilə sırf kilsə musiqiçilərini hazırlamaq məqsədilə yaradılan bu müəssisələr tədricən dini çərçivədən çıxaraq, peşəkar ifaçı və bəstəkar yetişdirən nüfuzlu tədris ocaqlarına çevrildilər. Yeni konservatoriyaların başında isə dövrünün görkəmli musiqi xadimləri durdular.



*Varşavanın "Sport Rekord" səsyazma studiyasında konsertdən sonra. 1912-ci il. Qurban Pirimov və Saşa Oqanezaşvili birinci sırada, Cabbar Qaryağdıoğlu, Davud Səfiyarov, Məşədi Məmməd Fərzəliyev, Keçəçi oğlu Məhəmməd əyləşiblər, şirkət sahibləri ayaq üstə dayanıb.*



*Üzeyir bəy Hacıbəyli*

Azərbaycan məkanında Avropa modelinə əsaslanan musiqi məktəblərinin yaranması öz başlanğıcını XIX əsrin sonlarından alır. Bu, XIX əsrin II yarısından etibarən neft Bakısında baş qaldıran iqtisadi-siyasi, mədəni yüksəlişin və milli özünüdərkin musiqi müstəvisindəki əyani təzahürlərindən biri idi. Əlamətdardır ki, Azərbaycan Xalq Cümhuriyyəti Maarif Nazirliyinin 1919-cu ildə təhsil ilə bağlı hazırladığı layihələri arasında "Azərbaycan Dövlət Konservatoriyasının yaradılması haqqında" layihə də yer almışdı. Bu işin başında Azərbaycanda bəstəkar yaradıcılığının banisi, yeni milli musiqi məfkurəsi və mədəniyyətinin əsas qurucularından biri olan Üzeyir bəy Hacıbəyli durdu. Layihə ilə bağlı Azərbaycan Xalq Cümhuriyyətinin Maarif Naziri Nəsib bəy Yusifbəyliyə ünvanlanan müraciətdə vurğulanırdı: "Yaradılacaq Konservatoriya Azərbaycan xalq musiqisinin fərdiliyini inkişaf etdirməyə və gənc nəslin musiqi tərbiyəsinə imkan verəcək. Hər xalq öz musiqisinə malikdir, musiqi isə bu və ya digər mədəniyyətin göstəricisidir". Konservatoriya layihəsi Peterburq konservatoriyası modelinə əsaslansa da, Azərbaycan musiqisi və milli ifaçılıq üzrə ixtisasların əhatə olunması ilə diqqəti cəlb edir: Konservatoriyanın 5 bölmədən ibarət Nizamnaməsində ənənəvi ixtisaslarla yanaşı, tar, kamança, saz kimi milli çalğı alətlərinin tədrisi də nəzərdə tutulmuşdu. Parlamentə təqdim olunan layihədə Konservatoriyanın birillik xərclər smetası hesablanaraq 1.000.064 manat (rubl) həcmində göstərilmişdi.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutu və onun yerində Azərbaycan Sovet Respublikasının yaradılması Azərbaycanda konservatoriya yaratmaq planının gercəkləşməsinə əngəl olmadı. Lakin ideoloji-siyasi platformanın dəyişməsi müəyyən məsələlərdə fikir ayrıseçkiliyinə gətirib çıxartdı. Qərb və Şərq musiqi tədrisi ənənələrinin bir araya gətirilməsi böyük suallar doğurdu: əsrlərlə şifahi tərzdə ustad-şagird ənənəsi ilə öyrədilən və ötürülən muğamların tədrisini necə qurmalı? Tarı və kamançanı, habelə milli nəfəs alətlərini müasir tədris sisteminə daxil etmək mümkündürmü? Bu sualların cavabı qızğın və qalmaqallı müzakirələr doğurmuş, tamamilə fərqli baxış bucaqları nümayiş etdirmişdir. Onu da qeyd etmək lazımdır ki, əsrlərlə muğam ənənəsi şifahi ənənəli peşəkar musiqi sənəti kimi pərvəriş tapsa da, Orta əsrlərdən üzübəri Şərq musiqisini yazılı yaddaşa köçürmək üçün musiqişünas alimlər və ifaçılar öz risalələrində, elmi araşdırmalarında müxtəlif yazı üsullarına əl atmışlar. Bu proses indi də ardıcıl olaraq davamını tapır. Azərbaycan muğamının yazılı nümunələri heç də az deyil. Lakin təcrübə göstərir ki, Şərqin klassik musiqi janrlarını yazılı musiqi kimi yaşatmaq və tədris etmək lazımi nəticəni vermir, çünki bu zaman onun canlı impovizasiya təbiətini saxlamaq mümkünsüz olur. Məhz buna görə də XX əsrin əvvəllərində Azərbaycanda yaranmağa başlayan və yazılı klassik musiqinin tədrisini nəzərdə tutan Avropa təhsili sistemində şifahi ənənələrə söykənən ənənəvi Şərq musiqisini hansı üsulla öyrətmək məsələsi kəskin problem kimi gündəmə gəldi. Xalq musiqisinin toxunulmazlığını bəyan edənlər Avropa konservatoriya təhsilinin Şərq musiqisinə şamil edilməsini mümkünsüz hesab edir və bunun zərərli olduğunu bildirərək, əsas dəlil kimi bu musiqinin tamamilə fərqli səs sisteminə əsaslandığını vurğulayırdılar. Buna əks olan ifrat "müasirlik" tərəfdarlarının qənaətləri isə daha qorxunc və təhlükəli idi. Bu "yenilikçilər" milli dəyərləri lüzumsuz və köhnəlik qalığı sayır, tarı, kamançanı, ulu muğamları və muğam operalarını tarixin arxivinə göndərməyi tələb edir,



Qılman Salahov kamança sinfini not ixtisası üzrə bitirmiş ilk ali təhsilli məzunlardan biri olub.

bununla da Azərbaycan musiqisinin gələcəyini yalnız və yalnız Avropa akademik təhsil sisteminin bərqərar edilməsində görürdülər. Keçmiş dəyərləri büsbütün inkar edən keçən əsrin 20-ci illərinin ağır ideoloji durumu bu problemin həllində xüsusi bir çeviklik nümayiş etdirməyi tələb edirdi. Məhz Üzeyir Hacıbəyli və onun məsləkdaşlarının böyük səyləri nəticəsində milli musiqimizin gələcək aqibəti bu iki, bir-birinə zidd görüşün kəsişməsində axtarılırdı. 1920-30-cu illərdə, Azərbaycanda musiqi təhsili sisteminin formalaşdığı bir dövrdə milli musiqinin və çalğı alətlərinin tədrisi metodikası dövrün tələbinə və milli mənafelərə uyğun şəkildə həllini tapdı.

Milli alətlərimizin yazılı musiqini ifa etməyə başlaması, yəni notlu ifaya keçid onların konservatoriyada tədris olunmasına imkan yaratdısa, təəssüf ki, şifahi ənənəyə əsaslanan muğamların tədrisi yalnız məktəb və texnikum səviyyəsi ilə məhdudlaşdı. Lakin ən mühümü və əsası odur ki, məhz Ü.Hacıbəylinin apardığı düşünülmüş siyasət nəticəsində muğamın tədrisi öz əzəli formasını – ustaddan şagirdə şifahi şəkildə ötürülmə ənənəsini hifz edə bildi. Bu, Üzeyir bəyin milli musiqimizi, muğamlarımızı qorumaq yoluna əldə etdiyi ən böyük qələbələrindən biri idi.

Hazırda Milli Konservatoriyada muğamın vokal-instrumental və instrumental janr kimi şifahi ənənə əsasında tədrisi ilk dəfə olaraq ali məktəb səviyyəsində sistemli şəkildə təşkil



*Arif Babayevin sinfində şifahi ənənəyə əsaslanan tədris üsulu ilə dərs prosesi*

olunmuşdur. Tələbələr 4 illik bakalavr təhsilində bütün muğam dəstgahlarını mənimsəyirlər. Magistr səviyyəsində isə musiqi təcrübəsində az istifadə olunan muğamlar, habelə zərbi-muğamlar tədris olunur.

Milli Konservatoriyada xalq çalğı alətlərinin notlu tədrisi Üzeyir Hacıbəyovun milli alətlər üçün tətbiq etdiyi Avropa not sistemi ilə həyata keçirilir. Bu tədris metodikası milli alətlərin repertuarını son dərəcə genişləndirməyə imkan yaradıb. Keçən əsrin 20-30-cu illərində vüsət almağa başlayan bu proses ilk dövrlərdə Avropa bəstəkarlarının əsərlərinin və ilk növbədə violin məşğələlərinin tar üçün köçürülməsi və uyğunlaşdırılması yolu ilə

həll olunurdu. Homofon-harmonik musiqinin məxsusi fakturası, üslubu, iti tempə malik etüdlər, tar üçün səciyyəvi olmayan artikulyasiya, passajlar, sıçrayışlar tar ifaçılığında yeni ştrixlərin və applikatura priyomlarının, çalğı üslubunun formalaşmasına gətirib çıxartdı. Tar, kamança, kanon alətləri yeni repertuarını fortepianonun müşayiəti altında ifa edərək çox tez bir zamanda Azərbaycan bəstəkarlarının simfonik orkestr üçün yazılmış əsərlərində orkestrin bərabərhüquqlu üzvünə çevrildi. Azərbaycan bəstəkarları milli alətlərimiz üçün geniş repertuar formalaşdırdı.

1952-ci ildə Hacı Xanməmmədov Tar ilə simfonik orkestr üçün ilk konserti bəstələdi. Tar aləti simfonik orkestrin qarşısına çıxaraq, onunla yarışmaq iqtidarında olmasını parlaq surətdə sübuta yetirdi. Hazırda Azərbaycanda tar aləti üçün 30-a yaxın konsert yazılmışdır. Tarın yeni, virtuoz imkanlarının açılmasında, onun obraz-məzmun dairəsinin, intonasiya çevrəsinin genişlənməsində tar konsertlərinin müstəsna rolu danılmazdır. Bu isə öz növbəsində tarda muğam ifaçılığının daha virtuoz səviyyəyə qalxmasını şərtləndirib. Eyni fikirləri kamança və kanon aləti haqqında da demək mümkündür. Bu alətlər üçün də müxtəlif səpkili əsərlər və hətta konsertlər yazılıb. Beləliklə, Azərbaycanda milli alətlərdə virtuoz ifa texnikasının yaranması və inkişafı Şərq və Qərb ifaçılıq mədəniyyətlərinin qarşılıqlı təsiri,



Azərbaycan xalq musiqisi kafedrası (1971-ci il)

inteqrasiyası sayəsində baş vermişdir. Bunun nəticəsidir ki, konservatoriyada həm şifahi muğam ifaçılığı, həm də yazılı bəstəkar əsərlərinin tədrisi paralel olaraq aparılır: milli musiqi aləti ifaçısı ənənəvi musiqiçi, müasir bəstəkar əsərlərinin ifaçısı, həm də orkestr musiqiçisi kimi tərbiyə olunur. Bu məqsədlə professor-müəllim heyəti tərəfindən bütün tədris pillələri üçün tədris proqramları və onlara uyğun dərsliklər, dərs və metodik vəsaitlər hazırlanmışdır.

Hazırda Milli Konservatoriyada iki Xalq çalğı alətləri orkestri fəaliyyət göstərir və tələbələrimizin kollektiv ifaçılıq vərdişlərinin formalaşmasında mühüm rol oynayır.

Milli Konservatoriyada yarandığı ilk illərdə ənənəvi musiqi alətləri ifaçılarını, bəstəkar və dirijorları, milli musiqinin tədqiqi ilə məşğul nəzəriyyəçiləri, habelə musiqi müəllimlərinin hazırlanmasını həyata keçirən “Xalq çalğı alətləri”, “Xanəndə”, “İnstrumental muğam”, “Musiqinin tarixi və nəzəriyyəsi”, “Dirijorluq”, “Ümumi fortepiano” və “İctimai elmlər” kafedraları ilə yanaşı son dövrdə yeni bir əhəmiyyətli kafedra – “Milli vokal” kafedrası öz işinə başlamışdır. Bu kafedranın əsas məramı XX əsrdə formalaşmış və milli opera-vokal məktəbinin banisi Bülbülün məxsusi ifaçılıq sənətində və elmi araşdırmalarında təcəssümünü tapmış peşəkar milli vokal ənənələrini yaşatmaq və layiqincə davam etdirməkdir. Kafedranın

müəllim və tələbələrinin çıxışları ən müxtəlif konsert proqramlarının bəzəyidir.

Milli Konservatoriyada milli musiqi alətlərinin bərpası və təkmilləşdirilməsi işində xüsusi elmi-təcrübi laboratoriya da xidmət göstərir. Burada qədim alətlərin bərpası, mövcud alətlərin təkmilləşdirilməsi, alət ailələrinin yaranması məsələləri həllini tapır. Tar, kamança, balaban alətlərinin ailələrinin yaranması, bir sıra qədim alətlərin bərpası və yaxud mövcud nümunələrin təkmilləşdirilməsi, milli hərbi-nəfəs alətləri orkestri üçün yeni zərb alətlərinin yaradılması bu laboratoriyanın uğurları sırasındadır.

Konservatoriyada elmi fəaliyyətin bir vacib istiqaməti də elmi konfrans və seminarların, dəyirmi



*Bülbül (Murtuza Məmmədov)*



*“Muğam” instrumental ansamblı. Ön sırada soldan sağa: Novruz Hüseynov, Sahib Paşazadə, Toğrul Əsədullayev*
*Arxa sırada: Səfa Kərimov, Cinarə Mütəllimova, Emin Cəbrayılov, Mehman Nuriyev*

masaların təşkilidir. Yeni inzibati-tədris binasında bu fəaliyyət daha intensiv xarakter alıb. 2015-ci ildən etibarən 6 ildir ki, AMK-nın Tələbə elmi cəmiyyətinin təşkilatçılığı ilə magistr tələbələrin “Musiqişünaslığın aktual problemləri” mövzusunda Respublika konfransı keçirilir. 2017-ci ildə Milli Konservatoriya ilk dəfə olaraq “Qloballaşan dünyada musiqi ənənələri” adlı Beynəlxalq konfrans təşkil etdi. Konfransın işinə Yaponiya, ABŞ, Kanada, Rusiya, Qazaxıstan, Özbəkistan və Türkiyədən gəlmiş sanballı alimlər qatılmışdılar. Bunun ardınca 2018-ci ildə Bakıda ilk dəfə olaraq keçirilən İSME-nin (Beynəlxalq Musiqi Təhsili Cəmiyyəti) növbəti Dünya konfransında Milli Konservatoriya “Türk xalqlarının musiqisi” bölməsinə uğurla ev sahibliyi etmişdir. Hazırda beynəlxalq elmi əməkdaşlığı nəzərdə tutan yeni maraqlı layihələr üzərində iş gedir.

Milli Konservatoriyanın tədris və elmi potensialı gələcəyə ümidlə baxmağa imkan verir. Müəllim, tələbə və məzunların daima müsabiqə və festivallarda, konfrans və simpoziumlarda fəal və uğurlu iştirakı bunu deməyə əsas verir.

**Lalə Hüseynova**
*Azərbaycan Milli Konservatoriyasının Elmi işlər üzrə prorektoru*
*Professor, sənətşünaslıq üzrə fəlsəfə doktoru*



















## “XALQ ÇALĞI ALƏTLƏRİ” KAFEDRASI

Milli musiqi alətlərinin ali təhsil pilləsində tədrisi XXI əsrdə artıq yeni təhsil ocağında – Azərbaycan Milli Konservatoriyasında öz vüsətli davamını və inkişafını tapdı. Bu baxımdan “Xalq çalğı alətləri” kafedrasının müstəsna əhəmiyyəti xüsusi vurğulanmalıdır. Mübaliğəsiz demək olar ki, böyük tarixi təkamül yolu keçmiş bu kafedra Azərbaycan Milli Konservatoriyasının meydana gəlməsi üçün möhkəm bir təməl, özül rolunu oynamışdır.

“Xalq çalğı alətləri” kafedrasının yaranma tarixi bilavasitə Azərbaycanda müasir musiqi təhsili sisteminin qurucusu – dahi Üzeyir bəy Hacıbəylinin adı ilə bağlıdır. Milli musiqi alətlərimizin akademik konservatoriya təhsilinə və bununla da dünyəvi musiqi proseslərinə – notlu ifaçılıq məcrasına, bəstəkar yaradıcılığına, virtuoz ifa tərzinə cəlb olunmasında Üzeyir bəyin bəstəkar və müsiqişünas-alim, pedaqoq və musiqi-ictimai xadim kimi xidmətləri əvəzsizdir. Hacıbəyli ənənələrinin əsrə yaxın bir dövrdə ardıcıl inkişafının nəticəsidir ki, Azərbaycanda milli musiqi alətləri ifaçıları həm kəmiyyət baxımından ən çoxsaylı musiqiçi zümrəsinə çevrilib, həm də keyfiyyət göstəricilərinə görə çox irəli getmişdir. Tar, kamança, qanun, balaban, saz, zərb alətləri ifaçılarımız musiqi sənətimizi dünyanın hər yerində, ən müxtəlif müsabiqə və festivallarda, konsert salonlarında və tədbirlərdə layiqincə təmsil və təbliğ etməyə qadirdir. Təsadüfi deyil ki, Azərbaycanda “Simli musiqi aləti tarın hazırlanması və ifaçılıq sənəti” 2012-ci ildə, “Kamança simli musiqi alətinin hazırlanması və ifaçılıq sənəti” 2017-ci ildə YUNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ siyahısında yer almışdır. Bütün bu uğurların qazanılmasında möhkəm ənənələrə və güclü potensiala malik “Xalq çalğı alətləri” kafedrasının aparıcı rolu şəksizdir.

“Xalq çalğı alətləri” kafedrasının əsas məramı və vəzifəsi – milli musiqi alətləri ifaçılığında bəstəkar əsərlərinin, yəni notlu musiqinin tədrisini həyata keçirmək, çalğı və onun tədrisi metodikasını təkmilləşdirmək, habelə xalq çalğı alətləri ifaçılığının tarixi və nəzəri aspektlərini, aktual problemlərini elmi baxımdan tədqiq etməkdir.

AMK tələbələrinin ifa repertuarını bir tərəfdən Azərbaycan bəstəkarlarının milli alətlər üçün yazılmış orijinal və ya köçürülmüş musiqisi, digər tərəfdən xarici ölkə bəstəkarları əsərlərinin tar, kamança, kanon və digər alətlər üçün köçürmə və işləmələri təşkil edir. Bu isə o deməkdir ki, əsrlər boyu ənənəvi musiqini - muğam, təsnif və rəngləri ifa edən xalq çalğı alətlərimizin repertuarı daim genişlənir, yeni çalğı tərzi və üslubu ilə zənginləşir. Əgər sələfimiz olan Ü. Hacıbəyli adına Bakı Musiqi Akademiyasında bu kafedra yalnız tar, kamança və qanun alətlərinin tədrisini aparırdısa, Azərbaycan Milli Konservatoriyasında bu alətlərlə yanaşı saz, balaban, ney, qarmon, milli zərb alətləri də tədris olunur.

*Musiqi tariximizdən bəlli olur ki, xalq çalğı alətlərinin akademik konservatoriya təhsilinə cəlb edilməsi, habelə notlu tədrisə salınması dahi bəstəkar və pedaqoq Üzeyir Hacıbəylinin təşəbbüsü ilə keçən əsrin 20-ci illərindən başlanıb. 1920-ildə yaradılmış Azərbaycan Dövlət Xalq Konservatoriyasında, bunun ardınca 1921-ci ildə təsis edilmiş Azərbaycan Dövlət Konservatoriyasının "Şərq şöbəsində" xalq çalğı alətlərinin tədrisi də nəzərdə tutulmuşdu. Muğam sinfini ustad-tarzən Mirzə Mənsur Mansurov aparır, "Şərq şöbəsi"nin rəhbəri olan Üzeyir bəy isə tara ilk dəfə not sistemini tətbiq edərək dərsləri özü keçirdi. Notlu kamança sinfini ilk illərdə görkəmli violinoçu, professor S.L.Bretanitski tədris etmişdir. Tez bir zamanda bu sahədə yeni ixtisaslı kadrlar hazırlanır və Səid Rüstəmov tar, Qılman Salahov isə notlu kamança siniflərində müəllimliyə cəlb olunurlar. Bunun nəticəsində 1931-ci ildə Azərbaycan radiosu nəzdində ilk notlu Xalq çalğı orkestrinin təşkilinə möhkəm zəmin yaranır. 1935-ci ildə Səid Rüstəmovun "Tar məktəbi" dərsliyi işıq üzü görür və bu, tarın notlu tədrisini həyata keçirmək üçün gözəl vəsaitə çevrilir. Lakin, milli musiqi alətlərinin akademik konservatoriya səviyyəsində inkişafına maneçilik törədənlər, ona yalnız ənənəvi musiqi aləti kimi baxanlar 1936-cı ildə konservatoriyada xalq çalğı alətlərinin tədrisini dayandırmağa nail olurlar və tədris bütünlüklə Musiqi texnikumuna keçirilir. Buna baxmayaraq, xalq çalğı alətləri ifaçılığında başlanan taleyüklü proseslər həllini tapmaqda davam edirdi. Bu xüsusda Üzeyir bəyin və onun tələbələrinin bir sıra vacib işlərini xüsusi qeyd etmək lazımdır. 1937-ci ildə istedadlı balaban və klarnet ifaçısı Salim Abdüləliyev "Balaban məktəbi" dərsliyini yazıb tamamlayır. Lakin dərslik, balabanı duduk adı ilə milliləşdirməyə girişmiş ermənilərin sərt müqaviməti ilə rastlaşır və təəssüf ki, dərsliyin çapı baş tutmur (müəllifi isə 1943-cü ildə II Dünya müharibəsində həlak olur).1938-ci ildə Azərbaycan incəsənətinə Moskvada keçirilmiş ongünlük baxışda "Arşin mal alan" operettasının Xalq çalğı alətləri orkestrinin müşayiəti ilə son dərəcə uğurlu tamaşası, habelə "Koroğlu" operasında simfonik orkestrin tərkibində tar, kamança, zurna alətlərinin xüsusi təravətlə səslənməsi İ. Stalinin və dövlət rəsmilərinin böyük marağına səbəb olur və milli musiqi alətlərinin təbliğinə, tədrisinə ayrıca diqqət ayrılması məsələsi gündəmə gəlir. Təsadüfi deyil ki, 1939-cu ildə Üzeyir Hacıbəyli SSRİ-də ilk dəfə olaraq keçirilən və miqyasca çox möhtəşəm bir tədbir olan Xalq çalğı alətləri ifaçılarının yaradıcılığına Ümumittifaq Baxış-müsabiqənin münsiflər heyətinə sədrlik edir. Moskvada üç həftə davam edən bu baxışa bütün respublikalardan yüzlərlə ifaçı qatılmışdı. Məlumdur ki, Azərbaycanı bu baxışda təmsil edənlər arasında ustad tarzən Qurban Primov, nəfəs alətləri ifaçısı Əli Kərimov, habelə gənc tarzənlər Zərif Qayıbov və Hacı Məmmədov da var idi. Xalq çalğı alətlərinə bu tərz münasibət bir sıra konservatoriyalarda xalq çalğı alətləri kafedralarının yaranmasını şərtləndirdi. İlk belə kafedra 1938-ci ildə Kiyev konservatoriyasında açıldı. II Dünya müharibəsi sona çatan kimi Daşkənd və Almatı konservatoriyalarında da Xalq çalğı alətləri kafedraları açılaraq fəaliyyətə başladı. Azərbaycan bilavasitə bu prosesin başlanmasına güclü təkan versə də, konservatoriya strukturunda belə bir ayrıca kafedranın yaranması məsələsi xeyli gecikdi... lakin bu, milli musiqi alətlərində vüsət alan yeni ifaçılıq ənənələrinin yaranması və inkişafını ləngitmədi.*

*1940-cı ildə notlu kamança tədrisi üçün ilk dəfə olaraq "Kamança məktəbi" dərsliyi çapdan çıxdı. Məlumdur ki, bu dərsliyin müəllifi olan Cəvahir Həsənova ADK-da Üzeyir Hacıbəylinin təşəbbüsü ilə açılmış "Azərbaycan musiqisi" şöbəsinin (ona qısaca AZO deyirdilər) tələbəsi olmuşdur və bu şöbə milli kadrları konservatoriya təhsilinə və bəstəkarlığa həvəsləndirmək istiqamətində çox böyük rol oynamışdı. Şöbənin tələbələrinə muğam və tar aləti tədris olunurdu və beləliklə, 1943-cu ildə Əhməd Bakıxanov və Ağalar Əliverdibəyov tarzən-illüstratorlar kimi, Mirzə Mənsur Mansurov isə tar müəllimi qismində konservatoriyaya işə dəvət olunmuşdular. Tələbələr tarın ifasından muğamları nota salır, eyni zamanda tarda çalmağı öyrənirdilər. Lakin 1948-ci ildə Üzeyir bəyin vəfatı və şöbənin bağlanması ilə xalq çalğı alətlərinin konservatoriyada hər hansı formada tədrisi yenidən dayandırılır. Əlbəttə, bunun bir sıra obyektiv səbəbləri də var idi. İlk növbədə elmi-metodik və tədris-ifa repertuarının qıtlığını göstərmək olar. Lakin bu*




*problemlər digər sovet respublikalarında da var idi. Buna baxmayaraq, digər sovet Şərqi respublikalarında məhz bu dövrdə bir-birinin ardınca Xalq çalğı alətləri kafedraları açılırdı. 1945-ci ildə Qazaxıstan konservatoriyasında, 1948-ci ildə isə Özbəkistanın Daşkənd konservatoriyasında belə kafedralar fəaliyyət göstərməyə başladı.*

Azərbaycan musiqi sistemində isə uzun illər peşəkar akademik təhsilli tar və kamança ifaçıları və müəllimlərinin, özü də nəinki orkestr və ansambllarda fəaliyyət göstərən ifaçıların, habelə solist–ifaçıların yetişdirilməsini qocaman təhsil müəssisəsi olan Asəf Zeynallı adına Bakı musiqi texnikumu – hazırda Milli Konservatoriyanın nəzdində olan Bakı Musiqi Kolleci həyata keçirmişdir. 1930-50-ci illərdə Azərbaycanın bir çox adlı-sanlı xalq çalğı alətləri ifaçıları məhz bu tədris ocağında təhsil almışlar: Bəhram Mansurov, Əhməd Bakıxanov, Əhsən Dadaşov, Həbib Bayramov, Əliağa Quliyev, Habil Əliyev, Adil Gəray Məmmədbəyli, Fərhad Dadaşov, Kamil Əhmədov, Baba Salahov, Bəhruz Zeynalova, Elman Bədəlov, Məmmədağa Muradov, Əlikram Hüseynov, Ceyran Haşımova və digərləri bu texnikumun görkəmli yetirmələri olmuşlar. Tədricən onun yeni nəsil məzunlarının sorağı müxtəlif beynəlxalq müsabiqə və festivallardan gəlməyə başlayır. 1957-ci ildə gənc tarzən Oqtay Quliyev SSRİ, habelə geniş beynəlxalq miqyasda keçirilən festivallarda tar ifaçısı kimi ilk dəfə qızıl medala və laureat adına layiq görülür. Təbii ki, texnikum bitirərək belə yüksək nailiyyətlər əldə etmiş kadrların ixtisası üzrə ali təhsil alması məsələsi vaxtaşırı gündəmə gəlirdi. Nəhayət, 1957-ci ildə görkəmli bəstəkarımız Cövdət Hacıyevin Azərbaycan Dövlət Konservatoriyasına rektorluğu dövründə "Azərbaycan xalq musiqisi" kafedrasının açılması ilə bu vacib problemin həllində irəliləyiş baş verdi. Lakin 10 il müddətində kafedrada yalnız "xalq musiqisi nəzəriyyəçisi" və "xalq çalğı alətləri orkestri dirijoru" ixtisası üzrə kadrlar hazırlanırdı və sonunculara ancaq 1 və 2-ci kurslarda tar və kamança alətləri tədris olunurdu. Kafedraya uzun illər görkəmli musiqişünas-alim Məmmədsaleh İsmayılov, 1959-cu ildən isə bir müddət Səid Rüstəmov başçılıq etmişdir. Hacıbəyli ənənələrinə sadiq qalan, AzTV-nin nəzdindəki Azərbaycan Dövlət Xalq çalğı alətləri orkestrinə uzun illər rəhbərlik etmiş xalq artisti, professor, görkəmli bəstəkar və pedaqoq Səid Rüstəmovun peşəkar tar ifaçılarının tərbiyəsindəki müstəsna rolunu xüsusi qeyd etmək lazımdır. "Azərbaycan xalq musiqisi" kafedrası açıldıqdan təxminən 10 il sonra, yəni 1966-cı ildə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında xalq çalğı alətləri – tar və kamança üzrə ixtisas sinifləri tam 5 illik kurs həcmində bərqərar olunur. Bu illərdə tar sinfini Səid Rüstəmov, təcrübəli pedaqoq, əməkdar artist Adil Gəray Məmmədbəyli ilə yanaşı, eyni zamanda gənc nəslin istedadlı nümayəndələri – Oqtay Quliyev, Vaqif Əbdülqasımov, Kamil İbrahimov, kamança sinfini Tərlan Qazıyeva aparmağa başlayırlar. Artıq 1967-ci ildə kafedranın yetirmələri olan Sabir Quliyev və Sidqi Mustafayev Moskvada keçirilmiş xalq çalğı alətləri ansambllarının Ümumittifaq festivalında qızıl medallara layiq görülürlər. 1974-cü ildə isə gənc Ramiz Quliyev ifaçıların Zaqafqaziya festivalında birinci mükafatı qazanır, dolğun konsert fəaliyyətinə görə 1978-ci ildə Azərbaycan Respublikasının Lenin Komsomolu mükafatı ilə (o dövrdə gənclərə verilən ən ali mükafat idi) təltif edilir. Kafedranın məzunlarının sayı ilbəil artdıqca onların ən layiqliləri konservatoriyada dərs deməyə dəvət olunurlar. Ramiz Mirişli, Məmmədağa Kərimov, Ramiz Quliyev, Şəfiqə Eyvazova, Həmid Vəkilov və sonrakı illərdə digər görkəmli sənətkar və müəllimlər tar və kamança siniflərində pedaqoji fəaliyyət göstərməyə başlayırlar. 1971-ci ildən etibarən təxminən 20

il ərzində kafedraya görkəmli bəstəkar, xalq artisti Süleyman Ələsgərov rəhbərlik etmişdir. Bu dövrdə ADK-da tələbələrdən ibarət Xalq çalğı alətləri orkestri yaradılır, eyni zamanda kafedranın nəzdində Folklor kabineti açılır və sənətşünaslıq namizədi Bayram Hüseynlinin rəhbərliyi altında bu kabinet milli folklor nümunələrinin toplanılması və araşdırılması sahəsində böyük işlər görür.

60-70-ci illərdə xalq çalğı alətləri ifaçılığının vüsətli inkişafı artıq onun ADK-da ayrıca kafedra şəklində fəaliyyətini zəruri edir. Bunu nəzərə alaraq 1980-ci ildə rektor, görkəmli musiqişünas-alim Elmira Abbasovanın dəstəyi ilə "Azərbaycan xalq musiqisi" kafedrası iki müstəqil kafedraya bölünür: xalq musiqisi nəzəriyyəçiləri "Azərbaycan xalq musiqisinin tarixi və nəzəriyyəsi" kafedrasında cəmləşir (rəhbəri – professor Məmmədsaleh İsmayılov), "Xalq çalğı alətləri" adı ilə formalaşan kafedrada isə tar və kamança ilə yanaşı tez bir zamanda kanon ifaçılığı (müəllimlər - Asya Tağıyeva, Gülarə Tağıyeva), habelə xalq çalğı alətlərinin dirijorluğu ixtisası tədris olunur. Beləliklə də ifaçılar nəzəriyyəçilərdən ayrılırlar. Bu dövrdə kafedranın müstəsna əhəmiyyət daşıyan işləri sırasında 1986-cı ildə Bakıda ilk dəfə keçirilmiş Üzeyir Hacıbəyov adına Zaqafqaziya respublikaları, Orta Asiya və Qazaxıstanın xalq çalğı alətləri ifaçılarının I müsabiqəsini ayrıca vurğulamaq lazımdır. Müsabiqəyə çoxlu sayda gənc ifaçılar qatılmış, münsiflər heyətində görkəmli sənətkarlar təmsil olunmuşdu. "Xalq çalğı alətləri" kafedrasının ən istedadlı tələbələri – İlqar İmamverdiyev, Malik Mansurov, Elşən Mansurov, Zeynalabdin Babayev, Vahid Məmmədov və başqaları müsabiqənin ən yüksək pillələrini tutmağa nail oldular.

1992-ci ildə "Xalq çalğı alətləri" kafedrasının zəminində artıq üç kafedra yaradılır ki, 1 saylı "Xalq çalğı alətləri" kafedrasına sənətşünaslıq namizədi, əməkdar incəsənət xadimi, professor Oqtay Quliyev, eyniadlı 2 saylı kafedraya xalq artisti, professor Ramiz Quliyev, "Xalq çalğı alətlərinin orkestrləşdirilməsi və dirijorluğu" kafedrasına isə xalq artisti, görkəmli bəstəkar Vasif Adıgözəlov müdir vəzifələrinə seçilirlər. Lakin 1994-cü ildə "Xalq çalğı alətləri" kafedraları birləşir və Ramiz Quliyev 2002-ci ilə qədər bu kafedraya rəhbərlik etmişdir. 1997-ci ildə bilavasitə kafedranın təşəbbüsü və təşkilatçılığı ilə Mirzə Sadıq Əsəd oğlunun 150 illiyinə həsr olunmuş Xalq çalğı alətləri ifaçılarının Respublika müsabiqəsi keçirildi. Yeni əsrin astanasında baş tutmuş bu müsabiqə perspektivli gənc ifaçıların üzə çıxmasında böyük rol oynadı. Müsabiqənin qalibləri arasında hazırda Azərbaycan musiqi mədəniyyətində layiqli yer tutan ifaçılar – əməkdar artistlər Əyyub Quliyev, Sahib Paşazadə, Çinarə Heydərova, Vüsal İsgəndərov, habelə istedadlı kamança ifaçısı Mehri Əsədullayeva vardır.



*Kafedranın 25 illiyi münasibətilə çəkilmiş fotoda müəllim və tələbələr*
*Ön sırada: Süleyman Ələsgərov, Səid Rüstəmov, Hacı Xanməmmədov, Bayram Hüseynli*



*Ədalət Vəzirov, Şəfiqə Eyvazova, Süleyman Ələsgərov, Vasif Adıgözəlov, Ramiz Quliyev Azərbaycan Dövlət Konservatoriyasının 1993-cü il məzunları ilə birlikdə.*



*Vasif Adıgözəlov, Ramiz Quliyev Azərbaycan Dövlət Konservatoriyasının 1993-cü il məzunları ilə birlikdə*

*Xalq çalğı alətləri ifaçılığının inkişafından danışarkən bu işdə Azərbaycan bəstəkarlarının böyük rolunu xüsusi qeyd etmək lazımdır. Üzeyir Hacıbəylidən başlayaraq mövcud olduğu bütün dövrlərdə gənc nəsil tar, kamança, qanun ifaçılarının potensialını nəzərə alaraq bəstəkarlarımız bu alətlər üçün kiçik və irihəcmli xeyli sayda əsərlər yaratmışlar. 1952-ci ildə Hacı Xanməmmədov ilk dəfə olaraq Tar və simfonik orkestr üçün Konsert bəstələyir. Konsertin ilk ifaçısı görkəmli tarzən Əhsən Dadaşov idi. Əsərin çox böyük uğuru bu janra bir çox bəstəkarlarımızın diqqətini cəlb etdi və XX əsrin 50-cı illərindən başlayaraq bu günə kimi bəstəkarlarımız tar üçün 30-a yaxın konsert bəstələyiblər. Hacı Xanməmmədov, Səid Rüstəmov, Süleyman Ələsgərov, Ramiz Mirişli, Nəriman Məmmədov, Zakir Bağırov, Cahangir Cahangirov, Tofiq Bakıxanov, Məmmədağa Umudov, Ədviyyə Rəhmətova, Firəngiz Babayeva, Nazim Quliyev, Həmid Vəkilovun tar ilə simfonik orkestr, habelə tar və xalq çalğı alətləri orkestri üçün konsertləri tədrisdə əsaslı yer tutur. Tar konsertinin yaradıcısı olan Hacı Xanməmmədov 1990-cı ildə ilk dəfə olaraq Kamança ilə simfonik orkestr üçün konsert, 2009-cu ildə isə bəstəkar, xalq artisti Dadaş Dadaşov ilk dəfə olaraq Qanun və simfonik orkestr üçün parlaq konsertlər ərsəyə gətirmişlər. Bütün bunların sayəsində milli alətlərin bədii və texniki imkanları, virtuozluq səviyyəsi son dərəcə yüksəlmiş, repertuarı isə xeyli genişlənmişdir.*

2002-ci ildən etibarən böyük inkişaf yolu keçmiş “Xalq çalğı alətləri” kafedrası yüksək ixtisaslı professor-müəllim heyəti ilə Azərbaycan Milli Konservatoriyasında fəaliyyətini davam etdirir. Kafedraya 2002-2015-ci illərdə əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Məmmədağa Kərimov rəhbərlik edib. 2015-ci ildən kafedra AMK-nın professoru, əməkdar müəllim Ramiz Əzizovun başçılığı altında çalışır.

Həmişə olduğu kimi, indi də “Xalq çalğı alətləri” kafedrasının professor-müəllim heyəti xalq çalğı alətləri üzrə tanınmış ifaçılar və dəyərli alimlər, həmçinin pianoçu-konsertmeysterlərdən ibarətdir. Müəllimlər tar, kamança, qanun, saz, qarmon, nağara və milli nəfəs alətləri üzrə İxtisas not fənlərinin tədrisini aparırlar. Saz aləti ixtisası 2018-2019-cu tədris ilindən, qarmon və nağara alətləri isə 2019-2020-ci tədris ilindən etibarən keçilməyə başlanmışdır.



*Azərbaycan Milli Konservatoriyasının not nəşrləri*

Kafedranın fəaliyyətindən danışarkən bu illər ərzində itirdiyimiz dəyərli müəllimlərimizi ayrıca yad etmək istərdik. Kafedra hər zaman böyük ehtiramla görkəmli bəstəkar, xalq artisti, professor Ramiz Mirişlini, habelə ustad müəllim, sənətşünaslıq namizədi, Azərbaycan tarı haqqında ilk sanballı monoqrafiyanın müəllifi, AMK-da 10 il müddətində (2004-2014) elmi işlər üzrə prorektor çalışmış professor Vaqif Əbdülqasımovu, gözəl tədqiqatçı-alim, professor Afət Novruzovu, əməkdar müəllim Dəyanət Quliyevi xatırlayır.

Hazırda təqaüddə olan qocaman kafedra üzvü, görkəmli tarzən və pedaqoq, əməkdar incəsənət xadimi, sənətşünaslıq namizədi, 2004-2009-cu illərdə Milli Konservatoriyanın tədris işləri üzrə prorektoru vəzifəsində çalışmış professor Oqtay Quliyevin dolğun fəaliyyəti daim xüsusi minnətdarlıq hissi ilə anılır. Müxtəlif illərdə həm “Xalq çalğı alətləri” kafedrasında, həm də “İnstrumental muğam” kafedralarında müəllimlik etmiş sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Arif Əsədullayevin fəaliyyəti də kifayət qədər səmərəli olmuşdur. Onun 2009-cu ildə işıq üzü görmüş “İnstrumental muğamlar”, habelə 2014-cü ildə nəşr olunmuş



*Azərbaycan Milli Konservatoriyasının "Xalq çalğı alətləri kafedrası"nın müəllimlərinin iclası. Soldan sağa: Afət Kazımova, Ağacəbrayıl Abasəliyev, Şəfiqə Eyvazova, Ramiz Əzizov, Məmmədağa Kərimov, Yaqut Seyidova, Mehri Əsədullayeva*

"İnstrumental muğamlar və onların ifaçılıq məziyyətləri" not-kitabları muğamların nota salınması və tədqiqi işində məxsusi yer tutur. 2015-ci ildən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində "Xalq çalğı alətləri" kafedrasına rəhbərlik edən dosent, əməkdar



*Kafedranın müəllimi Şəfiqə Eyvazovanın dərs prosesi*

müəllim Ümid İbrahimov 2000-2015-cü illərdə AMK-nın "Xalq çalğı alətləri" kafedrasında uğurla çalışmışdır.



*Ön sırada soldan sağa: Mədinə Şahgəldiyeva, Könül Hüseynova, Əflaruz Məmmədov, Çinarə Heydərova, Nazim Kazımov, Ağacəbrayıl Abasəliyev, Malik Quliyev, Ramiz Əzizov, Səbinə Məmmədova, Məhərrəm Məmmədov, Səbuhi Cəfərov*
*Arxa sırada: Könül Vəliyeva, İlham Nəcəfov, Kamran Kərimov, Bakıxan Müzəffərov, Xeyrulla Dadaşov, Məryəm Məmmədzadə, Mübariz Əliyev*

"Xalq çalğı alətləri" kafedrasında konsertmeyster qismində pianoçular Svetlana Əhmədova, Mehriban Kərimova, Firuzə Nəcəfli, Arzu Teymurova, Nigar Nəbiyeva, Gülnarə Teymurzadə, Rəna İmanova, Naibə Süleymanova, Eltinarə Əliyeva, Nərmin İsgəndərova, Gülnar Qurbanova, Səbinə Zöhrabzadə və digərləri çalışır.



*Konsertmeysterlər – Ön sırada soldan sağa: Leylaxanım Məmmədova, Arzu Mustafayeva, Cəmilə Dadaşova, Arzu Əsgərli, Aysel Şahbazlı, Rəna İmanova, Gülnar Mirzəyeva, Eltinarə Əliyeva, Tünzalə Hüseynova, Arzu Teymurova, Samirə Eyvazova, Mehriban Kərimova*
*Arxa sırada: Günay Hidayətzadə, Nərmin Cəbiyeva, Füruzə Nəcəfli, Gülnar Qurbanova, Səbinə Zöhrabzadə, Nərmin İsgəndərova, İllər Məmmədzadə*

Kafedrada bakalavr tələbələrinə ixtisasla yanaşı "Kamera ansamblı", "Xüsusi pedaqoji hazırlıq", "İxtisas fənninin tədrisi metodikası", "İfaçılıq təcrübəsi", "Pedaqoji təcrübə fənləri" tədris edilir. Magistr tələbələrinə "İxtisas not ifaçılığı", "XÇA not ifaçılığının müasir istiqamətləri", "Ansambl" fənləri keçilir. "Musiqi müəllimliyi" ixtisası üzrə təhsil alan tələbələrə "Əsas musiqi aləti və onun tədris metodikası" (tar, kamança, qarmon), "Konsertmeyster sinfi və ansambl", "Musiqinin tədrisi metodikası", "Əlavə musiqi aləti" (tar, kamança, qanun) və hazırlıq kursunun tələbələrinə "İxtisas not" (tar, kamança, qanun, qarmon, zərb alətləri) fənni tədris olunur.

"Xalq çalğı alətləri" kafedrasında elmi işlər bir neçə istiqamətdə aparılır. Ən böyük hissəni xalq çalğı alətləri üçün köçürmə və işləmələr təşkil edir. Bu sahədə müəllimlərimiz tərəfindən 100-ə yaxın dərs vəsaiti və metodik tövsiyələr hazırlanmışdır. Kafedra müəllimlərinin əsas vəzifələrindən biri notlu ifaçılığın repertuarını zənginləşdirmək olduğundan, hər tədris ilində müasir tələblər nəzərə alınmaqla yeni-yeni köçürmə və işləmələrdən ibarət toplular meydana gəlir. Çoxsaylı klassik bəstəkar əsərləri, son zamanlar isə hətta müasir dövrün populyar və caz musiqi nümunələri xalq çalğı alətləri üçün işlənib uyğunlaşdırılmışdır. Bu işdə kafedranın, demək olar ki, əksər müəllimlərinin əməyi vardır.



*Soldan sağa: Ramiz Əzizov, Yaqut Seyidova, Məmmədağa Kərimov, Şəfiqə Eyvazova, Adıgözəl Əliyev, Təranə Əliyeva, Yusif Vəliyev.*
*Arxa sırada: İlqar Əliyev, Mehri Əsədullayeva, Sahib Paşazadə, Arslan Növrəsli, Abbasqulu Nəcəfzadə, Natəvan Həsənova.*

Elmi fəaliyyətin digər vacib sahəsini xalq çalğı alətləri ifaçılığının tarixi və nəzəriyyəsi ilə bağlı tədqiqatlar, dissertasiyalar, dərsliklər və dərs vəsaitləri, habelə elmi məqalə və məruzələr təşkil edir. Bu istiqamətdə görülmüş işlər sırasında Siyavuş Kərimi, Akif Quliyev və Mübariz Əliyevin birgə müəllifliyi ilə 2007-ci ildə nəşr olunmuş "Saz məktəbi" kitabı notlu saz ifaçılığının tədrisi üçün ilk dərslik kimi qiymətlidir. 2007-ci ildə Həmid Vəkilov "Azərbaycan tarı və onun ifaçılıq problemləri haqqında təkliflər" başlığı altında çap olunmuş kitabda öz elmi mülahizələrini ortaya qoymuşdur. Nazim Kazımovun "Səid Rüstəmov" (2007) və "Adil Gəray Məmmədbəyli" (2015) monoqrafiyalarında ustad sənətkar və tar müəllimlərinin həyat və yaradıcılıq yolu hərtərəfli işıqlandırılmışdır. 2002-ci ildə Afət Novruzov "Tarın ifaçılıq xüsusiyyətlərinin təkamülündə xarici və Azərbaycan bəstəkarlarının rolu" adlı dissertasiya işini, 2008-ci ildə isə Yaqut Seyidova ilk dəfə olaraq kamança alətinə həsr olunmuş "Azərbaycan bəstəkarlarının əsərlərində kamançanın istifadə və ifa xüsusiyyətləri" adlı fəlsəfə doktoru dissertasiyasını uğurla müdafiə etmişlər. 2011-ci ildə Təranə Əliyeva ilk dəfə olaraq "Azərbaycan qanunu yatıq simli çalğı alətləri sırasında" adlı dissertasiyasında bu alətin tarixinə və Azərbaycanda yayılması məsələlərinə işıq salmışdır. Bu araşdırma müəllifin 2014-cü ildə nəşr olunmuş "Qanun məktəbi" dərsliyinin ərsəyə gəlməsi üçün yaxşı zəmin yaratmışdır. 2018-ci ildə isə qanun ifaçısı və müəllim Natəvan Həsənova "Qanun alətində Azərbaycan xalq musiqisinin ifa xüsusiyyətləri" adlı dissertasiya işini müdafiə etmiş, bir daha qanun ifaçılığının tarixi və nəzəri problemlərini gündəmə gətirmişdir. 2014-cü ildə Afət Novruzovun "Tar ifaçılıq sənətinin inkişafında bəstəkar əsərlərinin rolu" adlı dərs vəsaiti, 2017-ci ildə isə Məmmədağa Kərimov və Afət Novruzovun "Azərbaycan xalq çalğı alətləri: not ifaçılığının tarixi" dərsliyinin nəşri də kafedranın elmi fəaliyyətində diqqətəlayiq hadisələrdir.

Respublika və dünya miqyasında keçirilən simpozium, qurultay, festival, müsabiqə tədbirləri istiqamətində kafedrada çalışan tanınmış ifaçılarımızın və onların yetirmələri milli alətlərimizi təbliğ etməklə yanaşı, ifaçılıq sənətində yeni uğurlar qazanırlar. Tar ifaçıları – Həmid Vəkilov, Sahib Paşazadə, Şəhriyar İmanov, Arslan Növrəsli; kamança ifaçıları – Şəfiqə Eyvazova, Ağacəbrayıl Abasəliyev, Mehri Əsədullayeva, qanun ifaçıları – Təranə Əliyeva, Çinarə Heydərova, Natəvan Həsənova; balabançalanlar – İlham Nəcəfov, Şirzad Fətəliyev, Əmənulla İbadullayev, Tofiq Məcidov, Pərviz Quliyev, Nicat Məsimov və digər bu kimi ifaçılar çalğı alətlərimizin dünya miqyasında tanınıb sevilməsində çox iş görmüş və hal-hazırda bu işləri davam etdirirlər.

Kafedra öz tələbələrinin müxtəlif müsabiqə və festivallarda iştirakına xüsusi önəm verir və bu vacib tədbirlərin təşkilində böyük rol oynayır. 2005-ci ildə görkəmli tarzən, respublikanın əməkdar artisti Əhsən Dadaşovun anadan olmasının 80 illiyinə həsr olunmuş Xalq çalğı alətləri ifaçılarının I respublika müsabiqəsi, 2014-cü ildə isə bu müsabiqənin ardı olaraq II respublika müsabiqəsi keçirilmişdir. Bu müsabiqələrdə AMK-nın istedadlı tələbələri müvəffəqiyyətlə çıxış etmişdir. Tələbələrdən Sahib Paşazadə (tar - I yer), Şəhriyar İmanov (tar - II yer), Mehri Əsədullayeva (kamança - II yer), S.Əliyev (tar - III yer) müsabiqənin qalibi olmuşlar.

2018-ci ildə görkəmli Azərbaycan bəstəkarı Hacı Xanməmmədovun anadan olmasının 100 illiyi münasibətilə Xalq çalğı alətləri ifaçılarının I Respublika müsabiqəsinin uğurla həyata keçirilməsi də bilavasitə "Xalq çalğı alətləri" kafedrasının böyük səyi nəticəsində mümkün olmuşdur. Müsabiqə tar, kamança, qanun və balaban alətləri və iki yaş qrupu üzrə keçirildi. Münsiflər Heyətinə Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru, xalq





artisti, Dövlət mükafatı laureatı, professor Ramiz Quliyev sədrik edirdi. Müsabiqədə qalib çıxan tələbələrin müəllimləri sırasında kafedramızda çalışan Məmmədağa Kərimov, Afət Kazımova, Şəfiqə Eyvazova, Əflaruz Məmmədov, İlham Nəcəfov, Təranə Əliyeva, Natəvan Həsənova, Məhərrəm Məmmədov, Bakıxan Müzəffərov, Adıgözəl Əliyev, Əflaruz Məmmədov, Çinarə Heydərova, Səbuhi Cəfərov, Mehri Əsədullayeva, Şəhriyar İmanovun əməyini qeyd etmək istərdik. Təsadüfi deyil ki, ən yaxşı müəllim nominasiyası üzrə qaliblər - Afət Kazımova, Natəvan Həsənova, Əflaruz Məmmədov, ən yaxşı konsertmeyster nominasiya üzrə qaliblər - Svetlana Əhmədova, Gülnarə Teymurzadə, Arzu Teymurova oldular. AMK-nın tələbələri arasında birinci yaş qrupundan Mahir Hacıyev, Vaqif Təhməzov, Behnam Məmmədəlizadə I yerə, Gülgün Əbilova II yerə, Leyla Haşımova və Nəzrin Cəfərzadə isə III yerə çıxdılar. İkinci yaş qrupunun qalibləri sırasında isə I yeri Sevinc Mirzəli, Behnam Məmmədəlizadə, Rəhman Abdullayev, Fəridə Rüstəmova, II yeri Bəxtiyar Məmmədov, Çingiz Ağazadə, Mais Muradov,



Leyla Bayramzadə, III yeri isə Aygün İsgəndərova, Aytən Rüstəmova, Mətləb Abdullayev, Fatimə Hüsiyeva, Bayram Üzeyirov qazana bildilər.

Kafedramızın ifaçı müəllimlərinin solist və müxtəlif tərkibli musiqi ansamblları ilə birgə çıxışları da daimi xarakter almışdır. Onların sorağı nəinki ölkəmiz daxilində, həmçinin sərhədləri aşaraq Türkiyə, İran, Fransa, Rusiya, Amerika, Kanada, Ərəb ölkələri, Yaponiya, Orta Asiya respublikaları və s. ölkələrdən gəlir. Hazırda kafedrada çalışan yeni nəslin tanınmış ifaçıları – Təranə Əliyeva, Səbuhi Cəfərov, Çinarə Heydərova, Natəvan Həsənova, Sahib Paşazadə, Şəhriyar İmanov, Arslan Növrəsli, Kamran Kərimov, Mədinə Şahgəldiyeva və b. istər Azərbaycanda, istərsə də xarici ölkələrdə keçirilən müxtəlif beynəlxalq musiqi festivallarında və layihələrində Azərbaycan musiqisini layiqli surətdə təbliğ edirlər. Kafedranın müəllim və tələbələri həmçinin Azərbaycan Televiziyasının "Mədəniyyət" kanalı ilə Milli Konservatoriyasının birgə hazırladığı layihələrdə ("Sənət ocağı" və "Ustad dərsi" kimi silsilə verilişlərdə) daim fəaldırlar.

Bütün deyilənlər onu sübut edir ki, "Xalq çalğı alətləri" kafedrası möhkəm ənənələrə və şərəfli tarixə malik bir kafedradır. Cəsarətlə deyə bilərik ki, onun bu günü və gələcəyi etibarlı əllərdədir.






Xalq çalğı alətləri ifaçılarının Hacı Xanməmmədov adına I Respublika Müsabiqəsi. Noyabr 2018.





















## XALQ ÇALĞI ALƏTLƏRİ KAFEDRASININ PEDAQOJİ HEYƏTİ

## TAR İXTİSASI ÜZRƏ



**Ramiz Əzizov**
Kafedra müdiri, Əməkdar müəllim,
professor



**Məmmədağa Kərimov**
Əməkdar incəsənət xadimi,
sənətşünaslıq üzrə fəlsəfə doktoru,
professor



**Malik Quliyev**
Tədris üzrə prorektor,
Əməkdar müəllim,
sənətşünaslıq üzrə fəlsəfə doktoru,



**Nazim Kazımov**
Pedaqogika üzrə fəlsəfə doktoru,
əməkdar incəsənət xadimi, professor



**Həmid Vəkilov**
Əməkdar artist, professor



**Əflaruz Məmmədov**
Əməkdar müəllim, dosent



**Yusif Vəliyev**
Əməkdar müəllim, dosent



**Səbuhi Cəfərov**
Əməkdar artist, dosent



**Sahib Paşazadə**
Əməkdar artist, dosent



**Məhərrəm Məmmədov**
dosent



**İlqar Əliyev**
dosent



**Bakıxan Müzəffərov**
Baş müəllim



**Şəhriyar İmanov**
əməkdar artist, müəllim



**Arslan Növrəsli**
Baş müəllim



**Elşən Əmrahov**
Baş müəllim

## KAMANÇA İXTİSASI ÜZRƏ



**Şəfiqə Eyvazova**
Xalq artisti, professor



**Ağacəbrayıl Abasəliyev**
Xalq artisti, professor



**Adıgözəl Əliyev**
Dosent, qabaqcıl təhsil işçisi



**Afət Kazımova**
Dosent, əməkdar müəllim



**Yaqut Seyidova**
Dosent, sənətşünaslıq üzrə fəlsəfə doktoru



**Mehri Əsədullayeva**
Müəllim



**Mədinə Şahgəldiyeva**
Müəllim



**Könül Vəliyeva**
Müəllim

## QANUN İXTİSASI ÜZRƏ



**Təranə Əliyeva**
Professor, sənətşünaslıq üzrə fəlsəfə doktoru, əməkdar artist



**Çinarə Heydərova**
Baş müəllim, əməkdar artist



**Natəvan Həsənova**
Baş müəllim, sənətşünaslıq üzrə fəlsəfə doktoru

## NƏFƏS ALƏTLƏRİ ÜZRƏ



**İlham Nəcəfov**
Professor, sənətşünaslıq üzrə fəlsəfə doktoru, əməkdar artist

## SAZ İXTİSASI ÜZRƏ



**Mübariz Əliyev**
Dosent, sənətşünaslıq üzrə fəlsəfə doktoru

## NAĞARA İXTİSASI ÜZRƏ



**Kamran Kərimov**
əməkdar artist

## QARMON İXTİSASI ÜZRƏ



**Xeyrulla Dadaşov**
Müəllim



**Könül Hüseynova**
Müəllim

# Tar

*Müğənni, tək bircə gecə də çal tar,*
*Məni bu dar yolda əzabdan qurtar!*
*Bəlkə, genişlənsin, açılsın yolum,*
*Köçüm, bu daşlıqdan asudə olum...*

***Nizami Gəncəvi "İsgəndərnamə"***



Tar Azərbaycanın geniş texniki və bədii imkanlara malik mizrablı qədim musiqi alətlərindən biridir. Azərbaycan simli musiqi alətləri arasında texniki və dinamik imkanlarına görə müasir tar ən mükəmməl və təkmil çalğı aləti sayılır. Səs diapazonu (Ck-A2) və kökü (in H) tara orkestrdə, xalq çalğı alətləri ansambllarında, muğam üçlüyündə aparıcı alət kimi müşayiət və solo aləti funksiyalarını rahat icra etmək imkanı verir.

Tarın adına Nizami Gəncəvi, Qətran Təbrizinin, Məhəmməd Füzulinin və b., eləcə də bir sıra nəzəri risalələrdə, məsələn Əbdülqadir Marağİ "Məqasid əl-əlhan" əsərində də rast gəlmək olar. Quruluş və texniki keyfiyyətlərinə görə başqa ölkələrdə mövcud olan tarlardan fərqlənən Azərbaycan tarı dəfələrlə təkmilləşmə və rekonstruksiya işlərinə məruz qalıb. XIX əsrdə Mirzə Sadıq Əsədoğlu (tarın çanağında dəyişiklik edərək sinədə çalınması üçün uyğunlaşdırmış, fiziki-akustik səslənməsini gücləndirmiş) və XX əsrin əvvəlində Əhməd Bakıxanovun (alətin qolunu uzadaraq pərdələrin sayını, alətinin diapazonu və ifaçılıq imkanını artıraraq) apardığı təkmilləşmə sayəsində pərdə quruluşunda qədim səs sistemini saxlamış milli musiqi alətimizi istər sazəndə ansamblında, istərsə də solo muğam ifaçılığında aparıcı musiqi alətinə çevrildi. 22 pərdəli müasir tar bu gün də muğam və şöbə adlarına uyğun adlanır.

Tarın texniki və bədii imkanları əsasən solo muğam ifaçılığında üzə çıxır. Sazəndə dəstəsində tar aparıcı rola malik olaraq muğam oxunarkən yol göstərir, xanəndənin oxuduğu musiqi cümlələrinə, avazlarına, nəfəslərinə araçalğı ilə cavab verir, bəzən bu cümlələri tamamlayır, muğam dəstgahının hissə və guşələrini nizamlayır. Hər bir ustad tarzən özünəməxsus mizrab vurur, barmaqlar işlədir, müxtəlif üsullardan istifadə edir. Müasir zamanda tar ifaçılığı ənənələri həm qədimdə olduğu kimi ustad-şagird münasibəti yoluyla, həm də not savadı almaqla ötürülür. Ü.Hacıbəyli 1908-ci ildə "Leyli və Məcnun" operasına tar partiyası əlavə etdiyi və M.Maqomayevlə bərabər 1931-ci ildə ilk notlu xalq çalğı alətləri orkestrində tara aparıcı funksiya həvalə edildiyi zamandan tar ifaçılığı daha güclü inkişaf mərhələsinə qədəm qoydu. Azərbaycan xalq musiqisinin mahiyyətini və muğamın özünəməxsusluğunu dünyaya çatdıra bilmiş tar həmçinin Azərbaycan bəstəkarlıq məktəbinin təşəkkülü və intonasiya təbiətinin özəlliyində də xüsusi rol oynamışdır.

Üzeyir Hacıbəyli, Mikayıl Müşfiq başda olmaqla tarın müdafiəsinə qalxmış ziyalılarımızın zəhməti sayəsində cəmiyyətdə layiqli yerini tutmuş tar ölkənin aparıcı, bütün ənənəvi musiqi janrlarında istifadə edilən və çox sevilən aləti olaraq həmçinin xalqın musiqi zövqünü də çox gözəl əks etdirir. 2012-ci ildən etibarən Azərbaycan tarı UNESCO-nun Bəşəriyyətin Toxunulmaz Mədəni İrsi Siyahısına daxil edilmişdir.

# Kamança

*Kaman Musa kimi yanır, inləyir,*
*Çalan xanəndəni durub dinləyir.*
*Oxuyan bir gözəl qəzəl başladı*
*Bu keyfi-işrəti çox alqışladı.*

*Nizami Gəncəvi "Xosrov və Şirin*

Üzeyir Hacıbəylinin "melodik alətlərin ən gözəli" adlandırdığı kamança bu gün də sevə-sevə kamanla çalınan qədim simli musiqi alətidir. Həzin tembri, iniltili, az qala dil açıb danışan intonasiyası ilə başqa milli alətlərimizdən xüsusilə seçilən kamança xalq çalğı aləti musiqi baxımından çox zövqlü olan xalqımızın yaddaşında özünəməxsus nüfuzlu yerlərdən birini tutur. Xalqın həm şad günündə, toyda-düyündə, həm də dəstəyə ehtiyacı olan hüznlü günlərində yanında olan və səslənən bu alətin qədim tarixi, müasirliyə cavab verən bu günü, çox ehtimal ki, gələcəyi də var. Müşayiətçi alətdən solo alətə qədər, daha sonra ansambl və orkestrlərin tərkibində bərabərhüquqlu üzvü olunca sürən uzun təşəkkül yolunda kamança təkmilləşərək bu günümüzə çeşidli zövqləri ödəyə biləcək bir alət kimi gəlib çatmışdır.

İnsan səsinə tembrcə ən yaxın olan bu alət Orta əsr klassiklərinin (Nizami Gəncəvi) əsərlərində, bir sıra (Təbriz rəssamlıq məktəbinin nümayəndəsi Mir Seyid Əli "Musiqi məclisi") miniatürlərdə, eləcə də qədim risalələrdə (Əbdülqadir Marağainin əsərlərində, XVII əsr alman səyyahı E.Kempferin qeydlərində) geniş təsvir olunub. Görkəmli Azərbaycan şairəsi Məhsəti Gəncəvi (XI-XII əsr) gözəl kamança ifaçısı kimi tanınırdı.

Elmi mənbələrə əsasən tarixi eramızdan əvvələ gedib çıxan kamançanın müxtəlif millətlərdə bənzərləri var. Kamançanın ikitelli, üçtelli, dördtelli növləri çox geniş yayılıb və hazırda Azərbaycanda dördsimli kamançada istifadə edilir. Diapazonu (Ak-E3(bəzən G3)) və kökü (in D) həm muğam üçlüyündə, həm solo, həm də ansambl tərkibində ifa üçün uyğunlaşdırılıb. XIX əsrin sonu tarın simlərinə nəzərən (kvarta-kvinta kökü A-E-A-E) köklənən kamança və XX əsrin əvvəllərində dünya musiqisinə inteqrasiya edilərək skripkada olduğu kimi (kvarta kökü G-R-A-E) köklənməklə potensialı artırıb repertuarını xeyli genişləndirə bildi.

İstər solo aləti kimi, istər ansambl və orkestrdə, istərsə də muğam üçlüyündə kamançanın yeri əvəzolunmazdır. Kamança ifaçılığının Azərbaycanda yüksək inkişafı XIX əsrin ikinci yarısından başlayaraq xanəndəlik sənətinin inkişafı ilə bağlıdır. Repertuarını müşayiətçi alət qismində çaldığı xalq havalarından iri konsert formalarına qədər böyüdə bilmiş kamançanın bu gün Azərbaycanda öz məktəbi və ifaçılıq spesifikası ilə seçilən dünyaca məşhur nümayəndələri mövcuddur.

2017-ci ilin dekabr ayının 7-də Koreya Respublikasının Jeju adasında keçirilən UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin 12-ci sessiyasında Azərbaycan Respublikasının və İran İslam Respublikasının birgə təqdim etdiyi "Kamança simli musiqi alətinin hazırlanması və ifaçılıq sənəti" UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilib.




"Muğam aləmi"
V BEYNƏLXALQ MUĞAM FESTİVALI




"Muğam aləmi"
V BEYNƏLXALQ MUĞAM FESTİVALI


AZƏRBAYCAN
XALQ MAHNILARI
FESTİVALI


AZƏRBAYCAN
FESTİVALI






"Muğam aləmi"
V BEYNƏLXALQ MUĞAM FESTİVALI


V RESPUBLİKA
MUĞAM
MÜSABİQƏSİ


MUĞAM
festivalı




"Muğam aləmi"
V BEYNƏLXALQ MUĞAM FESTİVALI


V BEYNƏLXALQ MUĞAM FESTİVALI




"Muğam aləmi"
V BEYNƏLXALQ
MUĞAM FESTİVALI





# “MUĞAM-XANƏNDƏ” KAFEDRASI

Azərbaycan milli musiqisi deyəndə çoxlarının yadına ilk növbədə ölməz muğam sədaları düşür. Bu da təsadüfi deyil. Ulu kökümüz, ruhumuz, bənzərsiz səs idealımızdır qədim muğam sənəti. Əsrlərlə formalaşan məxsusi həyat tərzinin və yaşam fəlsəfəsinin parlaq, dolğun bədii təcəssümü kimi. “Muğamat var olan yerdə bizlər də varıq” - deyib arif insanlar. Elə buna görə də “Muğam-xanəndə” kafedrasının doğma musiqi ocağımızda xüsusi əhəmiyyəti, yeri, mövqeyi vardır.

“Muğam–xanəndə” kafedrası Azərbaycan Milli Konservatoriyası açılan ilk gündən işə başlayıb. Ustad xanəndə, xalq artisti, “Şöhrət”, “İstiqlal” və “Şərəf” ordenli professor Arif Babayevin başçılığı altında bu kafedra bir çox görkəmli muğam ifaçılarını öz ətrafında birləşdirə bilib. Kafedranın yaradılması da bilavasitə bu böyük sənətkarın adı və səmərəli pedaqoji fəaliyyəti ilə bağlıdır. Xatırladaq ki, 1984-cü ildə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında (indiki Ü. Hacıbəyli adına Bakı Musiqi Akademiyası) “Solo oxuma” kafedrasının tərkibində “Muğam sinfi” açılır və Bülbül adına Orta ixtisas Musiqi məktəbində 1982-ci ildən “Xanəndə sinfini” aparan Arif Babayev Konservatoriyaya dəvət alır. Bu illər ərzində bir çox istedadlı gənclər Arif müəllimin sinfini bitirdilər. İndi Milli Konservatoriyada ustadları ilə çiyin-çiyinə müəllim kimi çalışan gözəl xanəndələrimiz Aygün Bayramova, Nəzakət Teymurova, Gülüstan Əliyeva, Qəzənfər Abbasov və digərləri məhz o dövrün məzunlarıdır. “Muğam sinfi”nin ayrıca müstəqil kafedraya çevrilməsi isə 2000-ci ilin 25 fevral tarixində baş tutur. Azərbaycan Milli Konservatoriyası təsis olunduqdan sonra bu kafedra artıq yeni ali təhsil ocağında “Muğam-xanəndə” adı ilə fəaliyyətini davam etdirir.



*Muğam xanəndə kafedrasının müəllimləri. Soldan sağa: Bəyimxanım Vəliyeva, Zabit Nəbizadə. Qəzənfər Abbasov, Arif Babayev, Mənsum İbrahimov, Vüqar Əliyev, Əhsən Əhmədov*



*Soldan sağa: Zabit Nəbizadə, Bəyimxanım Vəliyeva, Könül Şirinova, Arif Babayev*

Hazırda "Muğam-xanəndə" kafedrasında professor və dosent elmi adlarını daşıyan bir çox görkəmli xanəndələr – xalq artistləri Alim Qasımov, Mənsum İbrahimov, Aygün Bayramova, Nəzakət Teymurova, Zabit Nəbizadə, əməkdar incəsənət xadimi Aqil Məlikov, əməkdar müəllim Qəzənfər Abbasov, əməkdar artistlər Gülüstan Əliyeva, Cabir Abdullayev, Fehruz Məmmədov, Təyyar Bayramov, Bəyimxanım Vəliyeva, Ehtiram Hüseynov, baş müəllim Vüqar Əliyev çalışırlar. Qeyd etmək lazımdır ki, T.Bayramov, B.Vəliyeva və E.Hüseynov müxtəlif illərdə AMK-nın məzunları olmuşlar və indi öz müəllimləri ilə bahəm çalışırlar. Kafedrada tələbə-xanəndələrə qaval ifaçılığını təcrübəli baş müəllim və bu alətin tədqiqatçısı Mahmud Salah tədris edir. Kafedranın konsertmeystrləri: İsmayılov İlhamiz, Müslumov Rüstəm, Fərhadov Pərviz, İbrahimov Rəşad, Əliyev Mərkəz, Nuriyev Kamal, Məmmədov Xəyyam, Rəhimov Valeh, Nağıyev Elçin, Bəhramov Emin, Salahov Saleh, Sədiyev Əliağa, Şərifov Oqtay, Məmmədzadə İqbal, Abbasov Səlim, Hüseynov Anar, Mikayılov Elnur, İslamov Rauf tədris prosesində əhəmiyyətli rol oynayaraq öz yaradıcı təcrübələrini tələbələrlə bölüşürlər.



*Arif Babayevin dərs prosesi:  konsertmeystrlər - Elçin Nağıyev, Fəridə Məlikova*



Qəzənfər Abbasovun dərs prosesi

Əlbəttə, xüsusi olaraq yada salmaq gərəkdir ki, ötən illər ərzində kafedrada ustad xanəndələrimiz – Əlibaba Məmmədov, Ağaxan Abdullayev, Səkinə İsmayılova, Qaraxan Behbudov və digərləri işləmiş və gənc nəslin tərbiyəsində əllərindən gələni əsirgəməmişlər. Milli Konservatoriyanın 20 illik yubiley ilində Əlibaba müəllim həm də uzun və mənalı ömür yolunun 90 yaşını qeyd etdi. Bu əlamətdar hadisə münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ustad-xanəndənin yubileyinin keçirilməsi haqqında ayrıca sərəncam imzaladı və onu “Şərəf” ordeni ilə mükafatlandırdı. Birinci vitse-prezident Mehriban xanım Əliyeva isə Əlibaba Məmmədovun evinə təşrif buyuraraq onunla şəxsən görüşdü. Dövlət tərəfindən atılan bu addımlar Əlibaba Məmmədov sənətinə böyük qiymət və ehtiramın bariz təcəssümü idi. Məxsusi oxuma tərzinə və yaradıcılıq dəst-xəttinə malik Əlibaba Məmmədov pedaqoji fəaliyyətə 1963-cü ildə – Seyid Şuşinskinin tələbəsi kimi bitirdiyi və hazırda AMK-nın tərkibinə daxil olan Bakı Musiqi Kollecində başlayıb. 40 illik bu nəcib iş daha sonra AMK-da ardıcıl davam edib. Bu illər ərzində görkəmli xanəndənin sinfində bir çox istedadlı gənclər oxuyub. Geniş muğamsevərlər auditoriyası isə Əlibaba Məmmədovun ustad müəllim kimi sərrast fikir və qeydlərini son illər çox böyük populyarlıq qazanmış Televiziya Muğam müsabiqələri vasitəsilə müşahidə edə bildilər.



Ortada Arif Babayev, Ayaq üstə dayananlar soldan sağa: Mənsum İbrahimov, Nəzakət Teymurova, Fehruz Məmmədov

AMK-nın kollektivi və “Muğam-xanəndə” kafedrası hər zaman böyük minnətdarlıq hissilə ünlü xanəndə, xalq artisti mərhum Ağaxan Abdullayevi yad edir. Məlumdur ki, xalq artisti, professor Alim Qasımov, habelə kafedranın baş müəllimi, əməkdar artist Bəyimxanım Vəliyeva onun tələbələri olmuşlar. AMK-da bu ustad xanəndənin həyat və yaradıcılığına həsr olunmuş ayrıca elmi-tədqiqat işinin ərsəyə gəlməsi sənətkarın irsinə heç vaxt sönməyən marağın təsdiqi kimi dəyərləndirilə bilər.

Göründüyü kimi, “Muğam-xanəndə” kafedrasında çalışan müəllimlərin əksəriyyəti Azərbaycan Respublikasının Prezidenti tərəfindən yüksək fəxri adlara və mükafatlara layiq görülmüşlər. Bu isə kafedranın yüksək nüfuzunu bir daha sübut edir.



*Soldan sağa: Arif Babayev, Aygün Bayramova, Elçin Nağıyev*

“Muğam-xanəndə” kafedrasının əsas məqsədi və vəzifəsi yeni nəslin peşəkar muğam ifaçıları – xanəndələri yetişdirmək, habelə bu sənətin tarixi və nəzəri əsaslarını, problemlərini elmi tədqiqata cəlb etməkdir. Tədris prosesi 4 illik bakalavr və ilyarımlıq magistr pillələrini nəzərdə tutur. Bu zaman tələbə-xanəndələr həm klassik muğam ifaçısı, həm də opera artisti, milli operalarda müvafiq partiyaları ifa edən solistlər kimi tərbiyə olunurlar.



*Muğamların şifahi ənənə yolu ilə ötürülməsi xarici musiqisevərlərin diqqətini cəlb etmişdir. Amerikalı qonaq Cefri Verbax rektor Siyavuş Kərimi ilə birlikdə dərs prosesində*

"Xanəndə ifaçılığı", "Muğam", "Qaval ifaçılığı" fənlərini keçərkən tələbələr klassik muğam ifaçılığının zəruri peşə vərdişi və biliklərə yiyələnirlər. Qeyd etmək lazımdır ki, bu fənlərin tədrisi ənənəvi ustad-şagird üsulu ilə aparılır. Muğamın qəzəl əsasına dərindən bələd olmaq üçün tədris prosesinə "Muğamın poetik əsasları" fənni daxil edilmişdir ki, onu uzun illərdir tanınmış xanəndə-qəzəlxan Hacı Aqil Məlikov tələbələrə əzmlə aşılayır.



*Arif Babayev kafedranın bir qrup konsertmeysterləri ilə. Soldan sağa: İqbal Məmmədzadə, Rəşad İbrahimov, Oqtay Şərifov, Kamal Nuriyev, Xəyyam Məmmədov, İlhamiz İsmayılov, Pərviz Fərhadov*

Tələbələrin milli operaların ifaçısı kimi hərtərəfli yetişməsi məqsədilə kafedrada "Opera sinfi" açılıb və müvafiq olaraq "Aktyor sənətinin əsasları və nitq mədəniyyəti", "Səhnə hərəkətlərinin əsasları" fənləri tədris olunur. Bu fənlərin tədrisi tanınmış teatr xadimləri – əməkdar incəsənət xadimi, Azərbaycan Dövlət akademik Opera və Balet teatrının baş rejissoru Hafiz Kərimov və xalq artisti Mehriban Zəkiyə həvalə olunmuşdur. Bu məcrada tələbələrə həmçinin "Rəqs sənəti" fənni də salınmışdır ki, onu müəllimlər Saləddin Kərimov və Pərvanə Namazova tədris edir.

"Muğam-xanəndə" kafedrasının müəllim və tələbələrinin yaradıcılıq fəaliyyəti ölkəmizin musiqi həyatının daim gündəmindədir. Buna əyani misal kimi Televiziya muğam müsabiqələrini göstərmək kifayət edər ki, orada iştirak edən kafedranın üzvləri – Arif Babayev, Əlibaba Məmmədov, Ağaxan Abdullayev, Mənsum İbrahimov 2005-ci ildən etibarən vaxtaşırı keçirilən bu müsabiqənin nüfuzlu münsiflər heyətində əyləşmiş və istedadlı müsabiqə iştirakçılarının seçilib böyük səhnələrə ayaq açmasına bilavasitə vəsilə olmuşlar. Bu müsabiqələrdə iştirak edən iştirakçıların başlıca faizini də AMK-nın "Muğam-xanəndə" kafedrasının yetirmələri təşkil edir. Eyni zamanda, ölkədə keçirilən respublika, habelə beynəlxalq əhəmiyyətli bir sıra müsabiqələrin, ilk növbədə Beynəlxalq Muğam Festivalı çərçivəsində baş tutan Muğam müsabiqəsinin laureatları sırasında kafedranın məzun və tələbələrinin xüsusi çəkisi vardır. Bu baxımdan Milli Konservatoriyanın yetirməsi, professor Mənsum İbrahimovun yetirməsi, hazırda "Muğam-xanəndə" kafedrasının dosenti, əməkdar artist Təyyar Bayramovun müsabiqə həyatı çox əlamətdardır. O, 2005-ci ildə keçirilən ilk Televiziya Muğam Müsabiqəsində I yerə, 2009-cu ildə baş tutmuş I Beynəlxalq Muğam Müsabiqəsində isə ən yüksək Qran-Pri mükafatına layiq görülmüşdür. İndi o, dolğun yaradıcılıq fəaliyyəti ilə yanaşı kafedrada yeni nəslin tərbiyəsinə xeyli əmək və qüvvə sərf edir.

Bundan əlavə AMK-nın nüfuzlu müsabiqə laureatları olmuş məzunları və tələbələri sırasında əməkdar artistlər Ehtiram Hüseynov, Qoçaq Əsgərov, Babək Niftəliyev, Bəyimxanım Vəliyeva, Səbuhi İbayev, İlkin Əhmədov, habelə Arzu Əliyeva, Mirələm Mirələmov, Abgül Mirzəliyev, Güllü Muradova, Aytən Məhərrəmova, Elməddin İbrahimov, Vəfa Orucova, Nisbət Sədrayeva, Elsevər Muradov, Almaxanım Əhmədli, Gülnar Qüdrətli, Zeynəb Nəcəfova, Orxan Hüseynli, Pərvaz İbrahimli, Elnur Zeynalov, Səbinə Ərəbli, Murad Rüstəmzadə, Elbrus Niftəliyev, Mustafa Mustafayev, Ariz Hüseynov, Sədəf Budaqova, Elnarə Xəlilova, Məmməd Nəcəfov, Sərxan Bünyatzadə, Zümrüd Məmmədova, Babək Quliyev, Məhəbbət Səfərov, Rəvanə Əmiraslanlı, Səma Sultanova və başqa istedadlı xanəndələr vardır.



*Soldan sağa: Rəşad İbrahimov, Valeh Rəhimov, Mahmud Salah*

Kafedranın müəllim və tələbələrinin qastrol səfərlərinin coğrafiyası da ilbəil artır və bu geniş siyahılara yeni-yeni uzaq ölkələrin adları daxil olur. Xanəndə müəllimlərimizin sorağı dünyanın ən məşhur konsert salonlarından gəlir. Bu baxımdan görkəmli xanəndəmiz, xalq artisti, YUNESKO-nun "Sülh artisti", professor Alim Qasımovun və kafedranın aparıcı müəllimlərindən olan professor Mənsum İbrahimovun, xalq artistləri Aygün Bayramova, Nəzakət Teymurova, Zabit Nəbizadənin, habelə əməkdar artistlər Təyyar Bayramov, Bəyimxanım Vəliyeva, Ehtiram Hüseynovun fəaliyyəti xüsusilə diqqətəşayandır. Bütün bunların nəticəsidir ki, 2019-cu ildə Mənsum İbrahimov və onun tələbəsi Sədəf Budaqovanın səs telləri Almaniyada (Milli Konservatoriyada xanəndə səsləri üzərində aparılan elmi araşdırma çərçivəsində) ilk dəfə olaraq MRT aparatında və xüsusi kompüter proqramları vasitəsilə tədqiq olunmuşdur. Gələnən nəticələr heç şübhəsiz ki, xanəndə səslərinin işləmə mexanizminin elmi əsaslarla dərk olunmasına və pedaqoji metodikanın təkmilləşdirilməsinə öz töhfəsini verəcəkdir.

20 il ərzində "Muğam-xanəndə" kafedrasında xarici tələbələrin hazırlanması prosesi də kifayət qədər əhəmiyyətli olub. İran, Türkiyə, Almaniya, Koreyadan gəlmiş tələbələr Azərbaycan muğamlarını öyrənmək üçün məhz AMK-ya və onun ustad müəllimlərinə üz tuturlar. İranlı tələbələr Nasir Ətapur, Əhməd Səttari, Həmidreza Rezai, Davud İclali, Koreyadan Kim Seoq və başqaları artıq öz vətənlərində bu sənətin mütəxəssisləri kimi tanınırlar.



*Soldan sağa: Qəzənfər Abbasov, Nəzakət Teymurova, Əliağa Sədiyev*

“Muğam-xanəndə” kafedrasının qarşısında duran məsələlər də az deyil. Bu, ilk növbədə tədris vəsaitlərinin və metodiki materialların, tarixi və nəzəri araşdırmaların daha yüksək keyfiyyətlə və ardıcıllıqla aparılmasıdır. Artıq bu istiqamətdə bir sıra addımlar atılmışdır. Ötən illər ərzində Arif Babayevin və Əlibaba Məmmədovun mahnı və təsniflərindən ibarət dəyərli toplular işıq üzü görüb ki, onlar tədris prosesində əhəmiyyətli rol oynayır. Dosent Gülüstan Əliyevanın fəlsəfə doktoru üzrə müdafiə etdiyi sənətşünaslıq dissertasiyası qadın obrazlarının muğam operalarında dramaturji roluna həsr olunmuşdur. Kafedranın baş müəllimi Bəyimxanım Vəliyeva “Heydər Əliyev Fondunun muğamın inkişafında rolu” kitabını yazıb nəşr etdirmişdir. Eyni zamanda B.Vəliyeva ustad-xanəndə Xan Şuşinskinin həyat və yaradıcılıq yoluna işıq salan böyük tədqiqat işini ərsəyə gətirmişdir.



*Xanəndələr yaradıcılıq mübadiləsi zamanı. Soldan sağa: Mənsum İbrahimov, Zabit Nəbizadə, Təyyar Bayramov*

Yaradıcılıq və pedaqoji fəaliyyətini elmi işi ilə üzvi şəkildə uzlaşdıran fəal kafedra üzvlərindən biri də Mahmud Salahdır. O, uzun illərdir ki, qaval ifaçılığının tarixi və nəzəri problem-

lərini durmadan araşdırır, müxtəlif elmi məclislərdə həm məruzəçi, həm də ifaçı kimi çıxış edir. M. Salah müxtəlif illərdə ABŞ, Almaniya, Böyük Britaniya, Rusiya, Özbəkistan və digər ölkələrdə keçirilən elmi konfrans və seminarlara, ustad dərslərinə qatılıb. Bu baxımdan onun 2012-ci ildə Böyük Britaniyanın Kembric Universitetində keçirilən "Popular Culture in Turkic Asia: Performance and Belief" Beynəlxalq Simpoziumunda, 2013-cü ildə P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasında keçirilən "Hindavropa mədəni birliyinin səs arxetipləri" II Beynəlxalq dairəvi masada, 2013-cü ildə Rusiyanın Həştərxan şəhərində keçirilən "Şərq və Qərb: Etnik kimlik və ənənəvi musiqi irsi sivilizasiyaların və mədəniyyətlərin dialoqu kimi" II Beynəlxalq Elmi Konqresində "Səmavi kitablarda və hədislərdə Dəf – Qaval aləti" məruzəsi ilə, 2014-cü ildə yenə də P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasında keçirilən "Dünyanın musiqi xəritəsi" Beynəlxalq Simpoziumunda çıxışları vurğulanmalıdır.



*Nəzakət Teymurova, Mənsum İbrahimov, Zabit Nəbizadə, Qəzənfər Abbasov, Təyyar Bayramov*

Göründüyü kimi, "Muğam-xanəndə" kafedrası ən müxtəlif istiqamətlərdə kifayət qədər geniş fəaliyyət və inkişaf perspektivlərinə malikdir. Şübhəsiz ki, zəngin ifaçılıq ənənələrinin tədris-metodiki və elmi-tədqiqat sahələri ilə uzlaşdırılması bu qədim sənətin gələcək müqəddəratına öz töhfəsini verə biləcək.



*Zamiq Əliyev, Mahmud Salah, Fəxrəddin Dadaşov*

# "MUĞAM-XANƏNDƏ" KAFEDRASININ PEDAQOJİ HEYƏTİ



**Arif Babayev**
Kafedra müdiri, professor, xalq artisti



**Alim Qasımov**
Professor, xalq artisti



**Mənsum İbrahimov**
Professor, xalq artisti



**Nəzakət Teymurova**
Dosent, xalq artisti



**Aygün Bayramova**
Dosent, xalq artisti



**Gülüstan Əliyeva**
Dosent, əməkdar artist



**Təyyar Bayramov**
Dosent, əməkdar artist



**Qəzənfər Abbasov**
Baş müəllim, əməkdar müəllim



**Zabit Nəbizadə**
Xalq artisti, baş müəllim



**Aqil Məlikov**
Baş müəllim, əməkdar incəsənət xadimi



**Fehruz Məmmədov**
Baş müəllim, əməkdar artist



**Bəyimxanım Vəliyeva**
Baş müəllim, əməkdar artist



**Cabir Abdullayev**
Müəllim, əməkdar artist



**Ehtiram Hüseynov**
Müəllim, əməkdar artist



**Vüqar Əliyev**
Baş müəllim



**Mahmud Salah**
Baş müəllim



# *Xanəndə sənəti*

*Xanəndə qavalı qulağının dibinə qoyub ehmallıca oxumağa başlayır. Onun oxuması nalə, fəryad, hənirti, çağırış və sözə, təsvirə gəlməz vibrasiyaların sanki ortağındadır. O, gözlərini qapayır və qədim poeziya ümmanında üzməyə başlayır. Azərbaycanda minilliklərdir ki, belə oxuyurlar. Tarzən və kamanzən onun dediklərini təkrarlayır və təsdiqləyir. Axı muğam toxunası, görəsi bir şey deyil, amma həyatın mahiyyəti, ruhun qidasıdır. Duyğu qanadlarına alıb hələ sağ ikən girə bilmədiyimiz dünyalara apara bilir. Muğam İnsan varlığının qiymətli və ayrılmaz parçasıdır. Onu sevmək də, sevməmək də olar, anlamaq da, anlamamaq da. Bununla onun nə dəyəri, nə də mahiyyəti dəyişər.*

*Muğam xalqın seçimidir, onun damarında axan qanıdır. Muğam sevgisi həyat təcrübəsi, müdrikliklə birgə gəlir deyə xalqın bütün istək və amallarını gözəl əks edir. Milli dəyərlərimizi qorumağa çalışırıqsa, millət kimi bərbəzəkli dünyada itib batmaq istəmiriksə Muğamı da göz bəbəyi kimi qorumalıyıq. Xalq bu gözəl və məsuliyyətli işi xanəndələrinin üzərinə qoyub. Xanəndə həm oxuyur, həm yaşadır, həm qoruyur, həm də gələcəyə ötürür. Daim yeniləşən, dəyişən, zamana uyğunlaşan janr kimi muğam bütün xalq janrlarını özündə toplaya bilmiş monumental musiqi məbədidir.*

*Muğam bir nəfərin göz qarşısında qurduğu həyat teatrıdır. Musiqi, plastika, qəzəl, jest arasından xanəndənin şəxsiyyəti aydın görünür. Muğam bir qədər teatr və bir o qədər də dialoqdur. Bir əli göydə, bir əli yerdə olan sufi dərvişləri kimi göydən alıb yerə ötürmək səadətini yaşayan xanəndə melodik və ritmik bəzəklərdən elə bir xalı toxuyur ki, onun bənzəri yer üzündə tapılmaz.*

*Bu gün muğamı bütün dünya sevir. Onu dinləyənin "Axı siz kimsiz?!" deyəcək sualı qalmır. Hamı dərhal anlayır ki, bu sənət bir xanəndənin görəcəyi iş deyil. Nəhənglərin çiyninə dırmaşmış cırtdan kimi xanəndə çox uzaqları, adi insanın görə bilmədiklərini görür və ən əsası duyur. Müasir dövrün muğamı simfonik orkestrdə, caz improvizədə, opera səhnəsində, başqa millətlərin milli musiqisi ilə sintezdə də səslənə bilər, amma bu fakt xanəndənin cəmiyyət və xalq qarşısında roluna qəti təsir etməz. Çünki minilliklərlə bir-birinə görünməz bağlarla pərçimləşmiş, ənənələri dildən-dilə ötürən, üzü əbədiyyətə doğru yönəlmiş xanəndələr karvanından Xarrat Qulu, Əbdül Bağı Zülalov, Hacı Hüsü, Məşədi Məmməd Fərzəliyev, Cabbar Qaryağdıoğlu, Keçəçi oğlu Məhəmməd, Seyid Şuşinski, Zülfü Adıgözəlov, Xan Şuşinski kimi sənətkarların sədası gəlir. Müdriklər deyir ki, bir dəfə ucalan səs, ağızdan çıxmış sözün enerjisi, musiqinin vibrasiyası səs dalğaları kimi yer üzündə davam edir. Muğamın gözəllik və sevgi mesajından doğan bu nəhəng vibrasiya milyonları riqqətə gətirəcək qüvvəyə çevrilməkdədir...*







# İNSTRUMENTAL-MUĞAM KAFEDRASI

Azərbaycan musiqi mədəniyyətinin möhtəşəm və zəngin qollarından biri olan muğam sənəti dünya musiqi xəzinəsinin çox qiymətli incilərindən biridir. Hazırda muğam sənətinə maraq nəinki respublikamızda, həmçinin onun sərhədlərindən kənarda artmaqdadır. Xanəndə və sazəndələrimizin yüksək bədii keyfiyyətlə təqdim etdiyi muğam dəstgahları və o cümlədən xalq mahnıları, oynaqlığı və şuxluğu ilə xarakterizə olunan xalq rəqs melodiyaları dünyanın bir çox konsert salonlarında uğurla səslənməkdədir. Muğamlarımızın YUNESCO-nun "Bəşəriyyətin qeyri-maddi mədəni irsi reprezentativ siyahısı"na daxil edilməsi (2002-ci il, noyabr) bu unikal janrın qorunub saxlanması və inkişaf etdirilməsində atılan ciddi addımlardan biridir.



*İnstumental muğam kafedrası 2008-ci il. Soldan-sağa əyləşənlər: Ağasəlim Abdullayev, Rafiq Musazadə, Möhlət Müslümov, Oqtay Quliyev (prorektor), Malik Quliyev (kafedra müdiri), Şəfiqə Eyvazova, Arif Əsədullayev, Firuz Əliyev, Vamiq Məmmədəliyev; II sırada- Ramiz Əzizov, Valeh Rəhimov, Şamil İsmayılov, Ələkbər Ələkbərov, Toğrul Əsədullayev, Fəxrəddin Dadaşov, Elçin Nağıyev, Mehri Əsədullayeva.*

Ulu öndər Heydər Əliyevin 2003-cü il 16 may tarixində imzaladığı “Azərbaycan folklor nümunələrinin hüquqi qorunması haqqında” Azərbaycan Respublikası qanununa əsasən muğam dəstgahları, zərbi-muğamlar, təsnif və rənglər qorunan folklor nümunələri siyahısına daxil edilmişdir. Muğamların təbliği və müvafiq səviyyədə təqdimi işində Azərbaycan hökuməti və Heydər Əliyev fondunun təşəbbüsü və yaxından dəstəyi artıq öz nəticələrini verməkdədir. İncəsənət xadimlərimiz, o cümlədən muğam sənətkarlarımız Yaxın Şərq, Orta Asiya, Avropa və Amerikada bu ecazkar sənət nümunəsini müvəffəqiyyətlə göstərmək imkanı qazanıb. 2008-ci ildə inşa edilmiş Beynəlxalq Muğam Mərkəzi muğamsevərlərlə ustadların mütəmadi görüş yeridir. Muğamın təbliği məqsədilə keçirilmiş mühüm silsilə layihələrin də rolu danışmazdır. Bu diqqət və qayğının nəticəsində “Azərbaycan muğamları” layihəsi çərçivəsində “Qarabağ xanəndələri” albomu (Alboma “Qarabağ xanəndələri” adlı braşür və 24 Qarabağ xanəndəsinin ifasında muğam parçalarından ibarət 3 CD daxildir), “Muğam” jurnalı, “Muğam ensiklopediyası” nəfis şəkildə nəşr edilərək Azərbaycan incəsənətinə başucalığı gətirən faktora çevrilib. Bu qəbildən olan “Muğam-irs”, “Muğam-dəstgah”, “Muğam-internet”, “Muğam-antalogiya”, “Muğam aləmi” və “Muğam mərkəzi” layihələrinə 2005-ci ildən start götürən Muğam televiziya müsabiqəsini əlavə etsək muğam janrına olan maraq və qayğının miqyasını təxmini təsəvvür etmək mümkündür. Hər iki ildən bir olmaqla mütəmadi keçirilən, Heydər Əliyev fondu, Mədəniyyət Nazirliyi və Azərbaycan Milli Konservatoriyasının birgə layihəsi olan bu müsabiqə muğam sənətinin qorunub saxlanması, muğam ifaçılığı sənətinin gələcək nəsillərə çatdırılması, yeni ifaçılar nəslinin yetişdirilməsi işini çiyinlərinə götürmüş çox dəyərli tədbirlər seriyasıdır. Bundan əlavə Azərbaycan Beynəlxalq Muğam Festivalı və bu festival çərçivəsində “Beynəlxalq Muğam aləmi” simpoziumu, Beynəlxalq Muğam Müsabiqəsi də keçirilir.



*İnstrumental muğam kafedrasının iclası. Soldan sağa: Elçin Həşimov, Elşən Mansurov, Ağasəlim Abdullayev, Möhlət Müslümov, Malik Mansurov (kafedra müdiri), Elnur Əhmədov, Fəridə Məlikova, Səbuhi Əliyev.*

Müasir dövrün qloballaşma problemləri ilə baş-başa qaldığı bir zamanda milli ənənələrimizi qoruyub saxlaya və gələcək nəsillərə olduğu kimi ötürə bilmək Milli Konservatoriyanın, eləcə də İnstrumental muğam kafedrasının ən çox önəm verdiyi məsələlərdən biridir. Azərbaycan əsrlər boyu zəngin ənənələrin şifahi şəkildə – ustaddan şagirdə ötürüldüyü Şərq musiqi dünyasının ayrılmaz hissəsidir. Müasir təhsil sistemi şəraitində Şərq təhsil sistemini qorumaq şərti ilə Qərb təhsil modelinə uyğunlaşa bilmək qarşımızda qoyduğumuz ən ümdə və vacib məsələdir. Hələ XX əsrin 20-ci illərində Azərbaycanda, Bakının mərkəzində, milli musiqi alətlərində təlim keçən Avropa nümunəli ilk Konservatoriya açılan zaman ənənəvi musiqi ifaçılarının təlim metodları ilə bağlı mübahisələrdə bu 2 istiqamət vardı.



*Ustad şagird ənənəsinin Ağasəlim Abdullayevin sinfində davam olunması*

Ənənəvi musiqiçilər əsrlər boyu şifahi şəkildə ötürülən musiqi irsini ustad-şagird modeli üzrə davam etdirməli olardısa bu zaman bərabər temperasiyaya uyğun hazırlanan Avropa alətləri və ifaçılığı ilə uyğunsuzluq bu sistemlərin təmasına imkan yaratmayacaqdı. Avropaya meylli istiqamətdə isə yaddaşa söykənən, şifahi şəkildə ötürülən Şərq tədris metodikası qəbuledilməz sayılırdı. Bu iki, ilk baxışdan barışmaz mövqenin kəsişməsində yaranan Azərbaycan muğam ifaçılığı və tədris metodikası bu gün nəinki Şərqdə, hətta bütün dünyada unikal hadisədir. Azərbaycan musiqisinin banisi Üzeyir Hacıbəylinin səyi nəticəsində Avropa tipli milli bəstəkarlıq məktəbini yaratmaqla yanaşı ənənəvi şifahi təlim üsulunu, ustad-şagird tədris metodunun bu günə qədər qorunması həmçinin Azərbaycan muğamının taleyini həll etdi.



*Fəxrəddin Dadaşovun kamança sinfində muğam sənətinin şifahi üsulla ötürülməsi*

AMK-nın İnstrumental-muğam kafedrası yarandığı gündən Azərbaycan şifahi ənənəli musiqi irsi olan muğam sənətini qoruyub saxlamaq, ayrı-ayrı şöbə və guşələrin itib-batmasına yol verməmək, muğamı öz alətlərində uğurla, məsuliyyət və cəsarətlə səsləndirməyə nail olmuş Əhməd Bakıxanov, Bəhram Mənsurov, Qurban Pirimov, Hacı Məmmədov, Əhsən Dadaşov, Sərvər İbrahimov, Habil Əliyev, Teyyub Dəmirov, Ədalət Vəzirov və s. kimi böyük sənətkarların bizim üçün çalıb yadigar saxladıqları muğam, dəraməd, diringi və rəngləri gənc nəslə öyrətmək kimi vacib məsələlərlə məşğul olur. Bu ağır yükün daşıyıcıları olan kafedramızın müəllimləri həm öyrənməli, həm də öyrətməli olduqlarından sanki nəsillərarası körpüyə çevrilirlər. Muğamın yaradıcıları məhz ifaçılar olduğundan onun yaranması, inkişafı və bu günə qədər şifahi halda gəlib çatması ayrı-ayrı sənətkarın zəhməti nəticəsində mümkün olub. Bu gün görkəmli sənətkarlarımızın ciddi zəhmət və səyi nəticəsində muğamların həm vokal-instrumental və həm də instrumental səs yazılarından ibarət zəngin xəzinəmiz var. Bu xəzinənin gənc nəslə ötürülməsi işində İnstrumental-muğam kafedrasının professor-müəllim heyəti var qüvvəsilə çalışır. Kafedranın müəllim və tələbələrinin sorağı dünyanın bir çox ölkələrinin konsert salonlarından, səsyazma studiyalarından, festivallarından gəlməkdədir. Bu işdə onların əsasköməkçisi və dayağı isə AMK-nın rektoru, xalq artisti, professor Siyavuş Kəriminin diqqət və qayğısı nəticəsində respublikada və xarici ölkələrdə keçirilən demək olar ki, bütün dövlət səviyyəli tədbir, konsert və festivallarda İnstrumental-muğam kafedrasının müəllim və tələbələri öz parlaq çıxışları ilə muğamsevər Azərbaycan xalqını sevindirməkdədir.



*Müəllim Sabir Ələkbərovun dərs prosesi*

Azərbaycan muğam sənətinin yaranması, formalaşması və coşqun şəkildə inkişafında, xanəndələrlə paralel olaraq tarzən, kamançaçalan, balabançı (o cümlədən tütək, ney, zurna), qanunçu və nağara çalanların böyük rolu var. 2004-cü ildə AMK-nın rektoru, xalq artisti, professor Siyavuş Kəriminin təşəbbüsü ilə İnstrumental-muğam kafedrasının yaranması məhz ifaçılığın dünya səviyyəsinə çıxacaq qədər cilalanmasına təkan oldu. O zaman bu kafedraya rəhbərlik, sənətşünaslıq üzrə fəlsəfə doktoru, əməkdar müəllim, professor Malik Quliyevə tapşırılır. Malik müəllim ətrafına həmin illərdə konservatoriyada artıq illərlə fəaliyyətdə olan bir çox məşhur musiqiçiləri, o cümlədən xalq artistləri, professor Ağasəlim Abdullayev, professor Möhlət Müslümov, professor, mahir kaman ifaçısı Fəxrəddin Dadaşov, professor, sənətşünaslıq üzrə fəlsəfə doktoru, əməkdar müəllim Rafiq Musazadə, xalq artisti, dosent Firuz Əliyev, kamança ifaçısı, əməkdar artist, dosent Elşən Mansurov, tarzən, əməkdar artist, dosent Elçin Həşimov, kamança ifaçısı, əməkdar artist, dosent Elnur Əhmədov və başqalarını toplayaraq birgə bu məsuliyyətli işin qurulmasında böyük səylə çalışmağa başlayırlar. O vaxtdan bəri, muğamın tədrisində məşhur sazəndələr, o cümlədən Əhməd Bakıxanov, Mirzə

Mənsur Mənsurov, Bəhram Mənsurov, Hacı Məmmədov, Əhsən Dadaşov, Kamil Əhmədov, Habil Əliyev və s. kimi ustadların vaxtilə araşdırıb tapdıqları şöbə və guşələr əsas götürülürdü. Bir növ ifaçılıqla araşdırmaçılığın qovşağında yaranan bu tədris üsulu indi də böyük uğurla davam etməkdədir. AMK-nın İnstrumental-muğam kafedrasında muğama aid olan bütün nümunələr, şöbə və guşələrin müxtəlif (qədim və müasir) variantlarını müəllimlərindən öyrənən tələbələr, həm də muğamın (şöbə və guşələrin) yaranma tarixi haqqında məlumat da alırlar. Əlavə olaraq tarzən və ya qanunçu tələbə, yuxarıda adları sadalanan sazəndələrin mizrab üsulları, düzgün səslənmə və ifa tərzi barədə də lazım olan məsələləri öyrənirlər. Hazırda İnstrumental muğam kafedrasında xalq artisti, professorlar – Ağasəlim Abdullayev, Möhlət Müslümov, Fəxrəddin Dadaşov, dosentlər – Mahmud Əliyev, xalq artistləri Firuz Əliyev, Munis Şərifov, əməkdar artistlər Malik Mansurov, Valeh Rəhimov, Elçin Həşimov, Elnur Əhmədov, Elşən Mansurov, Ələkbər Ələkbərov, Əliağa Sədiyev, əməkdar müəllim Rasim Quliyev, sənətşünaslıq üzrə fəlsəfə doktorları Toğrul Əsədullayev, Aydın Əliyev, baş müəllimlər: Sabir Ələkbərov, Elçin Nağıyev, Səbuhi Əliyev, müəllimlər: Coşqun Sadıxov, Aysu Sadıqova, Arifə İmanova, Baxşəli Əliyev, Ramiz Həsənov, əməkdar artistlər Kamran Kərimov, Şirzad Fətəliyev, sənətşünaslıq üzrə fəlsəfə doktoru Nemət Qasımov, filologiya üzrə fəlsəfə doktoru Fəxrəddin Baxşəliyev, xalq artisti Ənvər Sadıqov, konsertmeysterlər: Pərviz Qasımov, Günay İmamverdiyeva çalışır.



*Möhlət Müslümovun sinfində dərs prosesi*



*Malik Mansurovun dərs prosesi.*



*Elşən Mansurovun dərs prosesi*



*Müəllimlər Elçin Nağıyev və Fəridə Məlikovanın dərs prosesi*



*Elnur Əhmədovun sinfində kamançada muğamın tədrisi*



*Ələkbər Ələkbərovun dərs prosesində tarda ifa ənənələrinin  öyrədilməsi*



*Elçin Həşimovun dərs prosesi*



*Şirzad Fətəliyevin dərs prosesi*

Muğam sənəti tələbəyə şifahi şəkildə, "ustaddan-şəyirdə" (el arasında belə deyilər) prinsipinə əsaslanan çox qədim tarixə malik olan musiqi incisidir. Öz inkişafı prosesində itkilərə, dəyişikliklərə və hətta təzyiqlərə məruz qalmışdır. XX əsrin 20-30-cu illərində, Sovet hakimiyyətinin ilk dövründə bəzi alətlərin, o cümlədən tarın yasaq olunmasına cəhdlər də olub. Lakin Üzeyir Hacıbəyli, Müslüm Maqomayev kimi yüksək bədii təfəkkürə, böyük istedada malik olan bəstəkarlarımız və gənc şair Mikayıl Müşfiq kimi ədiblərimiz öz cəsarətli, alovlu etirazları ilə bu böyük səhvin qarşısını ala bildilər. Bununla belə uzun illər ərzində öz inkişafı yolunda bəzən bütöv muğamlar, amma çox zaman şöbə və guşələr dediyimiz kimi itkilərə məruz qalıb. Amma bir çox böyük sənətkarlar, o cümlədən Məşədi Məlik Mənsurov, Mansur Mansurov, Əhməd Bakıxanov, Hacı Məmmədov və bu kimi digər sənətkarlarımız bu qüsuru aradan qaldırmaq üçün əzmlə çalışmış, arayıb-axtarmış və tapa bildikləri şöbə və guşələri, onların ifa tərzi, mizrab üsulları, yeri və mövqeyini bərpa edib lentə yazdırıblar. Hazırda bu unikal yazılar dövlət səviyyəsində qorunur. Bunun nəticəsi olaraq bir çox az çalınan muğamlarımız, o cümlədən "Üzzal" və "Kərəmi" kimi zərbi muğamları magistr pilləsində təhsil alan tələbələrin tədris proqramına daxil edilmişdir. İnstrumental ifaçılıq kafedrasında dərslər şifahi ənənəyə əsaslansa da xüsusi tərtib olunmuş, Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş proqramlar əsasında keçirilir. İnstrumental-muğam kafedrasında mükəmməl şəkildə dərs deyən kifayət qədər müəllim var ki, onların zəhməti sayəsində artıq respublikamızda və onun hüdudlarından kənarda məşhur olan musiqiçilər nəsli yetişmişdir.



*İnstrumental-muğam kafedrasının müəllimləri. Ön sırada solan sağa: Möhlət Müslümov, Firuz Əliyev, Fəxrəddin Dadaşov, Ağasəlim Abdullayev, Mahmud Əliyev. Arxa sırada Şirzad Fətəliyev, Əliağa Sədiyev, Coşqun Sadıqov, Elşən Mansurov, Toğrul Əsədullayev*



*Ön sırada soldan sağa: Baxşəli Əlyev, Aydın Əliyev, Malik Mansurov, Valeh Rəhimov, Sabir Ələkbərov. Arxa sırada Kamran Kərimov, Coşqun Sadıqov, Ənvər Sadıqov, Elçin Həşimov, Elnur Əhmədov, Elçin Nağıyev*

# İNSTRUMENTAL MUĞAM KAFEDRASININ PEDAQOJİ HEYƏTİ



**Malik Mansurov**
Kafedra müdiri, Azərbaycan respublikasının əməkdar artisti, dosent



**Ağasəlim Abdullayev**
Professor, Azərbaycanın Respublikasının xalq artisti



**Fəxrəddin Dadaşov**
Professor, Azərbaycan Respublikasının xalq artisti



**Möhlət Müslümov**
Professor, Azərbaycan Respublikasının xalq artisti



**Rafiq Musazadə**
Əməkdar müəllim, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor



**Firuz Əliyev**
Azərbaycan respublikasının xalq artisti, dosent



**Munis Şərifov**
Azərbaycan respublikasının xalq artisti, dosent



**Sabir Ələkbərov**
Baş müəllim



**Şirzad Fətəliyev**
Respublikanın əməkdar artisti, müəllim



**Elçin Həşimov**
Respublikanın əməkdar artisti, dosent



**Elnur Əhmədov**
Respublikanın əməkdar artisti, dosent



**Aydın Əliyev**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent



**Ələkbər Ələkbərov**
Respublikanın əməkdar artisti, dosent



**Elşən Mansurov**
Respublikanın əməkdar artisti, dosent



**Valeh Rəhimov**
Respublikanın əməkdar artisti, dosent



**Toğrul Əsədullayev**
Əməkdar artist, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent



**Nemət Qasımov**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, müəllim



**Əliağa Sədiyev**
Əməkdar artist, dosent



**Rasim Quliyev**
Dosent, əməkdar müəllim



**Mahmud Əliyev**
Dosent



**Elçin Nağıyev**
Baş müəllim



**Səbuhi Əliyev**
Baş müəllim



**Ənvər Sadıqov**
Azərbaycan respublikasının xalq artisti, müəllim



**Ramiz Həsənov**
müəllim



**Baxşəli Əliyev**
Müəllim



**Coşqun Sadıqov**
Müəllim



**Aysu Sadıqova**
Müəllim



**Arifə İmanova**
Müəllim

# Saz

*Bu gün ələ almaz oldum mən sazım*
*Ərşə dirək-dirək çıxar mənim avazım.*
*Dörd iş vardır hər qarındaşa lazım:*
*Bir elm, bir kəlam, bir nəfəs, bir saz.*

*Şah İsmayıl Xətai*

Saz ulu ozan sənətinin davamçısı olan aşıq və saz-söz sənətinin ayrılmaz tərkib hissəsi, eyni zamanda türk dünyasının ən əzəmətli musiqi alətlərindən, türk mənəviyyatının rəmzlərindən biridir. Təzənə (mizrab) ilə çalınan ulu ozan sənətinin davamçısı olan aşıq və saz-söz sənətinin ayrılmaz tərkib hissəsidir. Sinkretik, özündə çalğı, oxuma, şeir, söz və dastan ifaçılığı, aktyorluq və rəqs (plastika) sənətlərini birləşdirən saz-söz sənəti Azərbaycan milli mədəniyyətinin ən qədim qatları ilə bağlıdır. Ozan sənəti əsrlər boyu böyük təkamül yolu keçərək aşıq sənətinə çevrildiyi kimi, qopuz da ona oxşar təkamül yolu keçərək saz aləti şəklini almışdır.



Türklərin həyat tərzini, mədəniyyətini, fikir xəzinəsini özündə daşıyan saz duyğuların ifadəsində əvəzsiz rol oynayıb. Onu döyüşlərdə də səsləndiriblər, toylarda da, el şənliklərində də. Saz dar gündə el-obanın arxası-dayağı, gen gündə könül xoşluğu, göz aydınlığı olub. Saz çalıb söz söyləyən aşıqlarımız, tarixən, eldə-obada həm əxlaqı, həm istedadı, həm də savadı ilə sayılıb-seçilən insanlar olublar. Saz aşığın yol yoldaşıdır. El-el, oba-oba gəzən aşıqlar sazla qol-boyun yaşayıb, ondan heç vaxt ayrılmayıblar. Ustad aşıqlar deyər ki, saz alətinin varlığı bizim xoşbəxtliyimizdir, saza yaxşı qulluq etməlisən ki, o da sən istədiyini yerinə yetirə.

Saz öz varlığı ilə folklorumuzda böyük bir yaradıcılıq yolu açıb. Bu ecazkar alətin eşqinə yaranan aşıq poeziyasının nadir inciləri, dastanlar, ifaçılıq məktəbi, saz havaları, aşıq mahnıları tariximizi, milli mənəvi dəyərlərimizi əsrdən-əsrə adladıb. Şifahi xalq ədəbiyyatının çox zəngin qolu olan aşıq ədəbiyyatı məhz sazın, saz havalarının, aşıq mahnılarının üzərində qurulub. Hər havanın və mahnının da öz tarixi var. Belə bir əfsanə də var ki, qoç Koroğlu dəstəsinə adam qəbul edərkən onu saz musiqisi ilə sınayarmış. Əgər saz bu adamın ürəyinə toxunmazsa demək ondan qəhrəman da çıxmaz.

Bir vaxtlar sazın simləri yüksək keyfiyyətli poladdan hazırlanıb gümüş suyuna salınarmış. Onlar heç zaman paslanmaz və çox az halda qırılarmış. Saza 8-10 sim qoşulur ki, onların köklənmə prinsipi çox maraqlı və orijinaldır. Sazın qoluna öz adları olan (baş pərdə, orta pərdə, şah pərdə, yastı pərdə, ayaq pərdə və beçə pərdə) 10-14 pərdə bağlanır. Diapazonu (C1-G2) və fərqli köklənmə üsulu aşıq musiqisinin bütün formalarını ifa etməyə imkan verir. İfaçı çalğı zamanı simlərin eyni zamanda hamısını vurur. Bu isə ifa olunan əsas melodik xətt üçün kvarta-kvinta səslərindən ibarət daimi surətdə səslənən harmonik fon yaratmış olur.

Saz ata-babalarımızın əsrlər boyu qoruyub saxladığı, bu alət vasitəsi ilə öz tarixini, mədəniyyətini folklorumuzda əbədiləşdirdiyi əvəzsiz musiqi alətidir. Bu gün o, hamı ilə öz dilində danışır və milli Azərbaycan musiqisinin gözəlliyini, zənginliyini bütün dünyaya bəyan edir.



Hanoy şəhərində Azərbaycan
ilə Vyetnam arasında diploma




























ВДНХ




## “MİLLİ VOKAL” KAFEDRASI

Milli vokal ixtisası Azərbaycan Milli Konservatoriyasının rektoru Siyavuş Kəriminin təşəbbüsü ilə 2013-cü ildə tədrisə daxil edilmişdir. İlk illər bu ixtisas “Muğam - xanəndəlik” kafedrasının tərkibində yer aldı və AMK-da onun ayrıca tədrisinə zərurət bir sıra amillərlə bağlı idi.

Məlumdur ki, Azərbaycan oxuma tərzini Avropa vokalından fərqləndirən əsas cəhətlərdən biri də milli çalarlı melizmlərin mövcudluğudur. Məhz bu cəhət Azərbaycanda yaranmış bir çox opera əsərləri və vokal musiqi nümunələrinin üslubunda öz parlaq təzahürünü tapıb. Lakin bu oxuma tərzi Azərbaycanın bütün opera-vokal ifaçılarının avazında özünü lazımi səviyyədə göstərə bilmir. Vokalçılarımızın arasında tək-tək ifaçılar bu problemli cəhətin öhdəsindən layiqincə gələ bilmişlər. Belə ifaçılardan Bülbül, Rəşid Behbudov, Rəhilə Cabbarova, Lütfiyar İmanov, Firəngiz Əhmədova kimi ötən əsrin görkəmli vokal ustalarının adını xüsusi qeyd etmək lazımdır.  Bu gün də opera ifaçılarımız arasında melizmlərə önəm verən vokalçılara rast gəlmək mümkündür.

Klassik opera sahəsində çalışan əksər ifaçıların daha çox Avropa vokal ifaçılığının ənənələrinə üstünlük verərək milli ruhdan uzaq olması, xüsusilə də öz ifaçılığında melizm ifadəsinə önəm verməməsi Azərbaycan opera-vokal əsərlərinin ifaçılığında ciddi problemə çevrildiyindən bu məsələni kökündən həll etmək üçün AMK-da xüsusi kafedranın yaradılması qərara alındı.

2015-2016-cı tədris ilində kafedranın tam qaydada müstəqil fəaliyyət göstərməsi üçün kifayət qədər dərs saatı müəyyən edildi və ADMİU-nun vokal kafedrasının müdiri, Azərbaycan və Dağıstan Respublikalarının Xalq artisti, professor Azər Zeynalov bu kafedraya rəhbərlik etmək üçün Azərbaycan Milli Konservatoriyasına dəvət olundu. Beləliklə, tez bir zamanda lazımi proqramlar, sillabuslar, qəbul və semestr imtahan sualları tərtib edildi və 2016-2017-ci tədris ilindən “Milli vokal” kafedrası müstəqil kafedra kimi fəaliyyət göstərməyə başladı.

Tədris olunan fənlərin, eləcə də tələbələrin sayı artdıqca kafedraya yeni müəllimlər və konsertmeysterlər də cəlb edildi. Hazırda kafedrada 14 müəllim və 17 konsertmeyster çalışır. Kafedranın müəllimləri sırasında Xalq artisti Gülnaz İsmayılova, əməkdar artistlər Anar Hüseynli (Şuşalı), Zenfira İsmayılova, Aygün Zeynalova, Yaqut Abdullayeva, Əliəhməd İbrahimov, Ramil Qasımov, Afaq Abbasova, Fəridə Məmmədova, habelə tanınmış ifaçılar Mübariz Əliyev, Zümrüd Paşayeva, Eleanora Mustafayeva, Mahirə Həsənova və digərlərini qeyd etmək olar.

Kafedrada konsertmeyster qismində pianoçular Gülnar Axundova, Təranə Məmmədova, Nigar Hüseynzadə, Naibə Şahməmmədova, Zərrin Muradova, Nigar Həşimzadə, Aynurə Məmmədova, İradə Fərzullayeva, İlahə İsmayılova, Vəfa Qasımzadə, Nəzrin Qasımova, Vəfa Əzizova, Nərmin Qurbanova, Tamara Xəlilova, İllər Məmmədzadə, Rəşidə Məmmədzadə və digərləri çalışırlar.



*Soldan sağa I sırada: Vaqif Gərayzadə, Zümrüd Paşayeva, İlqar Muradov, Zenfira İsmayılova, Azər Zeynalov, Gülnaz İsmayılova, Mübariz Tağıyev, Fəridə Məmmədova, Anar Şuşalı, Afaq Abbasova, Siyavuş Kərimi, Aygün Zeynalova. II sırada: Rövşən Rzayev, Əliəhməd İbrahimov, Yaqut Abdullayeva, Tubuxanım Nuriyeva, Nəsibə Cəfərova, Teymur Abdullayev*



*Kafedranın konsertmeysterləri: soldan sağa I sıra – Pərviz Məmmədov, Aynurə Məmmədova, Vəfa Əzizova, İradə Feyzullayeva, Nigar Haşimzadə, Eldar Məmmədov, Gülnar Axundova, Təranə Məmmədova, İlahə İsmayılova, Nigar Hüseynzadə, Tural Qasımlı. II sıra – Vəfa Qasımzadə, Tamara Xəlilova, Zərrin Muradova, İllər Məmmədzadə, Nərmin Qurbanova, Nəzrin Qasımova, Ülviyyə Mahmudova.*



*Milli vokal kafedrasının müəllimləri yenilikləri birlikdə müzakirə etməyi sevir.*

Hal-hazırda kafedrada "Milli vokal" ixtisas fənni ilə bərabər aşağıdakı fənlər də tədris olunur: "Xüsusi pedaqoji hazırlıq", "İxtisas fənninin tədrisi metodikası", "İfaçılıq təcrübəsi", "Pedaqoji təcrübə", "Kamera konsert oxunması". Əlbəttə ki, bunlarla bərabər tələbələrimizə digər kafedralarda humanitar fənlər də tədris edilir. Magistr pilləsində tədris olunan fənlərdən isə bunları qeyd edə bilərik: "Milli vokal", "Milli vokal sənətinin müasir istiqamətləri", "Diplomqabağı yaradıcılıq təcrübəsi", "Pedaqoji təcrübə", "Magistr yaradıcılıq işinin hazırlanması və müdafiəsi", "Kamera sinfi".




*Soldan sağa: Əliəhməd İbrahimov, Aygün Zeynalova, Mübariz Tağıyev, Fəridə Məmmədova royal arxasında - Eldar Məmmədov*

"Milli vokal" kafedrasının müəllim və konsertmeysterləri pedaqoji fəaliyyətlə yanaşı, yaradıcılıq sahəsində də çox fəaldırlar. İftixarla qeyd edə bilərik ki, onların əksəriyyəti Azərbaycanda və xarici ölkələrdə keçirilən dövlət əhəmiyyətli tədbir və konsertlərdə böyük peşəkarlıq nümayiş etdirərək uğur qazanırlar. Təqdirəlayiq haldır ki, "Milli vokal" kafedrasının tələbələri öz müəllimlərindən geri qalmır və onlar bir çox festival və müsabiqələrdə, habelə Milli Konservatoriyanın keçirdiyi bütün tədbir və konsertlərdə ali məktəbimizi layiqli şəkildə təmsil edirlər.



"Milli vokal" kafedrasının professor-müəllim heyətinin pedaqoji baxımdan yüksək peşəkarlığı, apardıqları dərslərin verdiyi bəhrələr nəticəsində tələbələrin öz sevib-seçdiyi peşələrinə olan həvəsi daha da artır. Bütün bunların nəticəsidir ki, tələbələrimiz qazandıqları yüksək nailiyyətləri ilə musiqi təhsilli Ali məktəblər sırasında layiqli yer tutmuşlar.

Hazırda Milli Konservatoriyada yeni yaranmış "Estrada və caz ifaçılığı" ixtisası öz fəaliyyətini məhz "Milli vokal" kafedrasının tərkibində aparır. Bu ixtisası tədris edən müəllimlərdən Konservatoriyanın rektoru, Xalq artisti, professor Siyavuş Kərimi, Xalq artistləri Mübariz Tağıyev, İlqar Muradov, Əməkdar incəsənət xadimi Vaqif Gərayzadə, müəllimlər Rövşən Rzayev, Teymur Abdullayev, Əvəz Muradov və

digərlərini qeyd edə bilərik.

Kafedramızın uğurlu fəaliyyəti davam edir, fədakar pedaqoqlarımız illər boyu topladığı təcrübəni öz tələbələrinə aşılamaqla gələcək nəslin peşəkar vokal ifaçılarını yetişdirməkdədirlər.



*Azərbaycan Milli Konservatoriyasında 20 Yanvar faciəsi qurbanlarının xatirəsinə həsr edilmiş konsertdə Azər Zeynalovun çıxışı. 19 yanvar 2018-ci il*




*"Azərbaycan vokalçılar festivalı". Bakı. 17-24 dekabr 2019-cu il*

# MİLLİ VOKAL KAFEDRASININ PEDAQOJİ HEYƏTİ:



**Siyavuş Kərimi**
Rektor, professor, xalq artisti



**Azər Zeynalov**
Kafedra müdiri, Azərbaycan və Dağıstan Respublikalarının xalq artisti, professor



**Mübariz Tağıyev**
Xalq artisti, müəllim



**Gülnaz İsmayılova**
Xalq artisti, dosent



**İlqar Muradov**
Xalq artisti, dosent



**Anar Hüseynli (Şuşalı)**
Əməkdar artist, dosent



**Zenfira İsmayılova**
Əməkdar artist, müəllim



**Aygün Zeynalova**
Əməkdar artist, müəllim



**Yaqut Abdullayeva**
Əməkdar artist, dosent



**Vaqif Gərayzadə**
Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent



**Ramil Qasımov**
Əməkdar artist, baş müəllim



**Əliəhməd İbrahimov**
Əməkdar artist, dosent



**Fəridə Məmmədova**
Əməkdar artist, müəllim



**Zümrüd Paşayeva**
Müəllim



**Afaq Abbasova**
Əməkdar artist, müəllim



**Eleanora Mustafayeva**
Müəllim



**Rövşən Rzayev**
Müəllim



**Teymur Abdullayev**
Müəllim



**Əvəz Muradov**
Müəllim







MAY 6, 2017















## “DİRİJORLUQ” KAFEDRASI

“Dirijorluq” kafedrası Milli Konservatoriyanın yarandığı ilk dövrlərdən fəaliyyətə başlayıb. Kafedranın əsası 1992-ci ildə Ü. Hacıbəyli adına Bakı Musiqi Akademiyasında “Xalq çalğı alətlərinin orkestrləşdirilməsi və dirijorluğu” adı ilə qoyulub və uzun illər bu kafedraya görkəmli bəstəkar, xalq artisti, professor Vasif Adıgözəlov rəhbərlik edib (1992-2002). 2012-ci ildə kafedranın AMK-da çoxşaxəli fəaliyyətini nəzərə alaraq onun “Dirijorluq” kafedrası adlanması qərara alınmışdır. Yarandığı gündən burada bir sıra görkəmli və tanınmış sənətkarlar – xalq artistləri, professorlar Vasif Adıgözəlov, Ramiz Mirişli, Hacı Xanməmmədov, Ramiz Mustafayev, Nəriman Məmmədov, Cavanşir Cəfərov, Azər Dadaşov, Yalçın Adıgözəlov, habelə sənətşünaslıq doktoru, professor Səadət Abdullayeva, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Vaqif Əbdülqasımov, əməkdar müəllim, dosent Nurəddin Mərdanov, əməkdar incəsənət xadimləri Nazim Quliyev, Vaqif Gərayzadə, Dilarə Əliyeva, əməkdar artistlər Faiq Sadıqov, Fəxrəddin Atayev, dosent Namiq Nəbiyev, sənətşünaslıq üzrə fəlsəfə doktoru Fuad Əzimli, Rasim Babayev və digərləri pedaqoq, habelə kollektiv rəhbəri kimi fəaliyyət göstərmişlər.

İlk zamanlar “Dirijorluq” kafedrasında yalnız “dirijorluq” ixtisası üzrə (bakalavr və magistr) tədris aparılırdı. 2014-2015-ci tədris ilindən etibarən isə kafedra artıq iki ixtisas – Dirijorluq və Bəstəkarlıq üzrə mütəxəssis hazırlamağa başlamışdır.

2002-2017-ci illərdə kafedra tanınmış dirijor, xalq artisti, professor, Azərbaycan Dövlət Xalq çalğı alətləri orkestrinin bədii rəhbəri və baş dirijoru Ağaverdi Paşayevin başçılığı altında fəaliyyət göstərmişdir. Kafedranın təşəkkülü və inkişafında Ağaverdi müəllimin böyük rolu və xidmətləri danılmazdır. 2017-ci ildən kafedraya Azərbaycan Milli Konservatoriyasının dosenti Leyla Zalıyeva rəhbərlik edir.

“Dirijorluq” kafedrasının başlıca vəzifəsi professional dirijor və bəstəkar kadrların hazırlanmasıdır. Eyni zamanda, tələbələr həm də müəllimlik sənətinin peşə vərdişlərini və tədris metodikalarını mənimsəyirlər.

AMK-da “Dirijorluq” ixtisası üzrə təhsil alan tələbələr xalq çalğı alətləri orkestrinin və xor kollektivinin rəhbəri kimi yetişirlər. Buna görə də tələbə-dirijorun qarşısında duran bir sıra ümumi və professional məsələləri həll etmək lazım gəlir.



*Dirijorluq kafedrasının iclası. 2016-cı il*

Bu ixtisas üzrə təhsil alan tələbələrə müxtəlif fənlər tədris edilir ki, onların sayəsində hərtərəfli biliyə malik, müxtəlif ansambl və orkestrlərlə işləməyi bacaran peşəkar musiqi-çi-dirijorlar yetişib püxtələşir. 2014-cü ildə tərtib olunmuş tədris planına əsasən kafedrada dirijorluq üzrə "İxtisas fənni" ilə yanaşı, "Partitura qiraəti", "Alətşünaslıq, «Orkestrləşdirmə", «Xor və orkestrlə təcrübə işi", "Simfonik alətlərlə tanışlıq və köçürmə", «Xor aranjimanı", «Orkestr və xor əsərlərinin təhlili", «Dirijorluğun müasir istiqamətləri" və digər zəruri fənlər tədris olunur. Təcrübəli professor-müəllim heyəti tərəfindən bu fənlər üzrə müvafiq proqramlar və xeyli sayda dərs vəsaitləri ərsəyə gətirilmişdir. İlk dəfə olaraq ana dilində "Dirijorluq sənəti" dərsliyi (müəlliflər – Ağaverdi Paşayev və Rasim Babayev) və "Alətşünaslıq" dərsliyi (müəllifi Məmmədağa Umudov) yazılmış və nəşr edilmişdir. Eyni zamanda "Dirijorluq sənətinin tədrisi metodologiyası" (müəllif – Leyla Zalıyeva), "Simfonik və Xalq çalğı alətləri orkestrlərinin partitura qiraəti" adlı dərs vəsaitlərinin (müəlliflər – Vasif Allahverdiyev, Leyla Zalıyeva, Sevinc Balabəyova) işıq üzü görməsi tədris prosesinə əhəmiyyətli töhfə olmuşdur.

Kafedranın müəllimləri dirijorların ifaçılıq repertuarını daim zənginləşdirilməsi üzərində çalışırlar. Bu baxımdan son illərin məhsulu olan bir neçə dərs vəsaitinin, işləmə və köçürmələrin adını çəkmək lazımdır. Bu, İlahə Hüseynova və Leyla Zalıyevanın birgə əməyi ilə başa gələn "Ü.Hacıbəylinin "Əsli və Kərəm" muğam operasının Azərbaycan Xalq çalğı alətləri orkestri üçün köçürməsi" adlı dərs vəsaiti, Ağaverdi Paşayevin "Azərbaycan Xalq çalğı alətləri orkestri üçün işləmələri", Təranə Yusifovanın "Xor üçün işləmələri" və "Gəl, sevək vətənim Azərbaycanı" adlı xor üçün işləmələri, Ağaverdi Paşayev və Sevil Həsənovanın birgə tərtib etdikləri "Azərbaycan bəstəkarlarının XÇA orkestri üçün pyesləri (partituralar)" adlı dərs vəsaitidir və bunlar işıq üzü görmüş işlərin yalnız bir hissəsidir.

Məlumdur ki, dirijorluq ixtisasına tam mənada yiyələnmək üçün onu praktiki tərəfdən yaxşıca əxz etmək, yəni musiqi kollektivləri ilə birbaşa işləmək çox vacib şərtlərdəndir. 2014-cü ildə Azərbaycan Milli Konservatoriyasının yeni binası təhvil verilənədək "Dirijorluq" kafedrasında Konservatoriyanın tələbələrindən ibarət bir orkestr və bir xor kollektivi fəaliyyət göstərirdi. Yaradılan əlverişli şərait bu kollektivlərin sayını artırmaq imkanı verdi. Bundan əlavə, yeni binaya keçid aldıqdan sonra kafedra müasir avadanlıqlarla təchiz edildi. Dirijorluq ixtisası üçün xüsusi otaqlar ayrılıb ki, həmin otaqların hər birinə iki royal, xüsusi güzgülər və dirijor dayanacağı qoyulmuşdur.



*Azərbaycan Milli Konservatoriyasının tələbə xorunun dərs prosesi. Bədii rəhbər Dilarə Əliyeva*

Hazırda “Dirijorluq” kafedrasının bilavasitə rəhbərliyi və nəzarəti altında Azərbaycan Milli Konservatoriyasında tələbələrdən ibarət Xalq çalğı alətləri orkestri və xor kollektivlərinin hər birinin ayrıca iki heyəti fəaliyyət göstərir. Xalq çalğı alətləri orkestrlərinin rəhbərləri – “Dirijorluq” kafedrasının baş müəllimi Arif Məhərrəmov və müəllim Aysel Bağırovadır. Xor kollektivlərinə isə sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Təranə Yusifova və kafedra müdiri, dosent Leyla Zalıyeva rəhbərlik edirlər. Konservatoriyada müxtəlif ixtisaslar üzrə təhsil alan tələbələr bu kollektivlərin işinə mütləq qaydada qatılırlar.



*Azərbaycan Milli Konservatoriyasının tələbə xorunun dərs prosesindən. Bədii rəhbər Təranə Yusifova*





*Azərbaycan Milli Konservatoriyasının tələbə xorunun dərs prosesi*

Xüsusi vurğulayaq ki, digər təhsil ocaqlarından fərqli olaraq, Azərbaycan Milli Konservatoriyasında "Dirijorluq" ixtisası üzrə təhsil alan tələbələr artıq tədris aldığı birinci ildən başlayaraq orkestr və xorla təcrübə işi aparmağa cəlb olunurlar. Eyni zamanda bu ixtisası bitirən istər bakalavr, istərsə də magistr tələbələr öz yekun ixtisas imtahanlarını, yenə də analoji təhsil ocaqlarından fərqli olaraq, həm xora, həm də orkestrə rəhbərlik etməklə başa vururlar. Burada onlar xor və orkestr üçün etdikləri işləmələrini, aranjimanlarını bu kollektivlərin ifasında təqdim edirlər.



*Arif Məhərrəmovun rəhbərlik etdiyi tələbələrdən ibarət xalq çalğı alətləri orkestrinin məşq prosesi*

Əlamətdardır ki, kafedrada fəaliyyət göstərən kollektivlər nəinki Konservatoriyada, həm də mütəmadi olaraq ildə bir neçə dəfə respublika və beynəlxalq səviyyəli müxtəlif tədbirlərdə, o cümlədən Azərbaycanın bir sıra rayon və şəhərlərinin konsert zallarında rəngarəng konsert proqramları ilə çıxış edirlər. Onların peşə vərdişlərini artırmaq məqsədilə 2015-ci ildən başlayaraq hər il Norveçin məşhur "SKRUK" xorunun rəhbəri Per Oddvar Hildre AMK-nın rektoru Siyavuş Kəriminin dəvətilə Bakıya təşrif buyurur. Onun xor kollektivləri ilə keçirdiyi ustad dərsləri daim müəllim və tələbələrin böyük marağına səbəb olur. Bunun nəticəsidir ki, tanınmış xormeyster Azərbaycan Milli Konservatoriyasının fəxri doktoru seçilmişdir.



*Tələbələrdən ibarət xalq çalğı alətləri orkestri. Müəllim Arif Məhərrəmovun dərs prosesi*



*Tələbələrdən ibarət xalq çalğı alətləri orkestrinin məşq prosesi*



*Azərbaycan Milli Konservatoriyasının tələbə orkestrinin konserti.*
*Dirijor və bədii rəhbər Aysel Bağırova. 25 may  2018-ci il*



*Norveçli dirijor, "SKRUK" xorunun yaradıcı və bədii rəhbəri Per Oddvar Hildre Azərbaycan Milli Konservatoriyasında ustad dərsləri verərkən*

"Dirijorluq" kafedrasında artıq beş ildən çoxdur ki, bəstəkarlıq ixtisası da tədris olunur. Bəstəkarlıq sinfini Qara Qarayev məktəbinin yetirməsi, əməkdar incəsənət xadimi, Azərbaycan Bəstəkarlar İttifaqının katibi, dosent Cəlal Abbasov aparır. Qeyd etmək lazımdır ki, ötən illər ərzində 10-dan çox tələbə AMK-nın bəstəkar məzunu olmuşdur. Məzunların 4 nəfəri – Əliyeva Zəminə, Nəsirov Kamran, Fətullayev Fərid və Məmmədli Tural Azərbaycan Bəstəkarlar İttifaqının üzvləridir və fəal şəkildə müstəqil yaradıcılıq yoluna qədəm qoymuşlar.



*Dirijorluq kafedrasının müəllimləri. Soldan sağa: Sərdar Fərəcov, Akif Quliyev, Məmmədağa Umudov, Ağaverdi Paşayev, Fəxrəddin Kərimov*

Bəstəkarlıq sənətinin qarşısında duran müasir tələbləri nəzərə alaraq tələbələrə "Orkestrləşdirmə", "Alətşünaslıq", "Partitura qiraəti", "Azərbaycan xalq musiqisinin nota yazılması və aranjimanı", "Xor yazısının əsasları" və bu kimi əsaslı baza fənlərilə yanaşı, "Müasir bəstəkarlıq texnologiyaları", «Səs rejissorluğunun əsasları", "Bəstəkarlığın müasir istiqamətləri", "Müasir musiqinin aranjimanı" kimi fənlər də tədris olunur.

"Dirijorluq" kafedrasında peşəkar, öz işinin ustası olan tanınmış musiqi xadimləri çalışırlar. Müəllim heyətinə professorlar, xalq artistləri Dadaş Dadaşov, Ağaverdi Paşayev, Vasif Allahverdiyev, Fəxrəddin Kərimov, əməkdar incəsənət xadimləri Məmmədağa Umudov və Nazim Mirişli daxildir.

Dosent vəzifəsində kafedra müdiri Leyla Zalıyeva, əməkdar incəsənət xadimləri Cəlal Abbasov, Sevil Hacıyeva, sənətşünaslıq üzrə fəlsəfə doktorları Təranə Yusifova, Səadət Verdiyeva, əməkdar artist Vüqar Camalzadə, İlahə Hüseynova çalışır.

Baş müəllimlər – Sevil Həsənova, Arif Məhərrəmov, Günel Həsənova, Gülay Mahmudova, müəllimlər isə xalq artisti Sərdar Fərəcov, Aysel Bağırova, Mahir İbrahimov, Sevinc Balabəyova, Rövşən Əsgərzadə və Rəmziyyə Bəhramlıdır.

Kafedrada konsertmeyster vəzifəsində Nərmin Həsənova, Balacaxanım Əliyeva, Arzu Bayramova, Cəmilə Musayeva, Vüsalə Hüseynova, Vüsalə Ələkbərova, Aysel Məmmədova, Zərrin Muradova, Gülşən Axundzadə çalışırlar.



*Soldan sağa I sırada: Cəmilə Musayeva, Təranə Yusifova, Sevil Hacıyeva, Sərdar Fərəcov, Leyla Zalıyeva (kafedra müdiri), Ağaverdi Paşayev, Vasif Allahverdiyev, Arif Məhərrəmov, Fəxrəddin Kərimov.*
*Arxa sırada: Aysel Bağırova, Səadət Verdiyeva, Gülay Mahmudova, Sevil Həsənova, Rəmziyyə Bəhramlı,Günel Qasımova, Günel Həsənova, Məmmədağa Umudov, Mahir İbrahimov, Mahirə Quliyeva, İlahə Hüseynova, Vüsalə Hüseynova, Arzu Bayramova, Vüsalə Ələkbərova, Zərrin Muradova, Balacaxanım Əliyeva, Nərmin Həsənova, Rövşən Əsgərzadə, Gülşən Axundzadə*

AMK-nın tədris prosesində və konsert həyatında "Dirijorluq" kafedrasının fəaliyyət dairəsi kifayət qədər genişdir. Onu da qeyd edək ki, bu kafedranın bir sıra fənləri "Musiqişünaslıq", "Xalq çalğı alətləri ifaçılığı" və "Musiqi müəllimliyi" ixtisaslarında təhsil alan tələbələrə də tədris olunur.

# DİRİJORLUQ KAFEDRASININ PEDAQOJİ HEYƏTİ



**Leyla Zalıyeva**
Dosent, kafedra müdiri



**Ağaverdi Paşayev**
Professor, xalq artisti



**Dadaş Dadaşov**
Professor, xalq artisti



**Fəxrəddin Kərimov**
Professor, xalq artisti



**Məmmədağa Umudov**
Əməkdar incəsənət xadimi



**Vasif Allahverdiyev**
Professor, xalq artisti



**Sərdar Fərəcov**
Azərbaycan Respublikasının xalq artisti



**Tərанə Yusifova**
Dosent, sənətşünaslıq üzrə fəlsəfə doktoru



**Nazim Mirişli**
Əməkdar incəsənət xadimi



**Arif Məhərrəmov**
Baş müəllim



**Cəlal Abbasov**
Dosent, əməkdar incəsənət xadimi



**Vüqar Camalzadə**
Dosent, əməkdar artist



**Sevil Hacıyeva**
Dosent, əməkdar incəsənət xadimi



**Səadət Verdiyeva**
Dosent, sənətşünaslıq üzrə fəlsəfə doktoru



**İlahə Hüseynova**
Dosent



**Günel Həsənova**
Baş müəllim



**Sevil Həsənova**
Baş müəllim



**Gülay Mahmudova**
Baş müəllim



**Aysel Bağırova**
Müəllim



**Mahir İbrahimov**
Müəllim



**Rəmziyyə Bəhramlı**
Müəllim



**Rövşən Əsgərzadə**
Müəllim

# Balaban

*Əzizim balabanı,*
*Asta çal balabanı.*
*Hamının balası gəldi,*
*Bəs mənim balam hanı...*

***Xalq bayatısı***

İnsanın daxili aləmini, onun həzin duyğularını - sevgisini, həsrətini, könül fəryadını balaban qədər məhrəm və mənalı ifadə edən ikinci musiqi aləti tapmaq çətindi. Onun səsindəki həzinlik, inilti insanın könül pıçıltıları, qəlb sızıltıları ilə eynidir. Balaban insan səsinə çox yaxın musiqi aləti kimi insanın daxili dünyasındakı səsi, ahəng çalarlarını daha dəqiq ifadə edir, bəşər övladına həm sirdaş olur, həm də son ucu ölümlü dünyanın dərdlərini daşımaga, onları ovundurmaga təkan verir. Balaban insanın bölüşdüyü, sirrini-sözünü pıçıltı ilə deyə bildiyi ilk əl çatan musiqi alətlərindəndir.



Yaşı 4-5 min il ölçülən balabanın adına müxtəlif tarixi mənbələrdə, arxeoloji qazıntılar zamanı əldə edilmiş nümunələrdə, "Kitabi Dədə Qorqud" dastanında, klassik Azərbaycan şairlərinin əsərlərində və musiqi nəzəriyyəsinə dair risalələrdə rast gəlmək mümkündür.

Bəzən "balaman" da adlandırılan bu alətin adının mənası bala" (kiçik) və "ban" (səs tembrinin xoruz banına bənzədilməsi) sözləri ilə bağlı olub, "kiçik ban" (ilk, erkən ban) deməkdir. Balabanın (in H) səs diapazonu (Gk-C2), çalğı üsulu xalq havaları, mahnı və rəqsləri, eləcə də muğamları ifa etmək üçün uyğundur. Təntənəli hadisələr, toy, bayram mərasimlərində balabançıları zərb alətləri də müşayiət edir. 2 balabançı və nağara çalandan ibarət ənənəvi kollektivdə balabandan biri züy tutur, o biri isə melodiyanı ifa edir. Balaban aşıq dəstəsinin də tərkibinə daxildir. Yumşaq tembrinə görə xalqın sevimlisi olan balaban alətinin ov zamanı quşları cəlb etmək üçün səsləndirilməsinə dair məlumatı Hüseynqulu Sarabskinin xatirələrində rast gəlirik. Balabanın möcüzəli tembrində ruhani duyğularla bərabər türkün qədimliyi, mübarizə əzmi, döyüşkən ruhu da duyulur.

# Tütək

*Bir körpə zəncirdir tütək, on dayəsi var, ağ, qəşəng, Doqquz gözüysə şux-şəng, yüz gözsə heyran onda, gör.*

***Xəqani Şirvani***

Tütək yaranma etibarilə ən qədim alətlərimizdən biri sayılır. Qarğıdan, yaxud ağacdan hazırlanan tütək sanki tənhalığın yol yoldaşı, saf duyğuların sirdaşıdır. Həzin səsi ilə insanı təbiətin qoynuna çağırır, düşüncələrin ahənginə kökləyir. Tütək alətinin xalqımızın estetik zövqünün formalaşmasında böyük rolu olub.



Kiçik boylu tütək aləti güclü səsi ilə insana böyük təsir gücünə malikdir. Deyilənə görə, zurnada ifa edən hər bir ifaçı tütəkdə də çalmağı bacararmış. Qədim tarixi olan tütək müasirliyə də uyğunlaşır və beynəlmiləl olduğunu sübut edir. Azərbaycanda tütəkdən əsasən, solo aləti kimi, orkestr və ansamblların tərkibində ifa edilərək yeni harmoniya, yeni gözəllik yaradır. Sənətkarlar arasında quş tütəyi, çoban tütəyi, böyük tütək, kiçik tütək, pikkolo tütək, gil tütək kimi deyimlərdən istifadə edilir. Bu deyimlərdən ən qədimi çoban tütəyidir.

Tütək - ürəyin səsi hesab olunur. O səbəbdən də bu aləti istənilən insan ifa edə bilmir. Çünki tütək ifaçısından ürək tələb edir. Tütəkdə ifa olunan musiqi inciləri, xüsusən də muğamlar insanı müqəddəs duyğulara kökləyir, dinləyicisinə Vətənə, torpağa sevgi, insana məhəbbət, mərhəmət hissləri aşılayır. Hər bir milli musiqi aləti kimi tütək də millətimizin genetik yaddaşında kodlaşmış alətdir










100
Tofiq Quliyev














Cahangir
Cahangirov




# AZƏRBAYCAN XALQ ÇALĞI ALƏTLƏRİ ORKESTRİ

1931-ci ildə dahi bəstəkar Ü.Hacıbəylinin təşəbbüsü ilə yaranmış ilk notlu xalq çalğı alətləri orkestri Azərbaycan milli alətlərinin uzun illər boyu keçdiyi təkamül prosesinin məntiqi zirvəsi oldu. Simfonik orkestrin nümunəsində yaranmış, tərkibi əsasən xalq çalğı alətlərindən ibarət olan 22 nəfərlik kollektiv Şərqdə notla çalan ilk orkestr kimi ölkənin mədəni həyatında böyük hadisə idi. Dirijoru Ü.Hacıbəyli, dirijor köməkçisi və konsertmeysteri S.Rüstəmov olan orkestr musiqi məktəbi tələbələrindən ibarət orkestrin həmin dövrdə tərkibini birinci və ikinci balabanlar, qaval, nağara, birinci və ikinci kamançalar, birinci və ikinci tarlar təşkil edirdi. Üzeyir bəy ilk dəfə olaraq fortepiano alətini orkestrə daxil edir. Yarandığı ilk illərdə repertuarını müxtəlif muğamlara əsaslanan əsərlər, Ü.Hacıbəyli, S.Rüstəmov və Q.Salahov tərəfindən işlənilən xalq mahnı və rəqsləri təşkil etsə də, tezliklə Qərbi Avropa bəstəkarlarının əsərlərinin işləmələri və orkestr üçün xüsusi olaraq yazılmış bəstəkar əsərləri milli alətlərdə ifaçılığın yeni mərhələyə keçirməklə yanaşı, bəstəkarlıq məktəbinin da inkişafına təkan oldu. S.Rüstəmovun orkestrləşdirdiyi “Yadıma düşdü” aşıq mahnısı və “Yaxan düymələ”, “Gəlmə-gəlmə”, “Sarı gəlin” xalq mahnıları, eyni zamanda “Rast”, “Şur”, “Mahur”, “Çahargah”, “Bayatı-Şiraz”, “Kürdü-Şahnaz” və s. muğam təsnif və rəngləri, eləcə də XÇA orkestri üçün məxsusi yazılmış, Ü.Hacıbəylinin “Çahargah” və “Şur” fantaziyaları, S.Rüstəmovun süitaları, “Bayatı-kürd” fantaziyası və “Şadlıq rəqsi” bu gün də orkestrin repertuarındadır. Kollektivin



*Üzeyir Hacıbəyli və Səid Rüstəmov ilk notlu xalq çalğı alətləri orkestri üzvləri arasında (1937)*



*İlk notlu Xalq çalğı alətləri orkestri*

qarşısında duran ən ümdə məsələ birsəsli musiqiyə alışmış tamaşaçını çoxsəsli musiqiyə və harmonik səslənmələrə alışdırmaq idi. S.Rüstəmovun 1935-ci ildə müəllimi Ü.Hacıbəylidən aldığı dirijorluq pultu arxasında keçirdiyi 40 il ərzində XÇA orkestri böyük təşəkkül yolu keçmişdir.

40 nəfərə qədər artmış tərkib ilə orkestr dəfələrlə qastrol səfərlərinə gedərək müvəffəqiyyətlə çıxışlar edib və repertuarı xarici ölkə bəstəkarlarının əsərləri ilə zənginləşdirə bildi. Orkestrin yayılmış şöhrəti və artan ifaçılıq imkanları 1938-ci ildə Moskvada keçirilən Azərbaycan incəsənəti ongünlüyündə S.Rüstəmovun XÇA orkestri üçün məxsusi orkestrləşdirdiyi Ü.Hacıbəylinin məşhur "Arşın mal alan" musiqili komediyasının uğuru ilə təsdiqləndi. Bu zaman yeni tembr çalarından (orkestrə saz və tütək də əlavə edilmişdi) heyrətlənən mətbuat tərif dolu rəy ilə çıxış etdi.

İkinci dünya müharibəsinin ağrı-qadalı illərində ictimaiyyətin diqqət mərkəzində olan bu orkestrin repertuarı dinləyicilərdə qələbəyə inam hissləri oyadan əsərlərlə zənginləşdi. Cəbhə, qəhrəmanlıq mövzusu, insanlarda vətənpərvərlik ruhu yaratmaq istəyi musiqi incəsənətinin başlıca mövzusuna çevrilmişdi. Həmin dövrdə Ü.Hacıbəylinin "Cəbhəyə", "İrəli", "Sərhədçilər mahnısı", "Şanlı ordumuz" əsərləri ilə yanaşı, qəhrəmanlıq mövzusunda hərbi musiqinin yeni forması – "Cəngi" yaranır. 1942-ci ildə "Cəngi" əsəri ilə orkestrin tərkibinə çox güclü və kəskin səslənməsi ilə fərqlənən zurna aləti, 1946-cı ildə "Sənsiz" və "Sevgili canan" (A.Rzayevanın köçürməsində) qəzəl-romansları ilə isə bəm registri təmin etmək məqsədilə klarnet aləti daxil edildi. Orkestrin yaradıcılıq inkişafı üçün onun 1949-cu ildə Moskvada xalq çalğı alətləri orkestrlərinin Ümumittifaq müsabiqəsində, həmin ilin oktyabr ayında Bakıda Azərbaycan bəstəkarlarının yaradıcılığına baxış günlərində və 1956-cı ildə Azərbaycan bəstəkarlarının I qurultayında çıxışı böyük rol oynadı. Bu illərdə repertuarı iri formalı əsərlər ilə zənginləşən

orkestrdə lirik mahnıların ifası da mühüm yer tuturdu.

Azərbaycan bəstəkarlarının yeni əsərlərinin yaranması ilə orkestrin tərkibinə onun ifa imkanlarını genişləndirən yeni alətlər daxil edildi. Fortepiano və xalq çalğı alətləri orkestri üçün "Konsert"in ifası ilə orkestrin tərkibinə üçüncü tar və ikinci sazlar əlavə edildi, beləliklə də mizrabla çalınan alətlər qrupu genişləndi. Orkestr üçün xüsusi yazılmış H.Xanməmmədovun "Simfoniyetta" əsəri ilə onun tərkibinə bas, soprano balabanları və pikkolo (kiçik) tütək daxil olundu. 1959-cu ildə S.Ələsgərovun "Rəqs-tokkato" əsəri ilə orkestrin tərkibində incə və gözəl səsi ilə fərqlənən mizrablı alət - qanun səslənməyə başladı. 1959-cu il Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyü ərəfəsində orkestrin tərkibinə zərb aləti qoşa nağara əlavə olundu və ayrıca sazlar qrupu yaradıldı.



*Azərbaycan xalq çalğı alətləri orkestri Səid Rüstəmovun rəhbərliyi altında (1971)*

Təkmilləşmə işləri sonrakı illərdə də davam etdirildi. 1965-ci ildə bəm registri təmin etmək məqsədilə mizrabla çalınan alətlər qrupuna özbək xalq çalğı alətləri orkestrində istifadə olunan bas dütar, nəfəsli alətlər qrupuna isə üçüncü və dördüncü balabanlar qrupu əlavə olundu. Beləliklə də orkestrin repertuarında dünya musiqisi klassiklərinin əsərlərindən köçürmələr böyük yer tutmağa başladı. S.Rüstəmovdan əlavə müxtəlif illərdə orkestrə Q.Salahov, S.Ələsgərov, H.Xanməmmədov və R.Əfəndiyev dirijorluq edərək orkestrin yüksək ifaçılıq məharətinə nail olmuşdular. 1974-cü ildən 2016-cı ilə kimi S.Rüstəmovun adını daşıyan XÇA orskestrinə Respublikanın Xalq artisti, professor Nəriman Əzimov rəhbərlik edib. N.Əzimovun təşəbbüsü ilə orkestrin tərkibinə qədim alətlərdən və Azərbaycanda vaxtilə geniş yayılmış ud, eksperiment məqsədilə isə qoboy, fleyta və kontrabas daxil edildi.



*S.Rüstəmov adına Xalq çalğı alətləri orkestri 85 illik yubiley tədbirindən sonra*

40 ilə yaxın zaman içində S.Rüstəmovun səyi nəticəsində təşəkkül tapmış XÇA orkestri dedikdə ilk növbədə, Respublika Dövlət Televiziya və Radio Verilişləri şirkətinin əməkdar kollektivi yada düşür. Hazırda respublikada xalq çalğı alətlərindən ibarət iki orkestr fəaliyyət göstərir. Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri 2000-ci ildə Azərbaycan Dövlət Filarmoniyasının nəzdində Ağaverdi Paşayevin rəhbərliyi altında yaradılaraq, həmin ilin 8 Mart Qadınlar Günü bayramı münasibəti ilə təşkil olunmuş konsertdə ulu öndər Heydər Əliyevin xeyir-duasını alıb. Yarandığı gündən orkestr, bir çox dövlət əhəmiyyətli tədbirlərdə çıxışlar edərək beynəlxalq festivallarda uğur qazanmışdır. 2004 və 2005-ci illərdə İran İslam Respublikasının Tehran şəhərində keçirilən ənənəvi XX «Fəcr» Beynəlxalq Musiqi Festivallarında 2 dəfə ən yüksək «Qızıl Çəngi» mükafatına layiq görülmüşdür. 2005-ci ildə ABŞ-ın səsyazma şirkəti tərəfindən orkestrin ifası kompakt diskə köçürülüb. Hal-hazırda bədii rəhbəri və baş dirijoru respublikanın xalq artisti, professor Ağaverdi Paşayev olan orkestr qaynar yaradıcılıq dövrünü yaşayır.



*Ağaverdi Paşayevin rəhbərliyi altında Azərbaycan Dövlət Xalq Çalğı alətləri orkestri*



*Bəstəkar Dadaş Dadaşovun əsərləri Azərbaycan Milli Konservatoriyasının tələbə orkestrinin ifasında. Dirijor və bədii rəhbər Aysel Bağırova. 01 iyun 2017-ci il.*



Nəsimi



















# “MUSİQİNİN TARİXİ VƏ NƏZƏRİYYƏSİ” KAFEDRASI

“Musiqinin tarixi və nəzəriyyəsi” kafedrası Azərbaycan Milli Konservatoriyası təsis olunduğu vaxtdan indiyə kimi səmərəli şəkildə fəaliyyət göstərməkdədir. Bu kafedrada dünya musiqi mədəniyyəti üzrə tarixi və nəzəri fənlər silsiləsi təcrübəli mütəxəssislər tərəfindən tədris olunur. Kafedranın professor-müəllim heyəti musiqinin müxtəlif məsələlərini tədqiq edir, bir sıra fənlərin daha ətraflı və səmərəli tədrisi məqsədilə dərslik, dərs vəsaitləri, proqramlar və metodiki tövsiyələrin hazırlanması və tədrisə tətbiqi istiqamətində mühüm nailiyyətlər əldə etmiş və konservatoriyanın keçdiyi şərəfli tarixi yola dəyərli səhifələr yazmağa səy göstərmişdir.

Yarandığı gündən Azərbaycan Milli Konservatoriyası milli muğam varisliyi məsələsində ustad-şagird ənənəsinə önəm verdiyi və bu işdə muğam ustadlarını tədris və təlimə cəlb etdiyi üçün nəzəriyyə kafedrası üçün muğamın tədrisi və araşdırılması ən önəmli məsələlərdən biri kimi diqqət mərkəzində saxlanılmaqdadır. Yeni tip, yəni həm dünya musiqi nəzəriyyəsinin metodoloji bazasına artıq yiyələnmiş və bu üsulları milli musiqiyə tətbiq edə bilən, xalq musiqi janrlarını təhlil etməyi bacaran, bununla bərabər muğam, aşıq musiqisi, folklor musiqisinin daxili qanunauyğunluqlarını bilən daha yüksək səviyyəli araşdırmaçılara ehtiyac duyulur. Qədim Şərq elminin məziyyətlərini müasir durumda tətbiq edərək milli musiqi nəzəriyyəsi tarixini bərpa edə bilmək, Üzeyir bəydən üzü bəri formalaşan milli musiqi musiqişünaslığımızın nailiyyətlərini davam etdirməklə sanki Şərq və Qərb elmi arasında real körpü yarada bilmək kafedranın qarşısında duran əsas məsələlərdən biridir. Bunun üçün həm tarixi musiqişünaslıq ənənələri mənimsənilməli, milli musiqi alətlərinin tarixi tədqiq edilməli və ən əsası qazanılmış bütün bu biliklər tələbələrə dünya standartlarına uyğun dərs vəsaitləri, proqramlar və elektron vasitələrlə çatdırılmalıdır.

Musiqinin tarixi və nəzəriyyəsi sahəsində fənlərin tədrisi musiqişünas, bəstəkar, dirijor və xalq musiqi ifaçılığı üzrə yüksək ixtisaslı kadrların hazırlanmasına böyük zəmin yaradır. Dünya xalqlarına və müxtəlif tarixi dövrlərə məxsus musiqi mədəniyyətinin müasir zamana kimi keçdiyi böyük inkişaf yolunu, musiqi nəzəriyyəsinin harmoniya, polifoniya, forma təlimləri və s. sahələrini tədris etmək üçün müəllim və professor heyəti səylə çalışır. Tədris prosesində dünya, Avropa və Azərbaycan musiqi mədəniyyətinin mürəkkəb və maraqlı dövrləri, opera, balet, simfoniya, kamera-instrumental, xor, vokal və fortepiano yaradıcılığı və onların müasir vəziyyəti ətraflı şəkildə tədris olunur.

2002-2003-cü tədris ilindən bu günə kimi “Musiqinin tarixi və nəzəriyyəsi” kafedrasına əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Akif Quliyev rəhbərlik edir. 2017-ci ildən bu kafedraya “Milli musiqinin tarixi və nəzəriyyəsi“ kafedrası da birləşdirilmişdir.

“Milli musiqinin tarixi və nəzəriyyəsi” kafedrası Azərbaycan Milli Konservatoriyasının

təsis olunduğu vaxtdan 2017-ci ilə kimi müstəqil şəkildə fəaliyyət göstərib. Musiqi mədəniyyəti haqqında elmi fikir musiqi həyatının ayrılmaz tərkib hissəsi olduğu kimi bu kafedra da konservatoriyada milli musiqinin müxtəlif məsələlərini tədris və tədqiq edən bir qurum kimi vəzifələr daşımışdır. 2004-2017-ci illər ərzində bu kafedraya əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Fəttah Xalıqzadə rəhbərlik etmişdir. Burada müəyyən olunmuş vəzifələr 2017-ci ildə iki musiqişünaslıq kafedrasının birləşməsindən sonra da səylə davam etdirilməkdədir.



*"Milli musiqinin tarixi və nəzəriyyəsi" kafedrasının müəllimləri*
*Soldan sağa: Sevda Mütəllimova, Jalə Qulamova, Faiq Nağıyev, Xanım Əliyeva, Gülxanım Əsədzadə, Fəttah Xalıqzadə (kafedra müdiri). Abbasqulu Nəcəfzadə, Fəxrəddin Baxşəliyev*

Azərbaycan Milli Konservatoriyasında milli musiqinin müxtəlif sahələri ümumdünya kontekstində öyrənilir. Bu məqsədlə klassik və müasir Avropa musiqi mədəniyyətində baş verən dinamik inkişafın nəbzini tutmaq və bu sahədə yaranan yeni təmayül və texniki üslubları tələbələrə aşılamaq, onları çağdaş musiqinin daima yenilənən vəziyyəti ilə tanış etmək kafedranın qarşısında duran ən vacib vəzifələrdən biridir.

Ötən dövr ərzində xalq mahnı və rəqs yaradıcılığı, dini mərasim musiqisi, aşıq havaları, klassik muğam sənəti, onların tarixi, nəzəriyyəsi, fəlsəfi-estetik məsələləri də kafedra üzvlərinin qarşısında duran başlıca məqsəd olmuş və bütün bu istiqamətlərdə də dəyərli nailiyyətlər əldə edilmişdir. Sözsüz ki, bu və ya başqa məsələlərdən hər biri müvafiq mütəxəssislər qrupunun işbirliyini tələb edir və irəliyə atılmış addımların nə qədər çətin və şərəfli olduğunu göstərir.



*Soldan sağa:Tutuxanım Quluzadə, Cəmilə Mirzəyeva, Akif Quliyev, Zəminə Abdullayeva , Hicran Hacızadə, Nərminə Abdullayeva, Aynurə Abuşova, Telman Qəniyev.*

Kafedranın qarşısında duran vəzifələr nə qədər böyük olsa da, musiqi elmimizin tarixi və müasir mərhələsi arasında varislik əlaqələrinin qorunması strateji inkişaf xəttinin başlıca prinsipini təşkil edir. Bu mənada yaşı qərinələrlə ölçülən qədim musiqi tarixi, orta əsr müəlliflərindən Səfiəddin Urməvi, Əbdülqadir Marağai, Fətullah Şirvanini, Mir Möhsün Nəvvab və başqalarının elmi-nəzəri risalələri dəyərli tədqiqat obyektləri təşkil etməlidir. Müasir musiqişünaslığımızın banisi Üzeyir Hacıbəylinin qiymətli və bədii yaradıcılığı irsi şübhəsiz ki, ən mühüm mövzular sırasındadır. Dahi bəstəkar və musiqişünas alimin etnomusiqişünaslıq araşdırmalarına müraciət edilməsi (Fəttah Xalıqzadə) Azərbaycan Milli Konservatoriyasının elmi-pedaqoji fəaliyyətini müsbət səciyyələndirir.



*Əyləşənlər soldan sağa: Telman Qəniyev, Fəttah Xalıqzadə, Hicran Hacızadə, Akif Quliyev, Lalə Hüseynova, İradə Hüseynova, Səidə Köçərli, Abbasqulu Nəcəfzadə*
*Arxa sırada: Cahangir Səlimxanov, Fəxrəddin Baxşəliyev, Jalə Qulamova, Aynurə Abuşova, Xanım Əliyeva, Günay Quliyeva, Vəfa Xanbəyova, Türkən Musayeva, Nərminə Abdullayeva, Sevda Mütəllimova, Zülfiyyə Hüseynova, Leyla Quliyeva, Cəmilə Mirzəyeva, Rövşanə Kərimova*

Kafedrada mütəxəssisləri milli musiqişünaslıq elminin nisbətən yeni nəslini təmsil edir. Sənətşünaslıq üzrə elmlər doktoru, professorlar Abbasqulu Nəcəfzadə və Ülkər Əliyeva, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Lalə Hüseynova, əməkdar incəsənət xadimləri, professorlar Akif Quliyev, Faiq Nağıyev və Fəttah Xalıqzadə, sənətşünaslıq üzrə fəlsəfə doktorları, dosentlər Leyla Quliyeva, Cəmilə Mirzəyeva, Rövşanə Kərimova, Telman Qəniyev, Vəfa Xanbəyova, Fəxrəddin Baxşəliyev, Jalə Qulamova, sənətşünaslıq üzrə fəlsəfə doktorları Xanım Əliyeva, İradə Hüseynova, Sevda Mütəllimova, əməkdar incəsənət xadimi Cahangir Səlimxanov, baş müəllim Hicran Hacızadə, Nərminə Abdullayeva, Aynurə Abuşova, Zülfiyyə Hüseynova, müəllimlər Səidə Köçərli, Günay Quliyeva, Şanə Məmmədova, Türkən Musayeva kafedranın inkişafında səylə çalışmışlar. Onların əksəriyyəti alimlik adlarına və ya dərəcələrinə məhz burada işlədikləri müddət ərzində layiq görülüblər.



*Kafedranın müəllimi sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Lalə Hüseynovanın dərs prosesi*

Azərbaycan Milli Konservatoriyasının yubileyi ilində vaxtilə kafedranın təşəkkül və təkamül yoluna öz töhfələrini vermiş görkəmli elm xadimlərinin əməyini də yüksək qiymətləndiririk. Sənətşünaslıq elmləri doktorları mərhum professorlar Ramiz Zöhrabov, Səadət Abdullayeva, Məcnun Kərim, eləcə də əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı, əməkdar incəsənət xadimi, professor Gülnaz Abdullazadə, AMEA-nın müxbir üzvü, professor Rəna Məmmədova, sənətşünaslıq elmləri doktorları və professorlar Ceyran Mahmudova, Sevil Fərhadova və Cəmilə Həsənova, əməkdar incəsənət xadimi, professor Arif Əsədullayev, sənətşünaslıq üzrə fəlsəfə doktoru Tutuxanım Quluzadə və Əfsanə Babayeva, dosent Ariz Abduləliyev, kulturologiya üzrə fəlsəfə doktoru Rəna Hüseynova və başqalarının da layiqli elmi-pedaqoji əməyini minnətdarlıqla qeyd etmək lazımdır.

Kafedranın təcrübəli mütəxəssisləri musiqişünaslıq ixtisası üzrə təhsil alan tələbələrin diqqətini daima musiqi-folkloru ekspedisiyalarına cəlb etmiş və bu sahədə meydana gəlmiş təqdirəlayiq ənənələr yenə də səylə davam etdirilməkdədir. Buraxılış işləri və magistr dissertasiyalarının yerinə yetirilməsində sözsüz ki, sahə araşdırmalarının əvəzsiz rolu vardır. Həmin işlərin əhatə etdiyi folklor coğrafiyası kifayət qədər genişdir - Lənkəran, Masallı, Lerik, Salyan, Şamaxı, İsmayıllı, Şabran, Qəbələ, Şəki, Qax, Zaqatala, Qarabağ (Füzuli. Cəbrayıl, Tərtər), Naxçıvan, tarixi İrəvan və s. Belə tədbirlərin nəticəsində etnomusiqişünaslıq metodlarının yaradıcılıqla tətbiqinə yaxşı şərait yaranmışdır. Müasir dünya təcrübəsinin öyrədilməsi və təbliği baxımından etnomusiqişünaslıq ixtisası üzrə yeni fənlər indiyə qədər tədris olunmaqdadır.



*Sənətşünaslıq üzrə elmlər doktoru, professor Abbasqulu Nəcəfzadənin dərs prosesi*

Etnomusiqişünaslığın bir tərkib hissəsi olan etnoorqanologiyanın inkişafı üçün də Azərbaycan Milli Konservatoriyasında əlverişli şərait yaradılmışdır. Qədim milli musiqi alətlərinin bərpası və təkmilləşdirilməsi laboratoriyası, eləcə də ifaçılıq qüvvələrinin bu Ali məktəbdə cəmləşməsi, şübhəsiz ki, elmi təfəkkürün, pedaqoji təcrübənin, dərs vəsaitlərinin inkişafına da təkan verir. Bu mənada kollektiv əməyin (S.Ə.Kərimi, A.N.Quliyev, M.F.Əliyev) məhsulu olan “Saz məktəbi” dərsliyi bu sahədə yazılan ilk fundamental tədris vəsaiti kimi olduqca dəyərli və qiymətlidir. Həmçinin etnoorqonoloji sahədə sənətşünaslıq üzrə elmlər doktoru, professor Abbasqulu Nəcəfzadənin məhsuldar elmi fəaliyyəti də ayrıca qeyd edilməlidi.

AMK-nın bakalavr və magisrt pillələri üzrə “Azərbaycan musiqi tarixi”, “Xarici musiqi tarixi”, “Müasir musiqi”, “Azərbaycan xalq musiqisinin əsasları”, “Azərbaycan xalq musiqisinin nota yazılması”, “Türk xalqlarının musiqisi”, “Şərq xalqlarının şifahi ənənəli professional musiqisi”, “Muğam sənəti”, “Aşıq sənəti tarixi və nəzəriyyəsi”, “Orta əsr musiqi alətləri”, “Musiqi nəzəriyyəsi”, “Solfecio”, “Harmoniya”, “Polifoniya”, “Musiqi əsərlərinin təhlili”, “Musiqi tənqidi”, “Tarixi musiqişünaslıq”, “Nəzəri musiqişünaslıq”, “Orkestr üslub tarixi”, “İxtisas fənnin tədris metodikası”, “Xüsusi pedaqoji hazırlıq”, “Musiqili teatr dramaturgiyası” fənləri, magistr

pilləsində isə “XX əsr musiqi tarixi və nəzəriyyəsi”, “Musiqişünaslığın tarixi və metodologiyası”, “Muğamın notlaşdırma metodikası”, “Xalq musiqisinin notlaşdırma metodikası”, “Sahə araşdırma metodikası”, “Musiqi janr və üslub nəzəriyyəsi”, “Musiqi nəzəri sistemləri”, “Musiqi folklor nəzəriyyəsi”, “Etnomusiqişünaslığın əsasları”, “Etnoorqonologiya”, “Musiqinin müasir problemləri”, “Musiqi tənqidinin aktual problemləri”, “Milli musiqinin aktual problemləri”, “Din və musiqi”, “Türk xalqlarının mifologiyası”, “Musiqi kulturologiyası”, “Mənbəşünaslıq”, “Tədqiqat üsulları (Elmi tədqiqat metodologiyası), “Xalq musiqi nümunələrinin təhlili”, “Musiqi akustikası”, “Art-menecment” fənləri tədris edilir.



*Kafedranın baş müəllimi Nərminə Abdullayevanın dərs prosesi*

AMK-nın digər qurumları kimi, kafedranın üzvləri də beynəlxalq elmi konfrans və simpoziumlarda mütəmadi şəkildə çıxış edir, dünya ölkələrində qazanılan elm və sənət nailiyyətlərinin tələbələr arasında yayılmasına öz töhfələrini verirlər. Əməkdaşlarımız Rusiya, Qazaxıstan, Özbəkistan, Türkiyə, Çin Xalq Respublikası, Hindistan, Tailand, Macarıstan, İngiltərə kimi ölkələrdə keçirilmiş beynəlxalq elmi konfranslarda mütəmadi olaraq iştirak edirlər.

Kafedranın professor-müəllim heyəti bütün milli musiqi irsimizin hərtərəfli tədqiqi və tədrisi ilə məşğul olaraq konservatoriyanın keçdiyi şərəfli tarixi yola dəyərli səhifələr yazmağa səy göstərib. AMK-da ifaçılıq və musiqişünaslıq kafedralarının cəmləşməsi onların sıx əməkdaşlığı, musiqi sənətinin təcrübəsi ilə nəzəriyyəsinin vəhdətdə öyrənilməsi üçün bir zəmin yaradır. Nəzəriyyəçilərin də muğam ifaçılığı praktikasına yiyələnməsi məsələsi AMK-nın diqqətində saxladığı vacib məsələlərdən biridir. Milli alətlərdə çalmağı bacaran, xarici dillərə kamil şəkildə yiyələnmiş, dünya musiqi tarixini, elmi-tədqiqat metodologiyasını mənimsəmiş yeni nəsil tədqiqatçıları yetişdirməklə AMK həm Azərbaycan, həm də dünya elminə layiqli xidmət göstərmiş olacaq.



Sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Fıttah Xalıqzadənin sinfində dərs



Doktoranturaya qəbul imtahanı

# MUSİQİNİN TARİXİ VƏ NƏZƏRİYYƏSİ KAFEDRASININ PEDAQOJİ HEYƏTİ:



**Akif Quliyev**
Kafedra müdiri, əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor



**Fəttah Xalıqzadə**
Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor



**Lalə Hüseynova**
AMK-nın elmi işlər üzrə prorektoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor



**Abbasqulu Nəcəfzadə**
Sənətşünaslıq üzrə elmlər doktoru, professor



**Ülkər Əliyeva**
Sənətşünaslıq üzrə elmlər doktoru, professor



**Faiq Nağıyev**
Əməkdar incəsənət xadimi, professor



**Leyla Quliyeva**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent



**Cəmilə Mirzəyeva**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent



**Rövşanə Kərimova**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent



**Telman Qəniyev**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent



**Vəfa Xanbəyova**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent



**Fəxrəddin Baxşəliyev**
Filologiya üzrə fəlsəfə doktoru, dosent



**Jalə Qulamova**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent



**Xanım Əliyeva**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru



**İradə Hüseynova**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru



**Sevda Mütəllimova**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru



**Cahangir Səlimxanov**
Əməkdar incəsənət xadimi



**Hicran Hacızadə**
Baş müəllim



**Mehriban Zəki**
Dosent, xalq artisti



**Hafız Quliyev**
Dosent, əməkdar incəsənət xadimi



**Saləddin Kərimov**
Müəllim



**Pərvanə Namazova**
Müəllim



**Nərminə Abdullayeva**
Baş müəllim



**Aynurə Abuşova**
Baş müəllim



**Zülfiyyə Hüseynova**
Baş müəllim



**Səidə Köçərli**
Müəllim



**Günay Quliyeva**
Müəllim



**Şanə Məmmədova**
Müəllim
















# Qanun

*Bir gün gecə məclisimiz vardı ki, ondan*
*Çox-çox uzağa qalmış idi dərd, qəm, hicran.*
*Xam nağmələrlə edərək aləmi məmnun,*
*Bir huri-mələk çalırdı iri bir qanun.*

*Məhəmməd Füzuli*



Qanun aləti hər zaman alicənab görünüşü, zərif səsi ilə istənilən musiqini daha da rəngli və maraqlı edir. Bu alət ta qədimlərdən insanların ürəklərinə yol tapmağı bacarıb. Qanun – yatıq sazlar ailəsinə mənsub olan, dartımlı-simli musiqi alətidir. Bir çox şərq xalqları kimi Azərbaycan musiqiçiləri də bu alətdən geniş istifadə ediblər və günümüzdə də istər musiqiçilərin, istərsə digər sənət sahiblərinin qanuna xüsusi sevgisi var.

Yaxın və Orta Şərqdə geniş yayılmış qanunu klassik ədəbiyyatda dönə-dönə məhəbbətlə vəsf ediblər. Üzeyir Hacıbəyli qanunun şanlı keçmişini qeyd edərək yazırdı ki, bu gün hər musiqiçi üçün piano çalmaq nə qədər vacibdirsə , qədim dövrdə Şərq musiqiçiləri üçün qanun çalmaq o qədər önəmli məsələ idi.

Qanun alətinin ölkəmizdə daha çox zərif cinsin nümayəndələri ifa edir. Bu alət görünüşcə böyük və ağır olsa da, səsindəki həzinlik, incəlik və zərifliklə hər zaman qadınların maraq dairəsində olub. Orta əsrlərdə qanunu həm kişilər, həm də qadınlar ifa edərdi. Amma alətin son dövrlərdə inkişafı məhz qadın əməyinin nəticəsidir. Digər Şərq ölkələrində isə alətin əsas ifaçıları kişilərdir.

Qanun alətinin diapazonu (Gb-Cis3), kökü (in D) və çalğı tərzi istənilən – milli və xarici, həzin və ya şən musiqilərin hər birini ifa etməyə imkan yaradır. Solo ifaçılıqdan əlavə incə və məlahətli səsə malik olan bu alət Azərbaycan xalq çalğı alətləri ansamblının və orkestrin tərkibində səslənməni tembr cəhətdən rövnəqləndirir.

# Çəng

*Çəng alıb əlinə o dilbər pəri,*
*Söylədi çəkdiyi əziyyətləri.*
*Yayıldı çəng səsi, düşdü hər yanə,*
*Nalə aşiqləri etdi divanə.*

*Nizami Gəncəvi "Yeddi gözəl*



Ən erkən növləri İkiçayarası və Misir sivilizasiyalarına aid edilən və saray məclislərinin gözü olan zərif və incə səsli çəng böyük Azərbaycan klassiklərinin və Orta əsr nəzəriyyəçilərinin əsərlərində vəsf edilmişdir. Eramızdan çox-çox əvvəllərə aid edilən çəng musiqi aləti XVI əsrin II yarısına kimi Azərbaycanda istifadə edilib. Şərq əfsanələrində bu alətin ilahi qüvvə tərəfindən yaradıldığı deyilir. Hətta onu "Müqəddəs mələk" də adlandırırdılar. Təəssüflər olsun ki, Azərbaycanda cəng XIX əsrdə təcrübədən çıxaraq unudulur. Yalnız 1975-ci ildə orqanoloq Məcnun Kərim çəng alətini bərpa edir. 2012-ci ildə isə AMK-nın laboratoriya müdiri Məmmədəli Məmmədov alətin diapazonunun artırıb təkmilləşdirərək çəng alətinə ikinci həyat verir və ifaçılıq praktikasına qaytara bilir.

Hazırda 44 simə qədər artırılmış çəngin diapazonu (Db-A2), həm diatonik, həm xromatik köklənməsi və çalğı imkanı həm solo, həm də ansambl tərkibində xalq musiqisi nümunələri ilə bərabər dünya musiqisindən seçmə əsərləri də ifa etməyə imkan verir. Azərbaycanda çəngi yalnız qadınlar ifa edir.

# Nağara

*Coşdu qurd gönündən olan nağara,*
*Dünyanın beynini gətirdi zara.*

*Nizami Gəncəvi*



Nağara Azərbaycan xalqının ən çox yayılmış, xalq tərəfindən çox sevilən musiqi alətidir. Əsrlər boyu onun sədaları toy, xalq bayramları, müharibə, hətta matəm mərasimlərində eşidilib. Səsi güclü olduğuna görə, adətən açıq havada çalınan nağara ansamblda ifaçıların sayından və çıxış edilən yerin qapalı və açıq olmasından asılı olaraq əllə və ya çubuqla çalına bilər. Nağaranı aşıqlar, balabançılar, xalq çalğı alətləri ansambllarının tərkibində və orkestrlərdə əllə, damburçu, zurnaçı və tulumçular ansambllarında isə çubuqla çalırlar.
Hal-hazırda xalq melodiyalarının müşayiəti üçün nağaranın müxtəlif növlərindən – koos (böyük nağara), bala nağara ya da cürə nağara və kiçik nağaradan istifadə edilir. Böyük nağaraya ana kos, kiçik nağaraya isə bala kos deyilir. Kos haqqında olan rəvayətlərdə deyilir ki, kos o qədər böyük həcmli musiqi aləti idi ki, onu iki cüt öküzün çəkib apardığı xüsusi arabada yerləşdirir və iki nəfər təbilçi iri çomaqlarla vuraraq səsləndirirdilər. Kosun səsi o qədər güclü idi ki, vuruş meydanında çalındığı zaman düşmən lərzəyə gəlirdi.
Ana kos bəzi regionlarda "toy nağarası" da adlandırılır. Böyük nağara heç vaxt tək səslənməz. Əksər hallarda cürə nağara ilə birlikdə ifa olunur. Böyük ölçülü kos nağaralar unudulsa da, onların bir qədər kiçildilmiş forması hazırda zurnaçılar dəstəsində istifadə edilir. Əsasən, zurnaçılar dəstəsini müşayiət edən bu alətin musiqi folklorunda özünəməxsus rolu və funksiyası var.
Çox güclü səs dinamikasına malik olan nağarada müxtəlif tembr çalarlarını almaq mümkündür. Xalq oyunu tamaşalarında, eləcə də "Cəngi", "Yallı" kimi rəqslərdə qoltuq nağaradan istifadə olunur.

# Qoşa Nağara



Qoşa nağara xalq musiqisində ən çox istifadə olunan zərb alətlərindən biridir. Adından məlum olduğu kimi, bir-birinə bərkidilmiş iki kiçik qədəhvari nağaradan ibarətdir. Xarici görünüşünə görə fincanı xatırladan bu alətə bəzən "qoşa dumbul" da deyilir. Dumbul, dümbələk adları ilə də tanınan qoşa nağara eyni hündürlüklü, ancaq müxtəlif ölçülü iki gövdədən (böyük və kiçik göz, qazan, nağara, çanaq) ibarətdir. Təmiz və güclü səslər almaq üçün qoşanağaranın üzü çalğıdan əvvəl od üzərində azacıq qızdırılır. Bu alət "Zorxana oyunu", "Mil oyunu", "Sino oyunu" kimi xalq oyun və tamaşalarının göstərilməsi zamanı geniş istifadə olunur. O, zurna-balaban, qaval və qoşa nağaradan ibarət instrumental ansamblın tərkibində daha çox sevilir.
Hazırda müasir xalq çalğı alətləri ansambllarında və orkestrlərin tərkibində əsasən kiçik həcmli qoşa nağaranın səsi gəlir. Özünəməxsus səs tembri olan qoşa nağaradan solo alət kimi nadir hallarda istifadə olunur.



# "ÜMUMİ FORTEPİANO" KAFEDRASI

Azərbaycan Milli Konservaroriyasının qarşısında duran ən vacib məsələlərdən biri – təhsilin bütün mərhələlərində tələbənin hərtərəfli inkişafını təmin etməkdir. Öz ixtisasına yiyələnməklə yanaşı bədii dünyagörüşünü, erudisiyanı inkişaf etdirmək və genişləndirmək işində fortepiano alətinin rolu danılmazdır. Universal olduğu üçün fortepiano alətində hər bir musiqiçi ifa etməyi bacarmalıdır. Eyni zamanda bu alət dünya musiqi klassikasının orijinal və çoxsaylı nümunələrilə tanış olmaq üçün gözəl bir vasitədir.

Azərbaycanda müasir musiqi təhsilinin təməlini qoyan Üzeyir Hacıbəyli musiqi mədəniyyətinin inkişafında həmişə zəngin xalq musiqisindən bəhrələnməklə yanaşı, dünya musiqi ənənələrindən faydalanmağı tövsiyə edirdi. Bu məqsədlə respublikamızın ilk ali musiqi məktəbi olan Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında (indiki Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası) XX əsrin 50-ci illərində "Ümumi fortepiano" kafedrası yaradılmışdı. Uzun illər ərzində təcrübəli müəllimlərin səyi ilə kafedrada tədris-pedaqoji və metodik işin istiqamətləndirilməsi, tələbələr üçün tədris metodik repertuar və vəsaitlərin hazırlanması üzrə müəyyən işlər aparılırdı.

Bu sahədə qoyulan ənənələr Azərbaycan Milli Konservatoriyasının "Ümumi fortepiano" kafedrasının fəaliyyətində də öz davamını tapmışdır. 2002-ci ildən etibarən bu kafedra doqquz nəfərdən ibarət müəllim heyəti ilə (kafedranın müdiri, sənətşünaslıq namizədi, dosent Gülsabah Rəhimova və müəllimlər – sənətşünaslıq namizədləri Ülkər Əliyeva və Şəmsi Gülməmmədova, müəllimlər: Rəna Bağırova, İradə Kərimova, Firuz Abdinzadə, Arzu Səfərova, Aida Həsənova, Sevda Məmmədova) fəaliyyətə başladı. İllər keçdikcə kafedra müəllimlərinin tərkibi artaraq 2020-ci ildə 24 nəfərə çatdı. Bu illər ərzində Kamalə Şəfiyeva, Zöhrə Zalova, Arzu Dəryahi, Gülcənnət Baxşıyeva, Naibə Şahməmmədova, Mehriban Kərimova, Mahirə Quliyeva, Svetlana Əhmədova, Vəfa Əliyeva, Afət Mustafayeva, Lamiyə Həbibullayeva, Aynurə Məmmədova, Gülnar Axundova, Təranə Məmmədova, Rəna İmanova, Tamilla Əsədova, Rübabə Məmmədova kafedranın müəllim heyətinə daxil oldular.

Fəaliyyətə başlayan gündən kafedranın əsas istiqamətləri "Ümumi fortepiano" fənni üzrə təşkil edilən dərslərin müasir dövrün tələblərinə uyğun olaraq təşkili və təkmilləşdirilməsi, onların keyfiyyət baxımından daha da yüksəldilməsi, elmi və konsert yaradıcılıq işlərinin təşkili idi. Bu illər ərzində kafedranın müəllimləri dərslərin metodiki cəhətdən düzgün təşkil edib yaradıcı şəraitdə tələbələrin hazırlıq səviyyəsini müəyyənləşdirmək, onların potensial imkanını aşkarlayıb yüksək ixtisaslı peşəkar musiqiçi yetişməsi üçün əzmlə çalışırlar.

Azərbaycan Milli Konservatoriyasının yarandığı ilk illərdə “Ümumi fortepiano” fənni xalq çalğı alətləri, solo oxuma (xanəndə), musiqişünaslıq, dirijorluq və bəstəkarlıq ixtisasları üzrə təhsil alan tələbələr üçün keçilirdi. Tələbələrin təhsil aldığı ixtisas və onların hazırlıq səviyyələri nəzərə alınaraq “Ümumi fortepiano” fənni üzrə bakalavr pilləsi üçün 2003-cü ildə ilk proqram hazırlandı. Sonrakı dövrdə ixtisasların artması və respublikada Bolonya sisteminin tətbiqi ilə əlaqədar bəzi proqramlar təkmilləşdirilir, digərləri isə yenidən işlənir. “Milli vokal”, “Estrada sənəti ”ixtisasları üzrə təhsil alan tələbələr üçün “Ümumi fortepiano” fənni üzrə proqramlar, “Musiqi müəllimliyi” ixtisası üzrə təhsil alan tələbələr üçün isə “Əsas musiqi aləti və onun tədrisi metodikası” (fortepiano), “Əlavə musiqi aləti” (fortepiano), “Konsertmeyster sinfi və ansambl” (fortepiano) fənləri üçün proqramlar zamanın tələbi altında dəfələrlə yenidən işlənərək müasir duruma uyğunlaşdırılıb. Kafedranın müəllimləri fənn proqramlarının müasir dövrün tələblərinə uyğun olması üçün onların üzərində daim çalışırlar.

Bu illər ərzində yüzlərlə tələbə müxtəlif dövr və janrları əhatə edən Azərbaycan və xarici bəstəkarların əsərlərini ifa etməklə öz dünyagörüşlərini artıraraq musiqi ədəbiyyatı nümunələri ilə yaxından tanış olublar. Tədris prosesi ilə bərabər elmi və konsert yaradıcılıq fəaliyyəti də daim kafedra müəllimlərinin diqqət mərkəzində olub.




*Əyləşənlər soldan sağa: Naibə Şahməmmədova, Arzu Səfərova. Ayaq üstə: Xatirə Ələkbərova, Samirə Əbdülhəmidova, Svetlana Əhmədova, Mahirə Quliyeva, Təranə Məmmədova, Rəna İmanova, Gülnar Axundova, Lamiyə Həbibullayeva, Aida Həsənova, Mehriban Kərimova, Rəna Bağırova, Firuz Abdinzadə, Aygün Muradova, Aynurə Məmmədova, Arzu Dəryahi, Afət Mustafayeva, Tamilla Əsədova, Rübabə Məmmədova, Kəmalə Şəfiyeva*

2000-ci illərdən başlayaraq bu günə qədər kafedranın müəllimləri respublika və xaricdə keçirilən müxtəlif tədbirlərdə fəal iştirak edirlər. Yubiley tarixləri ilə əlaqədar tədbirlər, yaxud tematik konfrans və konsert çıxışları müəllimləri daim öz üzərində işləməyə sövq edir. Kafedra müəllimlərinin beynəlxalq elmi-prakrik konfranslarda, müsabiqələrdə iştirakı mütəmadi xarakter daşıyır və kafedranın elmi və ifaçılıq səviyyəsinin göstəricisi kimi mühüm əhəmiyyət kəsb edir. Əlamətdardır ki, bu illər ərzində kafedranın müəllimlərindən Ülkər Əliyeva sənətşünaslıq üzrə elmlər doktoru, Kamalə Şəfiyeva, Aida Həsənova, Gülcənnət Baxşıyeva, Naibə Şahməmmədova, Zöhrə Zalova isə fəlsəfə doktoru dissertasiyalarını müdafiə edərək sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcələrinə layiq görülmüşlər.

“Ümumi fortepiano” fənninin tədrisinə, müxtəlif janrların ifasına dair aktual problemlər və onların həlli yollarını əks edən digər mövzularda kafedra müəllimləri tərəfindən yazılmış 100-ə yaxın elmi məqalə xarici və respublika elmi jurnallarında dərc edilmişdir. Bundan əlavə kafedra müəllimləri yeni dərs və metodik vəsaitlər üzərində çalışırlar.

Kafedranın müəllimlərindən A.Səfərova, S.Əhmədova, N.Şahməmmədova, M.Quliyeva, M.Kərimova respublikada və xaricdə, o cümlədən ABŞ, Fransa, Türkiyə, Rusiya, Gürcüstan, Qazaxstan, Cənubi Koreyada solist və konsertmeyster kimi dəfələrlə çıxış edib və yüksək ifaçılıq səviyyəsi nümayiş etdirərək müxtəlif təltiflərə layiq görülmüşlər.

Azərbaycan Milli Konservatoriyasında "Ümumi fortepiano" kafedrası tələbələrinin çıxışlarından təşkil olunmuş konsert proqramları yaxşı və möhkəm bir ənənə halını alıb. Yarandığı ilk günlərdən bəri kafedra mütəmadi olaraq tələbə konsertləri ilə gündəmə gəlir. AMK-nın yeni və gözəl şəraitli inzibati tədris binası istifadəyə veriləndən sonra tədbirlərin sayı daha da artıb. Artıq son illər AMK-nın Böyük zalında və "Bakı" kamera zalında hər tədris ili müddətində bir neçə dəfə kafedranın ümumi və hər bir müəllimin ayrılıqda sinif konsertləri təşkil olunur. Rektorluq tərəfindən müsbət qarşılanan bu konsertlərdə tələbələr öz istedad və bacarıqlarını həvəslə nümayiş etdirirlər.

Kafedrada açıq dərslərin keçirilməsi də təcrübə bölüşmək işində yüksək nəticə göstərməyə imkan verir. Kafedranın təcrübəli müəllimləri illər boyu topladığı praktik bilik, proqram seçimi və dərsin təşkilində qazanılmış üslub və metodikanı bölüşərək cavan müəllimlərin düzgün istiqamətdə çalışmasına böyük kömək edirlər. Açıq dərslərin müzakirəsi zamanı "Ümumi fortepiano" fənninin tədrisi zamanı qarşıya çıxan problem və məsələlər öz həllini tapır.

2017-ci ildən kafedraya dosent Firuz Abdinzadə rəhbərlik edir və kafedrada bir sənətşünaslıq doktoru, bir professor, beş dosent, on bir baş müəllim və yeddi müəllim çalışır. Son iki ildə kafedranın dörd müəlliminin fəaliyyəti Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən qeyd edilmişdir: kafedranın müdiri F.Z.Abdinzadə "Yüksək ixtisaslı kadrların hazırlanmasında səmərəli fəaliyyətinə", dosent N.Şahməmmədova və baş müəllim S.Əhmədova "Təhsilin inkişafında xidmətlərinə və gənc nəslin təlim tərbiyəsi sahəsində yüksək nailiyyətlər əldə etdiyinə", baş müəllim A.Səfərova "Ali təhsilin inkişafındakı xidmətlərinə, səmərəli elmi-pedoqoji fəaliyyətinə" görə nazirliyin Fəxri Fərmanı ilə təltif ediliblər.



# ÜMUMİ FORTEPİANO KAFEDRASININ PEDAQOJİ HEYƏTİ



**Firuz Abdinzadə**
Dosent, kafedra müdiri



**Kamalə Şəfiyeva**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent



**Gülcənnət Baxşıyeva**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent



**Zöhrə Zalova**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent



**Naibə Şahməmmədova**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent



**Aida Həsənova**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, baş müəllim



**Rübabə Məmmədova**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, müəllim



**İradə Kərimova**
Baş müəllim



**Sevda Məmmədova**
Baş müəllim



**Rəna Bağırova**
Baş müəllim



**Arzu Dəryahi**
Baş müəllim



**Mahirə Quliyeva**
Baş müəllim



**Svetlana Əhmədova**
Baş müəllim



**Mehriban Kərimova**
Baş müəllim



**Aynurə Məmmədova**
Baş müəllim



**Lamiyə Həbibullayeva**
Baş müəllim



**Arzu Səfərova**
Baş müəllim



**Afət Mustafayeva**
Müəllim



**Tamilla Əsədova**
Müəllim



**Təranə Məmmədova**
Müəllim



**Gülnar Axundova**
Müəllim



**Aygün Muradova**
Müəllim



**Rəna İmanova**
Müəllim




MUĞAMIN


Embassy of the Republic of Azerbaijan
to the Republic of Kazakhstan


home of the
Weill Music Institute
CARNEGIE HALL
Resnick Education Wing
Rose Museum




ДИПЛОМ
ДИПЛОМ


Diploma
Diploma








ДИПЛОМ



# İCTİMAİ ELMLƏR KAFEDRASI

Azərbaycan Milli Konservatoriyası yarandığı gündən bir sıra humanitar elmlərin tədqiqi və tədrisi "İctimai elmlər" kafedrasına həvalə olunub. Azərbaycan, rus, ingilis, italyan dilləri də bu kafedrada ixtisaslı müəllimlər tərəfindən tədris edilir.

Geniş spektrli əhatə sahəsi olan ictimai elmlər (filologiya, linqvistika, ritorika, informatika, psixologiya, hüquq, mədəniyyətşünaslıq, sosiologiya, tarix, politologiya, pedaqogika, mülki müdafiə, sosial coğrafiya və s.) tələbələrin ictimai həyat haqqında fəlsəfi-siyasi-sosial bilikləri, düşündüklərini ifadə etmək üçün dil vərdişləri, ətraf mühitdəki insanlarla davranmağı, elektron informasiya vasitələrindən istifadə etməyi, baş verə biləcək hərbi müdaxilədə özünü və yaxında olanlara yardım edə bilmək bacarıqlarını, dərs deyəcəyi şagird və tələbələrlə ünsiyyət və davranışın imkan və formalarını öyrədir.



İctimai elmlər kafedrasının işində müasir zamanın tələblərinə uyğun olaraq bir sıra fənlərin daxil edilməsi və müxtəlif ixtisaslar üzrə tədris edilməsinə ehtiyac böyükdür. Məsələn, Konservatoriyanın profilinə uyğun ***Muğam mətnlərinin dili*** təkcə magistr pilləsində təhsil alan musiqişünaslara deyil, əksər kafedralara çox lazımlı fəndir. Müasir dövrün tələbləri altında ***Multikulturalizm*** fənni yeni elm sahəsi kimi tədrisə əlavə edilib.

Kafedranın professor-müəllim heyəti: ictimai elmlər kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Firudin Qurbanov (Qurbansoy) (Azərbaycan ədəbiyyatı, Ədəbiyyat nəzəriyyəsi, Azərbaycan dili və nitq mədəniyyəti, Muğam mətnlərinin dili fənləri), filologiya üzrə elmlər doktoru, professor Məleykə Hüseynova (Azərbaycan ədəbiyyatı, Ədəbiyyat nəzəriyyəsi, Azərbaycan dili və nitq mədəniyyəti fənləri), AMK-nın "Xarici tələbələrin hazırlığı" şöbəsinin müdiri, baş müəllim Jalə Məhərrəmova (Fəlsəfə, Multikulturalizm, Tarix, Pedaqogika, Psixologiya fənləri), Təranə Mehdiyeva (İngilis dili fənni), Vüsalə Mikayılova (Mülki müdafiə və Tibbi biliklərin əsasları fənləri), Sabir Nemətzadə (Mülki müdafiə fənni), Samirə İmanova (İngilis dili fənni), Növrəstə İsmayılzadə (İnformatika fənni), Ləman İsmayılova (İtalyan dili fənni) yeni nəsil tələbələrin təlim və tərbiyə işində və yüksək səviyyəli musiqiçilərin yetişdirilməsində öz əməyini əsirgəmirlər.



*İctimai elmlər kafedrasının əməkdaşları: Soldan sağa: Billurə Ağazadə, Təranə Mehdiyeva, Sabir Nemətzadə, Vüsalə Mikayılova, Firudin Qurbansoy, Ləman İsmayılova, Samirə İmanova*





# İCTİMAİ ELMLƏR KAFEDRASININ PEDAQOJİ HEYƏTİ



**Firudin Qurbanov (Qurbansoy)**
Kafedra müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent



**Məleykə Hüseynova**
Filologiya üzrə elmlər doktoru, professor



**Jalə Məhərrəmova**
Baş müəllim



**Sabir Nemətzadə**
Müəllim



**Vüsalə Mikayılova**
Müəllim



**Samirə İmanova**
Müəllim



**Təranə Mehdiyeva**
Müəllim



**Ləman İsmayılova**
Müəllim

# Qaval



Azərbaycan ərazisində çox geniş yayılmış, bir üzlü zərb alətləri qrupuna aid olan dəf (qaval) barədə klassiklərin əsərlərində, miniatürlərdə kifayət qədər məlumat verilib. Qaval, bəlkə də, yeganə alətdir ki, ilkin formasını dövrümüzə qədər saxlaya bilib. Miniatür sənət əsərlərində təsvir edilmiş saray musiqi məclislərində çəng-ney-dəf, bərbət-çəng-ney-dəf, ney-tənbur-dəf kimi alət qruplarında bu alətin xüsusi yeri var.

Orta əsrlərdə, əsasən, saray musiqi məclislərində istifadə edilərək bir çox Şərq ölkələrində, məsələn, Orta Asiya xalqları arasında qavalın müxtəlif ölçülü növləri geniş yayılıb. Dəyirmi formasına görə Günəşin simvolu sayılan bu aləti sufi məclislərində dairəvi şəkildə diyirləndirərək doğumlu ölümlü həyatın simvolu kimi səsləndirərdilər. Alət XVI əsrdən bəri saray musiqi məclislərində daha geniş istifadə olunmağa başlayaraq xanəndəlik sənətinin ayrılmaz hissəsinə çevrilib. Xanəndə qavalı qulaqlarına yaxınlaşdırır, alətin dərisinin titrəyişindən alınan əks-sədadan, rezonansdan ilhamlanaraq daha təblə oxuyurmuşlar. Rəng, dəraməd, təsnif və zərbi muğamların üçlük tərəfindən ifası zamanı qavalın iştirakı mütləqdir.

Qaval Ü.Hacıbəyli tərəfindən xalq çalğı alətləri orkestrinin tərkibinə əsas alət kimi daxil edilmiş, onun ilk not partiyasını da bəstəkar özü yazmışdır.




# ELMİ FƏALİYYƏT

Milli Konservatoriyada elm sahəsində görülən işlər ali təhsil müəssisəmizin yaradıcı simasını ortaya çıxarmaqla səciyyələnir və fərqlənir. Kafedralarda fəaliyyət göstərən professor-müəllim heyətinin əksəriyyəti milli musiqi sənətinin dəyərli, müqtədir nümayəndələridir. Ona görə də burada elmi-tədqiqat və elmi-metodiki işlər yaradıcılıq-ifa fəaliyyəti ilə paralel şəkildə aparılaraq, eyni zamanda bir-birini üzvi surətdə tamamlayır. Müəllimlərimizin ilboyu ortaya qoyduğu metodik tövsiyə və dərs vəsaitlərində, elmi məqalə və araşdırmalarında, xalq çalğı alətləri üçün çoxsaylı işləmə və köçürmələrdə çox vaxt elmi düşüncə tərzi ifaçılıq, bəstəkarlıq vərdişləri və kəşfləri ilə vəhdətdə özünü büruzə verir. Elmi işlər üzrə prorektorluq tərəfindən idarə olunan elmi-metodik şura konservatoriyada ərsəyə gələn elmi işlərin keyfiyyətinə və istiqamətinə ümumi nəzarəti həyata keçirir.



AMK-nın not nəşrləri

AMK-da elmi araşdırmaların əhəmiyyətli bir hissəsi etnomusiqişünaslıq, habelə tarixi və nəzəri musiqişünaslıq ilə bağlıdır. Prioritet sahələr sırasında musiqi türkologiyası və şərqşünaslığı, həmçinin etnoorqanologiya elmi yer alıb. Görülən işlərin aynası rolunu isə Milli Konservatoriyada 10 ildən artıq bir zaman kəsiyində nəşrini davam etdirən “Konservatoriya” elmi jurnalı oynayır. 2016-cı ildən jurnalın onlayn versiyası - rəsmi internet saytı mövcuddur. Jurnalın beynəlxalq redaksiya heyətinə dünyanın müxtəlif yerlərindən nüfuzlu alimlər daxildir. Məqalələr Azərbaycan, türk, ingilis və rus dillərində qəbul olunur və ekspert şurasının müsbət rəyini aldıqdan sonra jurnalın səhifələrində yer alır. Bu vaxta kimi jurnalın 47 nömrəsi işıq üzü görüb.



AMK-da işıq üzü görmüş mənbələr

AMK-da bakalavr və magistr tələbələrin, həmçinin doktorant və dissertantların müasir

metodologiyalara əsaslanan elmi-tədqiqat işlərinin təşkilinə xüsusi yer verilir. Tələbə Elmi Cəmiyyəti uzun illərdir gənclərin elmi tədqiqata cəlb olunması yolunda bir sıra layihələr həyata keçirir. Bu iş bir tərəfdən, tələbə elmi konfranslarının təşkilinə, digər tərəfdən isə tələbələrin Respublika səviyyəli müxtəlif olimpiadalarda və müsabiqələrdə çıxışına yönəlib.





*AMK-da təşkil edilən beynəlxalq və tələbə-elmi konfrans-larının çap olunmuş materialları*



*Azərbaycan Milli Konservatoriyasında Aqşin Əlizadənin 80 illik yubileyinə həsr edilmiş elmi-praktiki konfrans*




*Magistr tələbələrin konfransı*



*Magisr tələbələrin konfransı*



*Azərbaycan Milli Konservatoriyasında ixtisaslaşma kursu keçən Kurmanqazı Universitetinin tələbəsinə sertifikat təqdim olunub*

Konservatoriyada elmi fəaliyyətin bir vacib istiqaməti də elmi konfrans və seminarların, dəyirmi masaların təşkilidir. Yeni inzibati-tədris binasında bu fəaliyyət daha intensiv xarakter alıb. 2015-ci ildən etibarən 6 ildir ki, AMK-nın Tələbə elmi cəmiyyətinin təşkilatçılığı ilə magistr tələbələrin "Musiqişünaslığın aktual problemləri" mövzusunda Respublika konfransı keçirilir. 2017-ci ildə Milli Konservatoriya ilk dəfə olaraq "Qloballaşan dünyada musiqi ənənələri" adlı Beynəlxalq konfrans təşkil etdi. Konfransın işinə Yaponiya, ABŞ, Kanada, Rusiya, Qazaxıstan, Özbəkistan və Türkiyədən gəlmiş sanballı alimlər qatılmışdılar. Bunun ardınca 2018-ci ildə Bakıda ilk dəfə olaraq keçirilən ISME-nin (Beynəlxalq Musiqi Təhsili Cəmiyyəti) növbəti Dünya konfransında Milli Konservatoriya "Türk xalqlarının musiqisi" bölməsinə uğurla ev sahibliyi etmişdir. Keçirilən bütün konfransların materialları ayrıca toplu şəklində nəşr olunmuşdur. Hazırda beynəlxalq elmi əməkdaşlığı nəzərdə tutan yeni aktual və maraqlı layihələr üzərində iş gedir.

Milli Konservatoriyada 2003-cü ildən etibarən elmi laboratoriyalar da yaradılıb. Hazırda "Milli musiqi alətlərinin təkmilləşdirilməsi" adlı elmi-təcrübi laboratoriya fəaliyyətini davam etdirir. Burada milli musiqi alətlərinin bərpası, rekonstruksiyası və təkmilləşdirilməsi ilə bağlı işlər aparılır. Qədim alətlərin bərpası, mövcud alətlərin təkmilləşdirilməsi, alət ailələrinin yaranması məsələləri həllini tapır. Tar, kamança, balaban alətləri ailələrinin yaranması, bir sıra qədim alətlərin bərpası və yaxud mövcud nümunələrin təkmilləşdirilməsi, milli hər-



## *ISME – 2018,*
## *(Beynəlxalq Musiqi Təhsili Cəmiyyəti)*
## *33-cü Beynəlxalq Konfransının iştirakçıları*



bi-nəfəs alətləri orkestri üçün yeni zərb alətlərinin yaradılması bu laboratoriyanın uğurları sırasındadır. Laboratoriyada yaradılan alətlərdən ibarət "Əsrlərin sədası" ansamblı bir sıra beynəlxalq layihələrdə artıq uğurla çıxış edib.








# “Qloballaşan dünyada musiqi ənənələri” adlı I beynəlxalq elmi konfrans




Professor Siyavuş Kərimi



Elmi konfransın açılış mərasimindən.
Soldan sağa: Lalə Hüseynova, Cahangir Səlimxanov, Uğur Alpagut, Genichi Tsuge



“Qloballaşan dünyada musiqi ənənələri” adlı
I beynəlxalq elmi konfransın iştirakçıları.
Moderator Ülkər Əliyeva



Uğur Alpagut



Elmi işlər üzrə prorektor Lalə Hüseynova



Yaponiyalı alim Genichi Tsugenin çıxışı.
Bakı. 2017-ci il

“Qloballaşan dünyada musiqi ənənələri” adlı I beynəlxalq elmi konfransın iştirakçıları





*Cahangir Səlimxanov*



*Kuyvinen Pol Uolter*



*Fəxrəddin Baxşəliyevin çıxışı.*

*Moderator Ülkər Əliyeva*



*Polina Desyatniçenko*



*Abbasqulu Nəcəfzadə*





*Gülnarə Manafovanın çıxışı.*

*Moderator Fəttah Falıqzadə*



*Seyran Qafarov məruzə edərkən*


“Əsrlərin sədası” ansamblı







*“Əsrlərin sədası” ansamblının “Nəsimi” festivalı üçün yazılmış əsərin məşq prosesi. Dirijor Orxan Həşimov*



*Azərbaycan Milli Konservatoriyasında "Dünya səs günü" qeyd olunub. Doktoranr Alexandriya Von Brüsseldorfun "Xanəndə və aşıqların səs aparatında akustik və fizioloji xüsusiyyətlərin tədqiqi" mövzusunda çıxışı. 16 aprel 2019-cu il.*



*Sədəf Budaqovanın səs aparatı ilk dəfə olaraq müasir MRT cihazı vasitəsi ilə fiksasiya və tədqiq olunarkən. Almaniya, Frayburq. 2019-cu il.*



*Mənsum İbrahimovun səs aparatı ilk dəfə olaraq müasir MRT cihazı vasitəsi ilə fiksasiya və tədqiq olunarkən. Almaniya, Frayburq. 2019-cu il.*



*Soldan sağa Mənsum İbrahimov, Bernhard Rixter, Yurgen Henning, Maksim Zaytsev, Alexandriya Von Brüsseldorf, Lalə Hüseynova, Sədəf Budaqova. Almaniya, Frayburq. 2019-cu il.*

# "KONSERVATORİYA" ELMİ JURNALI

ISSN 2522-1612 Online
ISSN 2518-7074 Print




Azərbaycan Milli Konservatoriyası təsis edildikdən bir müddət sonra elmi tədqiqat işinin tədris prosesi ilə əlaqələnməsi və qarşılıqlı təmasını təşkil etmək məqsədi elmi jurnalın yaranmasının labüdlüyünü gündəmə gətirdi. Azərbaycan Milli Konservatoriyası Elmi Şurasının 26 dekabr 2008-ci il tarixli 7 saylı protokolu ilə təsdiq edilib, Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 17.12.2008-ci il tarixdə 2770 saylı Şəhadətnamə ilə qeydə alınmış "Konservatoriya" elmi jurnalı fəaliyyətə başladı. Jurnalın fəaliyyət istiqaməti sənətşünaslıq üzrə olduğundan burada musiqişünaslıq, etnomusiqişünaslıq elmi ilə yanaşı təsviri incəsənət, xoreoqrafiya, filologiya, fəlsəfə, teatr və s. bu kimi istiqamətli elmi məqalələr dərc olunur.

"Konservatoriya" elmi jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 30 aprel 2010-cu il tarixli iclasında (protokol № 10-R) "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlərin siyahısı"na salınmışdır. Müasir zamanın yeni tələblərinə görə respublikada mövcud olan elmi jurnallarla bərabər bir daha təftişdən keçdikdən sonra 2020-ci il üçün yenidən nizamlanmış siyahıya daxil edilib. "Konservatoriya" elmi jurnalı ildə 4 dəfə (üç aydan bir) nəşr edilir. Dərgidə Azərbaycan, ingilis, türk, rus və başqa dillərdə məqalələr dərc olunur.



ISSN

“Konservatoriya» elmi jurnalı 2016-cı ildən etibarən Print və Online ISSN almışdır.

ROAD (Directory of open access scholarly resources)

«Konservatoriya» elmi jurnalının ROAD Elmi qaynaqların açıq əldə etmə resursu üzrə axtarış sistemində qeydiyyatdadır.

PLOS Open Access Public Library of Science (PLOS, İctimai elmi kitabxana)

“Konservatoriya” jurnalı elmi məqalələri internet saytında yerləşdirməklə açıq siyasət (Open Access) yeridir. Açıq istifadədə olan jurnal o deməkdir ki, bütün məqalələri ilə birlikdə hər istifadəçi üçün ödənişsiz və rahat əldə ediləndir. Bir şərtlə ki, əldə edilən informasiya qeyri kommersiya məqsədi ilə istifadə ediləcək. İstifadəçilər məqalələri oxuya, köçürə, paylaşa, kopyalaya, axtara və istinad edə bilərlər. Bu zaman istinad verərkən müəllifdən icazə almağa ehtiyac yoxdu. Redaksiyanın riayət etdiyi bu mövqe 2002-ci il Budapeşt açıq əldə etmə təşəbbüsü qaydalarına uyğundur.

This work is licensed under a Creative Commons Attribution-NonCommercial 4.0 International License.

SIS Scientific Indexing Service (SIS Scientific Group – Elmi indeksasiya xidmətləri)

“Konservatoriya” jurnalı SIS (Scientific Indexing Service) bazasında 6129 nömrəsi altında qeydiyyatdadır. (Journal ID:6129 page 307). Bu bazada fərdi səhifəmiz mövcuddur.

РИНЦ

2019-cu ildən etibarən “Konservatoriya” jurnalı РИНЦ (Российский Индекс Научного Цитирования) ilə müqavilə bağlamışdır. (Müqavilə 257-07/2019). “Konservatoriya” jurnalının 2016-cı ildən etibarən nömrələri elibrary.ru saytında yerləşdirilir. Azərbaycan Milli Konservatoriyasının və “Konservatoriya” jurnalının fərdi səhifəsində həm jurnal, həm də məqalələr barədə bütün informasiya əks edilir.

QR kod

Elektron Kommunikasiya cihazları bu şifrəli kod vasitəsilə hər kəsi www.konservatoriya.az saytına asanlıqla yönləndirəcək.



# AZƏRBAYCAN MİLLİ KONSERVATORİYASININ ELMİ-TƏDQİQAT LABORATORİYALARI

Azərbaycan Milli Konservatoriyası təsis edildikdən az sonra, artıq 2003-cü ildən AMK-da iki elmi-tədqiqat laboratoriyası fəaliyyətə başladı: **"Milli musiqinin tədqiqi" və "Milli musiqi alətlərinin təkmilləşdirilməsi"** laboratoriyaları. Təhsil Naziri Misir Mərdanovun 14.03.2003-cü il tarixli 224 saylı əmrinə əsasən təşkil olunan laboratoriyaların açılmasında əsas məqsəd milli musiqi tarixinin araşdırılması, xarici dillərdə olan elmi ədəbiyyatın tərcümə edilib elmi-tədqiqat işlərində istifadə olunması, eləcə də milli musiqi alətlərimizin tədqiq və təkmilləşdirilməsi işində irəliləyişlər əldə etmək idi.

"Milli musiqinin tədqiqi" elmi-tədqiqat laboratoriyasına rəhbərlik etmək sənətşünaslıq doktoru, professor Sevil Fərhadovaya həvalə edildi. O, 2005-2011-ci illərdə laboratoriyaya rəhbərlik edərək buraya təcrübəli və tanınmış tədqiqatçıları cəlb etmişdir. Laboratoriya rəhbəri, baş elmi işçi, elmi işçi, kiçik elmi işçi, baş laborant və laborant vəzifələri üzrə əməkdaşlar işə başlayaraq bir sıra uğurlu nəticələr əldə edə bilmişlər. 2011-2018-ci illərdə laboratoriyaya sənətşünaslıq üzrə elmlər doktoru, AMK-nın professoru Abbasqulu Nəcəfzadə rəhbərlik edərək nəzərdə tutulmuş elmi-tədqiqat istiqamətini uğurla davam etdirmişdi.

Laboratoriya fəaliyyət göstərdiyi zaman bir sıra unudulmuş musiqi folklorunun, irsinin öncə bərpası, sonda qorunub saxlanılması və elmi-tədqiqata cəlb olunması istiqamətində çalışaraq milli musiqinin inkişafı üçün diaqnostika və proqnozlaşdırmanın elmi tələblərə uyğun şəkildə hazırlanılması və ümumi musiqi tədqiqinin metodoloji konsepsiyasının işlənilməsi məsələlərini diqqət nəzərində saxlamağa çalışmışdır. AMK-nın beynəlxalq elm və tədris ocağına çevrilməsi istiqamətində təkliflər, tədbirlər və fəaliyyət konsepsiyası planının





















*AMK-nın elmi-tədqiqat laboratoriyalarının çalışması nəticəsində yaranmış tədqiqat işləri*

hazırlanması nəticədə bütün Azərbaycan musiqi elminin inkişafına xidmət etməli idi. İstər Azərbaycanın müxtəlif regionlarına, istərsə də, azərbaycanlıların kompakt halda yaşadıqları bir sıra xarici ölkələrə (İran, Türkmənistan, Özbəkistan, Qazaxıstan, Rusiya və s.) ekspedisiya səfərlərinin təşkil edilməsi, eləcə də etnoqrafik musiqi nümunələrinin toplanması və etnoqrafik konsertlərin təşkil olunması elmi işçilərin diqqət-nəzərində saxladığı ən vacib məsələlərdən biridir.

Bunun üçün milli musiqi nümunələrinin notlaşdırılması ilə yanaşı Orta əsrlərdə yazılmış risalələrin, əlyazmaların Azərbaycanda, yaxud xarici ölkələrdə əldə olunması və tərcümə edilərək nəşrə hazırlanması çox önəmlidir. Tədqiqat nəticəsində əldə edilən qiymətli materiallar elmi diskusiyalar, seminarlar, dəyirmi masalar və konfransların gedişatında ictimailəşdirilərək müzakirə edilir.

Bu məqsədlə laboratoriyanın əməkdaşları həm respublikada, həm də onun hüdudlarından kənarda elmi məqalələrini dərc edərək dünya elmi ilə ayaqlaşmağa çalışır və milli musiqimizin təbliği işində uğurla irəliləyirlər.

Bu illər ərzində 2009-cu ildən bəri dərc edilən "Konservatoriya" elmi jurnalının tərtibi, məqalələrin redaktəsi və çapa hazırlanması işi də elmi laboratoriyaların əməkdaşlarının üzərinə düşüb. Təsis olunduğu gündən bu jurnal respublikada muğamşünaslıq, aşıqşünaslıq və etnomusiqişünaslığı prioritetdə saxlayan bir dərgi kimi tanınıb.



*Tar alətinin elmi laboratoriyada hazırlanmış növləri*



*AMK-nın laboratoriya otağı. Ağamir Həsənovun iş prosesi*



*Laboratoriya rəhbəri Məmmədəli Məmmədov və ustalar*
*Soldan sağa: Ağamir Həsənov, Məzahir Həsənov, Məmmədəli Məmmədov, Güləli Bayramov*

Laboratoriyanın əməkdaşları musiqi folkloru nümunələrini toplamaq məqsədi ilə ölkənin müxtəlif regionlarına və azərbaycanlıların kompakt yaşadıqları bir sıra xarici ölkələrə vaxtaşırı ekspedisiya səfərinə yollanırlar. Azərbaycan Milli Konservatoriyasının "Milli musiqinin tədqiqi" elmi-tədqiqat laboratoriyasının elmi işçiləri üçün illik iş planı tərtib edilir, onların görəcəkləri işlər və tədqiq edəcəkləri mövzular müəyyənləşdirilir.

Əməkdaşlar hər 3 aydan bir özündə milli musiqimizi tam əhatə edən, hər hansı problemin həllini tapan, elmi nəticələr verən məqalələr işləyib hazırlamalıdır. Mövzuların əhatə dairəsi geniş olmalı, ümumilikdə milli musiqimizin bütün janrlarına (rəqs, muğam, aşıq, meyxana və s.) müraciət olunmalıdır. Hər bir əməkdaş hazırladıqları məqalələr və gördükləri işlər haqqında ilin sonunda yazılı şəkildə hesabat verir. Laboratoriyada işlənilən hər hansı məqalə müəllifin uzun elmi axtarışlarından sonra ərsəyə gəlir.





*Venesiya Biennalesində Beynəlxalq incəsənət sərgisində Azərbaycan pavilyonunun tərkibində 45 alətdən ibarət kompozisiya. Elmin Nəbizadənin konstruksiyası əsasında Məmmədəli Məmmədovun hazırladığı musiqi alətləri çələngi. May. 2017-ci il.*



*Elmi laboratoriyanın əməkdaşlarının müzakirə prosesi. Soldan sağa: Ağamir Həsənov, Nərgiz Əhmədova, Fazilə Nəbiyeva, Məmmədəli Məmmədov, Gülnarə Manafova, Lalə Hüseynova, Teymur Hüseynov, Məzahir Həsənov*







*Laboratoriyanın hazırladığı alətlər Beynəlxalq Muğam Mərkəzinin foyesində daimi ekspozisiyada*



*“Azərbaycan milli musiqi alətləri: keçmişimiz, bu günümüz”*
*mövzusunda elmi-praktiki konfrans. 4 aprel, 2017-ci il*

“Milli musiqinin tədqiqi” laboratoriyası 2018-ci ildən etibarən fəaliyyətini saxlayıb. Hazırda AMK-da cəmi bir laboratoriya, “Milli musiqi alətlərinin təkmilləşdirilməsi” elmi-tədqiqat laboratoriyası öz işini davam etməkdədir.

AMK-nın nəzdində “Milli musiqi alətlərinin təkmilləşdirilməsi” elmi-tədqiqat laboratoriyası da 2003-cü ildən yaranıb. Yarandığı ilk illərdə (2005-2011) Abbasqulu Nəcəfzadə bu laboratoriyaya rəhbərlik etmiş, 2011-ci ildən etibarən isə Məmmədəli Məmmədovun rəhbərliyi altında daha çox tədqiqat-istehsalat istiqamətində inkişaf etmişdir.

ni yaranan musiqi alətlərində səsləndirilməsi, Azərbaycan milli musiqi alətlərində ifaçılığa mane olan çatışmazlıqların aradan qaldırılması, yəni, alətlərin təkmilləşdirilməsi, alətin kövrəkliyinin aradan götürülməsi və ifaçılıqda problem yaratmayan, mükəmməl musiqi alətlərinin, bütün registrləri əhatə edə biləcək alət ailələrinin yaradılmasıdır.

“Milli musiqi alətlərinin təkmilləşdirilməsi” elmi-tədqiqat laboratoriyasının əməkdaşları elmi araşdırmalarla məşğul olur, müxtəlif konfrans və simpoziumlarda daim iştirak edir, tədqiqat işləri aparır, xalq çalğı alətlərinin rekonstruksiyası, bərpası, yeni diapazonlu milli alətlərin yaranması sahəsi ilə məşğul olur. Mövcud olduğu illər ərzində laboratoriya milli alətlərlə bağlı əsasən 3 istiqamətdə fəaliyyət göstərib: 1. Qədim musiqi alətlərinin bərpası və təkmilləşdirilməsi 2. İstifadədə olan alətlərin qüsurlarının aradan qaldırılıb təkmilləşdirilməsi 3. Yeni dövr tələblərinə uyğun gələn yeni alətlərin yaradılması. Aparılmış bütün bu tədqiqat və istehsalat işlərinin nəticəsi olaraq laboratoriya rəhbəri Məmmədəli Məmmədov 70-ə yaxın aləti müəllif hüquqları agentliyində qeydiyyatdan keçirərək sertifikat almışdır.






*Laboratoriyada hazırlanmış milli musiqi alətləri*





*Milli musiqi alətlərinin hazırlanması prosesi*

Bütün araşdırma işləri dəqiq elmi hesablamalar və alətlərin ölçü əmsallarının çıxarılması yolu ilə aparılır. Nəticədə ölkədə mövcud olan alətlərin quruluşu və səslənməsində uyğunluq əldə ediləcək və yeni alətlər müvafiq əmsallara nəzərən hazırlanacaq.

Qədim alətlərin bərpası və təkmilləşməsi işi əlbəttə ki, qədim risalələr, yazılı və şifahi mənbələrin öyrənilməsinə əsaslanır. Alətlərin təkcə görkəmi deyil, həmçinin tembrinin orijinala yaxın olmasına, eləcə də alətin dinləyicidə oyada biləcəyi emosional təsirinin də

müvafiq olmasına cəhd edilir. Bərpa edilmiş alətlərdən təkmilləşmiş çəng, tac santur, həsa, əsa, çovqan, rübab, ruhəfza, şahrud, ərğənun, bərbət, donqar, rud, şıdırğı kimi alətləri nümunə göstərə bilərik.

Artıq məişətimizdə, ifaçılıqda istifadə olunan alətlərin təkmilləşməsi işində vahid əmsal əldə etməkdən savayı alətlərin yeni, daha keyfiyyətli müasir materiallardan hazırlanması məsələsi də diqqət-nəzərdədir. Bu işin sayəsində maddi cəhətdən daha əlverişli alətlər, simləri daha davamlı, məsələn şagirdlər üçün xüsusi olaraq tar, kamança, saz aləti hazırlamaq mümkün olacaq.

Mövcud alətlərin təkmilləşməsi prosesi bu gün artıq alət ailələrinin yaradılması işini də gündəmə gətirdi. Bəm və zil registrin bütün diapazonunu əhatə edən alət ailələrinin yaranması və xalq çalğı alətləri orkestrinin tərkibinə daxil edilməsi sayəsində orkestrin səslənməsini simfonik orkestr səviyyəsinə çatdırmaq nəzərdə tutulub. Laboratoriyanın səyi nəticəsində artıq tar, kamança, saz və balaban alət ailələri ifaçılıq praktikasında geniş istifadə edilir.



*Elmi laboratoriyanın əməkdaşları. Ön sırada soldan sağa: Gülnarə Manafova, Lalə Hüseynova, Fazilə Nəbiyeva, Nərgiz Əhmədova. Arxa sırada: Ağamir Həsənov, Məzahir Həsənov, Məmmədəli Məmmədov, Teymur Hüseynov*

Azərbaycan milli çalğı alətlərində ifaçılığın geniş vüsət alması həmçinin yeni tembr və yeni dövr tələblərinə uyğun gələn alətlərin yaranmasını da şərtləndirir. Mövcud alətlərin yeni elektron versiyaları da tamam yeni tembr səsləndirdiyinə görə artıq yeni alət kimi qəbul edilir (Məsələn, elektro akkord tar, "Azərbaycan" elektro musiqi aləti, Ay kaman elektro kamança, elektro silindr kamança, Rəmiş elektro alət kimi). Yeni yaranan alətlərdən dördkünc davul, dördkünc balaban, Qarabağ kamanı, İrs, Ud-mən, Ay-ulduz, Sevgililər, Zil-bəm kamança, Yaylı bəm tar, Şimşək, Möhtəşəm, Qoşaçanaq bas kamança, Cütçanaq kamança alətlərini sadalaya bilərik.

Yaranan, yaxud təkmilləşən hər yeni alət laboratoriyada AMK-nın pedaqoji kollektivi, mötəbər ifaçılar tərəfindən sınaqdan keçirilir və ifa xüsusiyyətlərinə görə xasiyyətnamə əldə edir. Hazırda elmi-tədqiqat laboratoriyasının əməkdaşları: laboratoriya rəhbəri (Məmmədəli Məmmədov), baş elmi işçi (Fazilə Nəbiyeva, sənətşünaslıq üzrə fəlsəfə doktoru), elmi işçi (Gülnarə Manafova), kiçik elmi işçilər Humay Fərəcova, Fərdin Məmmədli, laborant (Günay Babazadə), ustalar (Ağamir Həsənov, Məzahir Həsənov, Teymur Hüseynov) nəzərdə tutulmuş istiqamətdə çalışmaqda davam edir və çağdaş elmin tərəqqisi üçün əllərindən gələni əsirgəmirlər.










*Azərbaycan Milli Konservatoriyasında “Milli musiqi günü”. 2017-ci il*

*Avstriyalı orqanoloq Tomas Şallabök qədim milli alətləri nümayiş etdirir..*



*“Əsrlərin sədası” ansamblının “Nəsiminin 650 illiyinə həsr edilmiş festival”ın açılış mərasimində Heydər Əliyev mərkəzində təşkil edilmiş müasir bəstəkarların əsərlərindən ibarət konsert proqramında çıxışı. Dirijor Orxan Həşimov, Bakı, 28 sentyabr, 2019-cu il.*






QARABAĞIN səsi

















## AZƏRBAYCAN MİLLİ KONSERVATORİYASI NƏZDİNDƏ MUSİQİ KOLLECİ

Hazırda Azərbaycan Milli Konservatoriyasının nəzdində olan orta-ixtisas təhsil müəssisəsi – Musiqi Kolleci 1895-ci ildə tərəqqipərvər ziyalı rus qadını, Moskva konservatoriyasının məzunu, pianoçu Antonina Nikolayevna Yermolayeva tərəfindən Bakıda ilk şəxsi musiqi məktəbi kimi fəaliyyətə başlayıb. Əsasən, Bakıda yaşayan və işləyən rus sahibkarlarının, yerli rus əhalisinin uşaqlarına musiqi təhsili vermək məqsədilə yaradılan bu məktəbin bazasında (1901) "Rus İmperator Musiqi Cəmiyyətinin Bakı Şöbəsi"nin Musiqi Sinifləri yaradılır. Musiqi məktəbi rolunu oynayan həmin siniflərin yaradılması mütərəqqi hal olsa da, əsasən çarizmin ucqarlarında rus kapitalist ailələrinə qayğı göstərmək, rus elit ailələrinin mənəvi tələbatını ödəmək və ruslaşdırma siyasəti aparmaq məqsədi daşıyırdı. Azərbaycanda musiqi təhsili verən məktəbdə azərbaycanlı balalarının da oxuması Üzeyir bəy Hacıbəylinin ən böyük arzusu idi. O, musiqi təhsili istəyən azərbaycanlıların bu arzu və həvəsini həyata keçirməyə çalışırdı. Nəhayət, 1916-cı ildə Üzeyir Hacıbəyli öz ziyalı həmkarları ilə birlikdə A.N.Yermolayevanın musiqi məktəbinin dövlət orta ixtisas musiqi məktəbinə çevrilməsinə nail oldu. Onun məktəbin bundan sonrakı fəaliyyətində müstəsna rol oynaması və musiqi təhsili naminə görülən mütərəqqi işlər 1920-ci ildə Bakıda Xalq Konservatoriyasının yaradılması ilə nəticələndi.




Xalq konservatoriyasının əsasında 1921-ci ildə Bakıda Dövlət Konservatoriyası təsis edildi və 1922-ci ildən etibarən Dövlət Konservatoriyasının azərbaycanlı müəllim və tələbələrindən ibarət olan Şərq şöbəsi konservatoriyadan ayrılaraq müstəqil təhsil müəssisəsi kimi fəaliyyətə başladı. 1922-ci il aprelin 22-dən etibarən məktəb "Şərq Konservatoriyası" adını daşıdı. Məktəbə direktor təyin edilən Üzeyir Hacıbəylinin səyi nəticəsində Azərbaycanda dövlət səviyyəsində musiqi təhsili sisteminin formalaşması üçün zəmin yarandı və onun rəhbərliyi dövründə məktəbə milli kadrların cəlb olunmasına diqqət artırıldı. Məktəbə qəbul edilən tələbələr arasında digər millətlərin nümayəndələri



*I sıra (soldan): Respublikanın Xalq artistləri F.Dadaşov, A.Abdullayev, C.Əkbərov, S.Kərimi, Əməkdar İncəsənət xadimi N.Kazımov, Xalq artistləri A.Babayev, Ə. Məmmədov, A.Qasımov, M.Mülümov*

*II sıra (soldan): Respublikanın əməkdar artistləri M.Əsədullayev, S.Qəmbərov, müəllim Q.Abbasov, Əməkdar artistlər E.Əhmədov, Z.Nəbizadə, müəllim S.Abdullayev, Əməkdar artist E.Həşimov*

sırasında azərbaycanlılar da böyük əksəriyyət təşkil edirdi. Üzeyir Hacıbəyli tədris prosesinin genişlənməsinə, yeni proqramların yaradılmasına, milli musiqi alətləri üçün notlu tədrisin əsasının qoyulmasına, nəzəri fənlərin, xor dərslərinin keçirilməsinə, ilk muğam proqramının hazırlanmasına nail oldu. Məktəbdə Avropa musiqi alətləri və ixtisasları ilə yanaşı, Azərbaycan xalq çalğı alətləri – tar, kamança, balaban, xanəndəlik də təsis edildi, gələcəyin peşəkar milli musiqiçi kadrlarının hazırlanması üçün yeni imkanlar yaranırdı.

1924-ci ildə musiqi məktəbinin adı dəyişdirilərək Azərbaycan Dövlət Türk Musiqi Texnikumu adlandırıldı. 1926-cı ilə qədərki fəaliyyətdə texnikum fortepiano, violin, tar,



*I sıra (soldan): K.Əliyev, D.İsmayılov, M.Mirzəyeva, F.Nəbiyeva, T.Abiyeva, C.Quliyeva, C.Hüseynzadə, M.Valitova, R.Babayev, N.Hüseynov*

*II sıra (soldan) X.Rəhimova, G.Əhmədova, U.Babayeva, R.Qəhrəmanova, H.Əliyev, Y.İbadova, H.Əlizadə, R.Kərimov, İ.Məmmədli*



*Amerikanın "Hill Billiy" qrupu Musiqi Kollecində konsertdə. 3 iyun 2005*

kamança, xanəndə, musiqi nəzəriyyəsi üzrə xeyli yaxşı ifaçı və müəllim kadrları yetişdirmişdi. 1926-cı ildə texnikum Dövlət Konservatoriyası ilə birləşdirildi. 1932-ci ildə isə 1 nömrəli Dövlət Musiqi Texnikumu kimi yenidən müstəqil fəaliyyətə başladı.

1940-50-ci illərdə texnikumda müəllim və tələbələrdən ibarət xalq çalğı alətləri orkestri və ansamblı, xor, kamera kollektivləri, muğam üçlüyü yaradılır. Müəllim və tələbə kontingenti kəmiyyət və keyfiyyət baxımından daha da artır. Texnikumda rus və xarici ölkələrin musiqi ədəbiyyatı, musiqi nəzəriyyəsi fənləri üzrə yeni metodik vəsaitlər hazırlanır, ixtisas



*Xalq artisti, professor Aqşin Əlizadə ilə görüş. 19 noyabr, 2004.*

dərslərini təcrübəli müəllimlərlə yanaşı, ali təhsil almış gənc müəllimlər də aparırlar.

1953-ci ilin dekabr ayında Musiqi Texnikumuna ilk peşəkar bəstəkar Asəf Zeynallının adı verilir. Sonrakı dövrlərdə bu məktəb öz məqsəd və vəzifələrini daha da böyük məsuliyyətlə və yeni uğurlarla həyata keçirir. 1999-cu ildə Azərbaycan Dövlət Musiqi Kolleci (ADMT) adlanmağa başladı. 2001-ci ildə isə Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kolleci adlandırıldı. Hal-hazırda Kollecdə instrumental ifaçılıq (alətlər üzrə), xanəndəlik, vokal sənəti, xor dirijorluğu, musiqi nəzəriyyəsi, xalq çalğı alətləri ifaçılığı (alətlər üzrə) ixtisasları üzrə mütəxəssislər hazırlanır.



*ABŞ-ın Azərbaycandakı səfiri xanım Anne E.Derse Musiqi Kollecinin kollektivi ilə görüşdə.*

*Aprel, 2008.*












## AZƏRBAYCAN MİLLİ KONSERVATORİYASI NƏZDİNDƏ İNCƏSƏNƏT GİMNAZİYASI

Azərbaycan Milli Konservatoriyası nəzdində fəaliyyət göstərən İncəsənət Gimnaziyası Azərbaycanın orta incəsənət təhsil məktəblərindən biridir. 1959-cu ildə yaradılmış bu təhsil ocağı 8 №-li musiqi təmayüllü internat məktəbi kimi tanınırdı. Sovet hakimiyyəti dövründə Azərbaycan SSR-nın müxtəlif yerlərindən gələn istedadlı uşaqlar burada həm təhsil alır, həm də yaşayırdılar. Musiqi təmayüllü internat məktəbinə uzun illər bəstəkar, xalq artisti Oqtay Rəcəbov başçılıq edib. 1991-ci ildən o, həmkarı Tofiq Quliyevlə birlikdə internat məktəbinin İncəsənət Gimnaziyasına çevrilməsi ideyası üzərində çalışıb. 1992-ci ildə Təhsil Nazirliyinin sərəncamı ilə məktəbə gimnaziya statusu verildikdən sonra O.Rəcəbov gimnaziyaya uzun müddət rəhbərlik edib, burada musiqi ixtisaslarının artırılması, incəsənətlə bağlı müxtəlif peşələrin tədrisi üçün səylə çalışıb.

2001-ci ilin avqustunda Ulu Öndər Heydər Əliyevin imzaladığı 10 avqust 2001-ci il tarixli "Azərbaycan Milli Konservatoriyasının maddi-texniki bazasının yaradılması haqqında" sərəncama əsasən İncəsənət Gimnaziyası yeni yaradılmış Milli Konservatoriyanın baza məktəbi hesab edilib və onun tabeçiliyinə verilib. O.Rəcəbovdan sonra gimnaziyanın rəhbərliyi tez-tez dəyişib. Yusif Məmmədov, Firəngiz Qayıbova, Nazim Quliyev, Maya Şabanbekova gimnaziyanın kollektivinə rəhbərlik ediblər. 2017-ci ildən bu təhsil müəssisəsinə Aytən Əhmədova rəhbərlik edir. Adi məktəblərdə olduğu kimi İncəsənət Gimnaziyasında da şagirdlər orta təhsilə yiyələnir, lakin attestatla yanaşı onlara konkret ixtisas üzrə təhsil almaları haqda sənəd də verilir.





Gimnaziya Milli Konservatoriya üçün kadr hazırladığından əsas dərslər musiqi üzrədir. Musiqi şöbəsində fortepiano, tar, kamança, qarmon, saz, balaban, nağara, kontrabas, gitara, nəzəriyyə, arfa, fleyta, qaboy, qanun, violin, valtorna, violonçel, klarnet, faqot, trombon, truba, zərb alətləri ixtisasları üzrə dərslər keçirilir. Gimnaziyada təsviri və tətbiqi sənət, teatr və kino, xoreoqrafiya şöbələri də fəaliyyət göstərir. Gimnaziyanın üstünlüklərindən biri onun pedaqoji heyətinin ölkənin ən görkəmli incəsənət xadimlərindən ibarət olmasıdır.







*Azərbaycan Milli Konservatoriyasında görkəmli müğənni Bülbülün 120 illik yubileyinə həsr olunmuş festival çərçivəsində keçirilimiş müsabiqə. Bakı. 19 dekabr 2017-ci il.*




*Azərbaycan vokal sənətinin banisi Bülbülün 120 illik yubileyinə həsr olunmuş festivalda Özbəkistan Respublikasından dəvət edilən V.Uspenski adına ixtisaslaşdırılmış Musiqi Akademiya litseyinin "Meros" ansamblının bir qrup üzvlərinin çıxışı. Bakı. 19 dekabr 2017-ci il.*

## "İNCİ" QANUN ÇALANLAR QRUPU

"INCI" qanun (kanon) ifaçılarından ibarət qrup 2004-cü ildə qanun ifaçısı, Azərbaycan Respublikasının əməkdar artisti, sənətşünaslıq üzrə fəlsəfə doktoru, AMK-nın professoru Təranə Əliyeva tərəfindən yaradılıb. İlk illərdə Milli Konservatoriyanın tələbələrindən, sonralar isə müəllim və məzunlarından təşkil olunmuş, sayı 7-8 nəfərdən ibarət bu ansambl Müxtəlif illərdə Azərbaycan-Almaniya, Azərbaycan-Koreya Mədəniyyət birliyinin təşkil etdiyi konsertlərdə, dövlət əhəmiyyətli konsertlərdə, respublikada keçirilən beynəlxalq simpozium və festivallarda, Milli Konservatoriya və müxtəlif universitetlərin təşkilatçılığı ilə keçirilən Beynəlxalq simpoziumlarda, yubiley konsertlərində uğurlu çıxışlar edir. 15 aprel 2015-ci ildə Parisdə YUNESKO-nun igamətgahında keçirilən "Dədə Qorqud əfsanəsi və Türk dünyası" konsertində, 6-14 may 2016-cı ildə Mərakeşdə Fesfestivalının açılış mərasimində və festival çərçivəsində "Jardin Jnan Sbil"də, 18-24 fevral 2019-cu ildə Hindistanın Jodhpur şəhərində, Nagaur və Mehrangah tarixi qalalarında keçirilən "World Sacred Spirit" festivalın açılış və bağlanış konsertlərində çıxışlar qrupun uğurları sırasındadır.











# KAMANÇA ANSAMBLI



Azərbaycan Milli Konservatoriyası instrumental muğam kafedrasının dosenti, əməkdar artist Elşən Mansurovun rəhbərliyi altında fəaliyyət göstərən kamança çalanlar ansamblı 2018-ci ildə yaradılıb. Hazırda tərkibini 10 nəfərə qədər çatdırmış ansambl geniş proqramla məxsusi olaraq ansambl üçün işlənmiş əsərlərlə çıxış edir. Heyət üzvləri: Elşən Mansurov bədii rəhbər. (Əməkdar artist,dosent), Kamran Kərimov –nağara (AMK nın müəllimi), Könül Vəliyeva (AMK-nın müəllimi), Mədinə Şahgəldiyeva (AMK-nın müəllimi, Prezident təqaüdçüsü), magistrlar Aişə Binnətzadə, Fərid Babayev, tələbələr Aytən Rüstəmli, Nəzrin Cəfərzadə, Sultan Nadirov, Fizzə Vəlizadə.





# "NAZNAZI" MUĞAM QRUPU



*"Naznazı" muğam qrupunun çıxışı. 31 oktyabr 2017-ci il.*

*Soldan sağa: Malik Mansurov, Fərid Babayev, Ramin Abdullayev, Arifə İmanova, Nurlan Cəbizadə.*



## BALABAN ANSAMBLI

2005-ci ildə AMK-nın rektoru xalq artisti, professor S.Kəriminin təşəbbüsü ilə yaradılmış "Yeni Nəfəs" ansamblı balabanın müxtəlif növlərindən ibarət (pikkolo, alt, tenor, bas) milli nəfəs alətlərini əsasən "a kapella" ifa edən sekstet kimi fəaliyyət göstərir. Əməkdar artist, professor İ.Nəcəfovun rəhbərlik etdiyi "Yeni Nəfəs" ansamblı 2005-2020-ci illər ərzində AMK üzrə keçirilən tədbirlərdən əlavə Mədəniyyət Nazirliyinin Şirvan şəhəri üzrə "Azərbaycan Musiqi Festivalı" (2007), Ü.Hacıbəyli adına BMA (2008), "Azərbaycan Bəstəkarlar İttifaqının 75 illik yubileyi" (2009), "Beynəlxalq Musiqi Festivalı" (2010), "İpək yolu" II Beynəlxalq Musiqi Festivalı (2011), Beynəlxalq Muğam Mərkəzi üzrə AMK-nın 10 illik yubileyi (2011), Bəstəkarlar İttifaqının IX qurultayı (2012), "Avroviziya 2012" mahnı müsabiqəsilə bağlı layihələr, "Beynəlxalq Muğam Festivalı" (2013), Bəstəkarlar İttifaqının 80 illik yubileyi (2014), Heydər Əliyev Fondunun layihəsi üzrə "Balaban" CD toplusu (SS production, 15 musiqi-2014), Q.Qarayevin və Azərbaycan Xalq Cümhuriyyətinin 100 illyi (2018) ilə əlaqədar konsert proqramlarında fəal iştirak etmişdir. Ansambl 13.07.2019-cu ildə DTX-nin Mədəniyyət Mərkəzində keçirilən Ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə gəlişinin 50 illiyinə həsr edilmiş tədbirdə və 03-06 oktyabr 2019-cu il tarixləri üzrə ilk dəfə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Mədəniyyət kanalının birgə layihəsi olan "Milli Nəfəs Alətləri Festivalı"nda konsert proqramlarının fəal iştirakçısı olmuşdur.












AZƏRBAYCAN TELEVİZİYASI MƏDƏNİYYƏT KANALININ TƏŞKİLATÇILIĞI,
AZƏRBAYCAN DÖVLƏT FİLARMONİYASI,
AZƏRBAYCAN MİLLİ KONSERVATORİYASININ BİRGƏ LAYİHƏSİ OLAN
"HƏMAHƏNG XALQ ÇALĞI ALƏTLƏRİ" ORKESTRİNİN MÜŞAYİƏTİ İLƏ
"SƏNƏT OCAĞI" ADLI KONSERT
ORKESTRİN BƏDİİ RƏHBƏRİ VƏ DİRİJORU
ARİF MƏHƏRRƏMOV
Xalq artistləri
Alim Qasımov
Mənsum İbrahimov
Nəzakət Teymurova
Aygün Bayramova
Azər Zeynalov
Əməkdar artistlər
Təyyar Bayramov
Lalə Məmmədova
Anar Şuşalı
Aygün Zeynalova
Bəyimxanım Vəliyeva
İlqar Muradov
Ehtiram Hüseynov


АЗЕРБАЙДЖАНСКАЯ НАЦИОНАЛЬНАЯ КОНСЕРВАТОРИЯ
БОЛЬШОЙ ЗАЛ
1 НОЯБРЯ 10:00 2019
ОТЧЁТНЫЙ КОНЦЕРТ
СЛУШАТЕЛЕЙ КУРСА ПОВЫШЕНИЯ КВАЛИФИКАЦИИ
ПРОФЕССОРСКО-ПРЕПОДАВАТЕЛЬСКОГО СОСТАВА
ГОСУДАРСТВЕННОЙ КОНСЕРВАТОРИИ УЗБЕКИСТАНА


dc. decentrale.
INTERCULTUREEL CENTRUM
GRATIS ÜCRETSİZ
23|06|2019 16:00
MANSUM İBRAHİMOV
& KARABAĞ MAKAM ENSEMBLE
LOCATIE: SINT-BAAFSABDIJ - 9000 GENT | WWW.DECENTRALE.BE
RESERVEREN VERPLICHT / REZERVASYON ZORUNLU
attila.bakiroglu@stad.gent


24
СЕНТЯБРЯ
20:00
LIVE
СОЛО ТАР
с Арсланом Новрасли


Tarix:19.02.2020
AMAC
Saat:18-00
"AMAC" təşkilatçılığı ilə keçirilən
Azərbaycan Milli Konservatoriyasının
"Yeni nəfəs" milli nəfəs alətlərindən ibarət
"a kapella" sekstet qrupu
İştirakçılar:
Vəlizadə Anar, Şıxəliyev Elşad, Pələngov Ramin,
Muradov Mais, Abdullayev Mətləb, Yəhyayev Aydın,
Həmzəyeva Səma, Həşimzadə Nigar, Nəcəfov İlham
Ünvan: İçəri Şəhər Hərbiçi küçəsi 3A.
Tel: (+99450) 870 07 50.


HACIBƏYLİ ADINA KONSERT SALONU
ŞAHGƏLDİYEVANIN
KONSERTİ


KONSERİ
Tarih ve Saat:
4 Aralık 2018, 19.00
Yer:
CSO Konser Salonu
Ankara


ناصر عطاپور


Azərbaycan Milli Konservatoriyası
Əməkdar artist
Lalə
Məmmədova
"Nəğməli Dünya"
adlı solo konserti


"MUĞAM AXŞAMLARI"
layihəsi
"Zabul Segah" muğamı


birgə layihəsi
"Muğam və Mənəviyyat"
"Könül" instrumental ansamblının
təqdimatında
MƏDƏNİYYƏT
AZƏRBAYCAN RADİOSU
Aygun Bayramova
"Mahur"
Fərəməz Gərmrudi
"Dəşti"
Nəzakət Teymurova
"Humayun"
Almaz Orucova
"Bayatı-şiraz"
18 noyabr saat 19:00-da Beynəlxalq Muğam Mərkəzində
Day.Az
Lent.az



Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
"Gənclərə dəstək" layihəsi təqdim edir
Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri
Solist
Azərbaycan Respublikasının Əməkdar Artisti
ÇİNARƏ HEYDƏROVA (qanun)
Ustad qarmon ifaçısı Əhəd Əliyevin (Kör Əhəd ləqəbli) yaradıcılığına həsr olunmuş elmi - seminar
31 may 2018-ci il 15:00-da
Tədbir AMK-nın "Bakı" zalında keçiriləcəkdir.
Azərbaycan Milli Konservatoriyası
HEYDƏR ƏLİYEV
95 İL
Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş konsert.
Konsert
07.05.2018-ci il tarixdə
saat 12:00-da
AMK-nın böyük zalında keçiriləcək.
NƏZAKƏT TEYMUROVA
XALQ ARTİSTİ
ƏLİAĞA SƏDİYEV
ELŞƏN MANSUROV
KAMRAN KƏRİMOV
Görkəmli Azərbaycan bəstəkarı Hacı Xanməmmədovun anadan olmasının 100 illiyinə həsr olunmuş Xalq çalğı alətləri ifaçılarının I respublika müsabiqəsi
Müsabiqə 26-30 noyabr tarixlərində
Üzeyir Hacıbəyli
IX BEYNƏLXALQ MUSİQİ FESTİVALI
18 - 26 sentyabr 2017-ci il
17 MAY 17.00
Ad libitum
3 NOYABR
SAAT 16:00
Əsrlərin Sədası
ŞİRVANŞAHLAR SARAYI KOMPLEKSİ
Azərbaycan Milli Konservatoriyası
Azərbaycan Respublikasının Əməkdar artisti, Opera ifaçısı
Zenfira İsmayılova-nın
solo konserti
"ARZU"
Konsertmeysterlər:
Naibə Şahməmmədova
Nigar Hüseynzadə
27 dekabr 2018
Saat 17:00
AMK-nın Böyük zalında
Ünvan: Ə.Ələkbərov 7
Azərbaycan Xalq Cümhuriyyəti 100 il
Azərbaycan Milli Konservatori
Xalq Çalğı Alətləri orkestrinin KONSERTİ
Orkestrin Bədii rəhbəri və Dirijoru
Aysel Bağırova
Proqramda Azərbaycan və Qərb bəstəkarlarının əsərləri səslənəcək
Solistlər:
İbrahim Babayev
Nigar Cəlilova
Gülnar Qüdrətli
Emin Zeynalli
Nüşabə Kərimli
Zərrin Muradova
1 MAY 2018
saat 17.00
Əməkdar İncəsənət Xadimi
bəstəkar
RAUF ƏLİYEVin
XATİRƏ GECƏSİ
Gecədə bəstəkarın xatirəsinə həsr olunmuş "HƏQİQƏT SORAĞINDA" sənədli filmi nümayiş olunacaqdır.
Ünvan: Azərbaycan Milli Konservatoriyası
Ə.Ələkbərov küçəsi, 7
AZƏRBAYCAN MİLLİ KONSERVATORİYASI
XALQ CÜMHURİYYƏTİ
100
KORO KONSERİ
11 Mayıs 2018 Saat:17:00
Yer: Azerbaycan Milli Konservatuarı Büyük Salon
Düzenleyen: Ozan Baldan
Koordinatör: Efgan Zeki Saleh
HARRAN ÜNİVERSİTESİ
Violin: Güllü Öztürk
Viola: Zeki Fırat Demirci
ƏLƏKBƏR ƏSGƏROV
85

























AUGUST
FÖRSTER




ŞÜŞTƏR











**İdeya müəllifi**
Siyavuş Kərimi

**Tərtibçi redaktor**
Lalə Hüseynova

**Materialları hazırlayanlar**

Arif Babayev
Malik Mansurov
Ramiz Əzizov
Leyla Zalıyeva
Firuz Abdinzadə
Azər Zeynalov
Bəyimxanım Vəliyeva
Akif Quliyev
Lalə Hüseynova
Fəttah Xalıqzadə
Adıgözəl Əliyev
Məmmədəli Məmmədov
Firudin Qurbansoy
Gülnarə Manafova
Fazilə Nəbiyeva

**Redaktorlar**
Gülnarə Manafova
Fazilə Nəbiyeva

**Dizayner**
Emin Aslanov
Gülnarə Rəfiq

Kitabın ərsəyə gəlməsində Azərbaycan Milli Konservatoriyasının, o cümlədən elmi-tədqiqat laboratoriyasının arxivi, habelə şəxsi kolleksiyalardakı fotolardan istifadə edilib

**Bakı 2020**